





1

# TƏSVİRİ İNCƏSƏNƏT

**METODİK VƏSAİT**



KƏMALƏ CƏFƏRZADƏ

# TƏSVİRİ İNCƏSƏNƏT 1

Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün
Təsviri incəsənət fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

© "Bakı" nəşriyyatı

Bu nəşrlə bağlı irad və təkliflərinizi **bn@bakineshr.az** və
**derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

# MÜNDƏRİCAT


Giriş ........................................................................................................ 3

Dərsliklə tanışlıq ......................................................................................... 3

Təsviri incəsənət dərslərinin tədrisinə dair ümumi tövsiyələr.............................. 5

Müəllim üçün metodik vəsait haqqında ......................................................... 6

Təsviri incəsənət fənn kurikulumu haqqında .................................................... 8

Şagird nailiyyətlərinin qiymətləndirilməsi ......................................................... 15

STEAM haqqında ........................................................................................ 20

TƏDRİS MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

1. ƏTRAFA NƏZƏR SALAQ ........................................................................... 21

2. TƏBİƏT VƏ İNCƏSƏNƏT ........................................................................... 39

3. DƏYƏR VERDİYİMİZ İNSANLAR ................................................................. 48

4. İNSAN VƏ MƏKAN ..................................................................................... 56

5. ƏYLƏNCƏ ZAMANI ..................................................................................... 63

6. HƏYATIMIZDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR ......................................... ..... 71

Mövzulara dair dərs nümunələri ...................................................................... 77

İstifadə edilən ədəbiyyat ................................................................................. 80

## Giriş

Ümumtəhsil məktəblərinin I sinifləri üçün təsviri incəsənət fənni üzrə dərslik komplekti dərslik və müəllim üçün metodiki vəsaitdən ibarətdir. Komplekt Azərbaycan Respublikası ümumi təhsilin konsepsiyası (Milli kurikulumu) əsasında hazırlanmış, şagirdin möhtəşəm və maraqlı sənət aləmi haqqında qavrama pillələrinə müvafiq olan və sadədən mürəkkəbə doğru prinsipi ilə edilmiş mövzulara əsaslanan məzmun nəzərə alınmışdır. Şagird müəllimin köməyi ilə bu pillələrlə addım-addım irəlilədikcə incəsənətin mahiyyətini, onun obrazlı dilini və müxtəlif bədii materiallarla ifadəsini anlamağa başlayacaq. İbtidai siniflərdə təsviri incəsənət fənninin mahiyyəti – şagirdin ümumi bədii təfəkkürünün inkişaf təməli deməkdir.

## Dərsliklə tanışlıq

"Təsviri incəsənət" dərsliyi şagirdlərin istifadəsi üçün nəzərdə tutulmuşdur. Təqdim edilən dərslik şagirdlərin həyatı ilə əlaqəli olan, eyni zamanda onlar üçün böyük əhəmiyyət kəsb edən həyat hadisələri ilə zəngin və əlaqəli altı vahiddən ibarətdir. Bu tədris vahidləri rəssam əsərləri, fotoşəkillərlə zaman və məkan arasında mənalı əlaqələr yaradır.



















Dərslikdə verilən mövzular şagirdin yalnız təsvir bacarıqlarına deyil, onun ümumi inkişafına istiqamətlənərək düşünməyə sövq edir, onlarda müstəqil tədqiqatçılıq, yaradıcılıq vərdişləri aşılayır, tənqidi təfəkkürü inkişaf etdirir. Verilən biliklər müxtəlif həyat hadisələri ilə, fənlərlə inteqrasiya olunaraq mövzunun, anlayışın daha dərindən başa düşülməsinə xidmət edir. Dərslikdə mövzuların strukturu sistemli şəkildə metodiki bloklara ayrılmış və müəllim, şagird və valideynlərin tanış olması üçün informasiya xarakterli təqdimat kimi təqdim edilmişdir. Müəllim ilk dərs zamanı şagirdləri bu strukturla tanış edə bilər.



**"Düşünək-müzakirə edək"** blokunda yer alan əsas suallar şagird sorğusunu, düşüncəsini və araşdırmasını təşviq edir. Bütün siniflə müzakirə etmək üçün mövzuya yönləndirici suallar, fotoşəkil və rəssam əsərləri təqdim edilmişdir.

**Şərti işarələr** – mövzu üzrə təqdim edilən fotoşəkil, rəssam əsərləri və ya şagird rəsmlərinin əlifba sırası ilə ardıcıllığını göstərən hərflərdir.

**"Öyrənək"** blokunda mövzu ilə tanışlıq yer alır. Burada məzmun üzrə nəzəri məlumatlar şagirdin yaş səviyyəsinə uyğun təqdim edilmişdir.

**"Qalereya"** blokunda rəssamların yaradıcılığı, əsərlərinin təhlili və tənqid üzrə iş yer almışdır.

Mövzunun sonunda verilmiş suallar – **refleksiya** xarakteri daşıyır və mövzunu yekunlaşdırmaq üçün bütün siniflə müzakirəsi nəzərdə tutulmuşdur.

**"Yaradıcılıq studiyası"** bloku yaradıcı fəaliyyət üçün nəzərdə tutulmuş və digər bloklardan rəng vasitəsilə ayrılmışdır. Burada məşğələ zamanı görüləcək təlimatlar, tapşırıqlar, istifadə ediləcək ləvazimatlar, rəsm, yapma və aplikasiya texnikalarında metodiki ardıcıllıqlar, Bakı məktəblərinin şagirdlərinin rəsm və əl işləri verilmişdir.

**"Yeni sözlər"** blokunda mövzu ilə bağlı yeni sözlər təqdim edilmişdir. Dərsliyin sonunda, 80-ci səhifədə təsviri incəsənətlə bağlı yeni sözlərin izahı təqdim edilmişdir. Şagirdlər müəllimin köməyi ilə bu termin və anlayışlarla tanış ola bilərlər.

Dərslikdə alt-standartlar üzrə yer alan bilik və bacarıqlara əsaslanan məlumat qısa şəkildə təqdim edilmişdir. Burada təsviri və tətbiqi sənətin növləri, janrları rəssam əsərləri vasitəsilə şagirdləri tanış edir. Təsviri və dekorativ yaradıcılıq zamanı istifadə edəcəyi alət və materialların fotosu da bu məqsədlə verilmişdir.





Şagirdlərin "Təsviri incəsənət" dərsliyindən düzgün istifadə etməsi üçün müəllim kitab və səhifələri ilə onları tanış edir. Dərsliyin 6-7-ci səhifələrində verilmiş **Kitabınızla tanış olun** rubrikasında təqdim edilən blokların hansı məqsəd daşıdığı, ardıcıllığı haqqında danışır və nümayiş etdirir. Dərsliyin 8-9-cu səhifələrində I sinif təsviri incəsənət fənn kurikulumunun məzmun xətləri üzrə əsas və alt-standartlarda əks olunan təsviri və dekorativ-tətbiqi sənətin əsas növləri, təsviri sənətin janrları, əşyalar aləmi Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrinin əsərləri və xalq sənət nümunələri vasitəsilə təqdim edilmişdir.

Müəllim şagirdləri məşğələ zamanı istifadə edəcəkləri ləvazimatlarla dərsliyin 10-11-ci səhifəsində verilmiş fotoşəkillər vasitəsilə tanış edir. Müəllim, şagirdlərə həmin materialların evdə olub-olmadığını yoxlamağı və ya əldə etməyi tövsiyə edə bilər. O, işin düzgün təşkil olunması üçün şagirdləri məşğələ zamanı olan qaydalarla tanış edir. Bu məlumatlar valideynlər üçün də faydalı hesab olunur, çünki ləvazimatları alarkən, dərsliyin səhifələrinə baxmaları tövsiyə edilir.

**Təsviri incəsənət dərslərinin tədrisinə dair ümumi tövsiyələr**

1-ci sinif təsviri incəsənət fənninin məzmununun əsasını bədii fəaliyyətin üç növü təşkil edir – təsviri, dekorativ və konstruktiv. Eyni zamanda bu fəaliyyət növlərinin hər biri şagird işlərinin yaradılmasında iştirak edir və incəsənət növlərinin inteqrasiyasının təməlini təşkil edir, yaradıcı qabiliyyətin inkişafı üçün ilkin vərdişlər verir. "Təsviri incəsənət" fənninin əsas xüsusiyyəti – şagirddə yaradıcı inkişafın formalaşdırılmasıdır.




Vəsaitdə təqdim olunan mövzular altı tədris vahidində cəmləşmişdir. Tədris vahidlərini 27 mövzu əhatə edir. Burada təsvirin xırda detallardan deyil, xətt və formalardan, ümumidən təfərrüata doğru başlandığına xüsusi diqqət yetirmək lazımdır.

I sinifdə təlimin oyun əsasında təşkil edilməsi əhəmiyyətlidir. Çünki bu yaş səviyyəsində olan uşaqların fəal inkişafı, ətraf aləmi dərk etmələri təbiidir. Yaranan situasiyanı söz, hərəkət, jest, səs, intonasiya ilə göstərmək çox vacib məqam sayılır. Müəllim real mühitdə kiçikyaşlı şagirdlər üçün nağıl, xəyallarla dolu obraz yaratmaqla onları dərsə cəlb edir, təxəyyül və fantaziyalarının inkişafında böyük rol oynadığını təmin edir.

Birinci **"Ətrafa nəzər salaq**" adlı vahiddə təsviri sənətin tədrisinin əsasları mövcuddur. Lakin ardıcıllıqla və oyun formasında qurulduğuna görə, adətən, şagirdlər tərəfindən asanlıqla qavranılır. Təsviri sənət bu yaş səviyyəsində olan şagirdlər üçün müxtəlif texnika və materialların cəlb edilməsi ilə xüsusilə rəngarəng və mahiyyətli olur. Şagirdlərin yaradıcılıqda istifadə etdikləri materialları dərindən mənimsəməsi məqsədi ilə vəsait müxtəlif rəngarəng tapşırıqlarla təchiz olunmuşdur. Oyun formasında təqdimat yeni biliklərə yiyələnməyə imkan yaradır. Tədris ilinin əvvəlində ekskursiya təşkil etməklə ətraf aləmlə tanışlıq, müşahidə və qavrama bacarıqlarını inkişaf etdirmək əhəmiyyətli olardı. Bu vahiddə şagirdlər aşağıdakı suallara cavab axtarırlar:

- "Təbiət" dedikdə nə başa düşürsünüz?
- Ətrafımızda hansı gözəlliklər var?
- Təbiəti necə təsvir etmək olar?

İkinci vahid **"Təbiət və incəsənət"** adlanır, konstruktiv və dekorativ bacarıqlarla zəngindir. Hər bir əşyanın quruluşunu, bəzəyini görmək və anlamaq, təfəkkürün və zövqün əsas xüsusiyyətləri olaraq, tədricən qazanılır. Vahid həm də boyalarla tanışlığa da həsr olunub. Boyalarla iş xüsusi təşkilati bacarıqlar tələb etdiyinə görə bir qədər ləngidilib. 1-ci sinifdə rənglərin bir-biri ilə qarışdırılması və müxtəlif çaların alınması əsas məqsəd daşımır. Bu yaşda olan uşaqlar, sadəcə, boyalarla çəkir və rəngləyirlər. Rəng mühiti isə tədricən yuxarı sinifdə öz əksini tapacaq. Bu vahiddə şagirdlər aşağıdakı suallara cavab axtarırlar:

- Təbiət insana nə verir?
- Təbiətdə hansı rənglər var?
- Təbiəti bəzəyən nələrdir?

Üçüncü – **"Dəyər verdiyimiz insanlar"** adlı vahiddə Azərbaycanın görkəmli sənət nümayəndələri və onların məşhur əsərləri ilə tanışlıq öz əksini tapır. Şagirdlər rəssam yaradıcılığında insan obrazının, onun gündəlik fəaliyyətinin, bir-birinə olan qayğı və sevgisinin şahidi olurlar. Bu vahiddə də rəngarəng texnika müxtəlifliyi öz əksini tapmışdır. Müəllimin Azərbaycan Dövlət İncəsənət Muzeyinə ekskursiya təşkil etməsi əhəmiyyətli sayılardı. Muzeydə şagirdlər təsviri incəsənət dərslərində tanış olduğu rəssam

və onların əsərləri ilə canlı olaraq təmasda olacaq və bu da onlarda xüsusi bir hiss oyadacaq. Bu vahiddə şagirdlər aşağıdakı suallara cavab axtarırlar:

- İnsanlar bir-birindən nə ilə fərqlənirlər?
- Ən çox sevdiyiniz insanlar kimlərdir?
- Siz həmin insanları necə təsvir edərdiniz?

Dördüncü vahid **"İnsan və məkan**" adlanır. Burada şagird yaşadığı evin otaqları, yaşadığı küçə, əyləndiyi park haqqında təəssüratlarını öz sinif yoldaşları ilə paylaşmış olacaqlar. Doğma şəhərə ekskursiya təşkil etmək, tarixi abidələrlə, şəhərin çox sayda yelləncək və attraksionları olan park və bağları ilə tanışlıq burada yerinə düşərdi. Bu vahiddə şagirdlər aşağıdakı suallara cavab axtarırlar:

- Qədimdə insanlar harada yaşayırdılar?
- Ev insanlara nə üçün lazımdır?
- Evləri harada tikirlər?

Beşinci vahid **"Əyləncə zamanı"** adlanır. Şagirdlər ilk mövzuda ən çox sevdikləri ziyafət şirniyyatının hazırlanmasında rəssamın rolu haqqında öyrənir, forma və rəngarəngliyini müqayisə edirlər. Burada insanın bayram, oyun və xüsusi geyimləri haqqında geniş məlumat verilmişdir. Milli geyim dəstlərimizin naxış və ornamentləri, peşə sahiblərinin adi insanlardan fərqləndirən xüsusi geyimləri, oyun zamanı geyinilən geyimlərdə rəng, forma və ölçü haqqında geniş məlumat alırlar. Bu vahiddə şagirdlər aşağıdakı suallara cavab axtarırlar:

- Bayram günlərində insanlar necə əylənirlər?
- Şənliklərdə süfrələri hansı şirniyyatlar bəzəyir?
- İnsanlar bu bayram günlərində necə geyinirlər?

Altıncı vahid **"Həyatımızda baş verən dəyişikliklər"** adlanır. Bu vahiddə şagirdlər müasir dövrdə baş verən dəyişikliklər, texnologiyalar, keçmiş və müasir zamanın fərqli xüsusiyyətləri haqqında öyrənirlər. Uşaqlar oyuncaqların, qab-qacaqların, mebel və avtomobillərin keçmişdə necə olduğunu, hansı materialdan hazırlandığını, onların forma və ölçülərini müasir dövrdə olanlarla müqayisə edirlər. Bu vahiddə şagirdlər aşağıdakı suallara cavab axtarırlar:

- Həyatınızda hansı dəyişikliklər baş verir?
- İstifadə etdiyiniz əşyaları gələcəkdə necə görmək istərdiniz?
- Uçan avtomobil, yaxud robotunuz olsaydı onlarla nə edərdiniz?

### Müəllim üçün metodik vəsait haqqında

Şagirdin məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. Məktəbəqədər təhsil uşaqların fiziki, psixoloji, idrakı və sosial inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, istedad və qabiliyyətlərinin üzə çıxarılması, estetik inkişafında, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq kimi keyfiyyətlərin, hisslərin və həyati bacarıqların formalaşmasında mühüm rol oynayır.

Məktəbəqədər təhsil proqramında (kurikulumunda) uşaq fəaliyyətinin təmin olunması və bacarıqlarının formalaşması, onun bir subyekt kimi inkişaf etməsi üçün müvafiq təhsil şəraitinin yaradılması nəzərdə tutulur. Məktəbəqədər təhsil ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən qavramaq və müvafiq bədii nümunələr yaratmaq üçün ilkin pillədir. Bu sahədə aparılan işlər estetik tərbiyənin vəzifələrinə daxildir. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Estetik tərbiyə məktəbəqədər olan uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşməsi, quraşdırma prosesində müxtəlif modellərin qurulması məktəbəqədər yaşlı uşaqların estetik inkişafına kömək edir.

Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emosional münasibət formalaşmağa başlayır.

Məktəbəqədər təhsil pilləsi üçün məzmun standartları: məktəbəhazırlıq qrupu (5-6 yaş):

**Uşaq:**

**3.1. Sadə yaradıcılıq qabiliyyətləri nümayiş etdirir.**

3.1.1. Təsvir alətləri və vəsaitlərdən (sadə və rəngli karandaş, flomaster, rəngli təbaşir, kömür, rəngli boya, qayçı, fırça, yapışqan, rəngli kağız, gil və plastilin, molbert, palitra) təyinatına görə istifadə edir.

3.1.2. Rəsmetmə (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında süjetlər yaratmaq), yapma (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sadə obrazlar yaratmaq) və yapışdırma (müxtəlif kəsmə üsullarından istifadə edərək, mövzular, bədii əsərlər, təsəvvürləri əsasında kompozisiyalar qurmaq) bacarıqları nümayiş etdirir.

3.1.3. Verilmiş nümunə və sxemlər əsasında quraşdırma (fərdi və kollektiv şəkildə müxtəlif fiqurlar və kompozisiyalar düzəltmək), planlaşdırma bacarıqları nümayiş etdirir.

Müəllim üçün vəsaitdə təsviri incəsənət fənninin tədrisi şagirdlərin bədii yaradıcılıq fəaliyyət növləri ilə təqdim edilir: **naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ-tətbiqi fəaliyyət, yapma, təsviri sənət haqqında söhbət.**

Naturadan rəsm düşünməyə və məqsədəuyğun şəkildə müşahidələr aparmağa, təbiətin təhlilinə maraq oyatmağı öyrədir. Naturadan rəsm edərkən, şagird naturanı diqqətlə nəzərdən keçirir, xarakterik xüsusiyyətlərini qeyd etməyə çalışır, əşyanın strukturunu anlayır. Naturadan rəsm zamanı mövzu ilə əlaqədar anlayışlar, fikirlər və nəticələr daha dəqiq və aydın olur, çünki göz qarşısında olan natura görmə, toxunma, ölçmə və müqayisə üçün əlçatan olur. Məktəbdə naturadan rəsmin tədrisi zəka bacarıqlarının inkişafına gətirib çıxarır. Şagirdlərdə aydın obrazlı düşüncə tərzini inkişaf etdirərək, naturadan rəsm də yaddaşın inkişafına təsir göstərir. İnsan həyatında məcazi yaddaşın rolu çox böyükdür. Lakin naturadan rəsmin təsiri şəkilli yaddaşla məhdudlaşmır, digər növ yaddaşları da təsir edir. Naturadan rəsm zamanı həm də abstrakt düşüncə tərzi inkişaf edir.

Mövzu üzrə rəsm (tematik) dərslərinin məzmunu ətrafdakı həyatın müxtəlif süjetlərinin təsvirini, ədəbi əsərlərin illüstrasiyasını, uşaqların özləri tərəfindən icad edilmiş müxtəlif mövzularda olan rəsmlərin yaradıcı kompozisiyasını əhatə edir. Mövzu üzrə rəsm şagirdlərə fikir və düşüncələrini təsviri sənət vasitəsi ilə çatdırmaq bacarığı qazanmaq imkanı verir. Mövzu üzrə rəsm çəkmək yaradıcılığı inkişaf etdirir, uşaqları işlərində müstəqil olmağı öyrədir, düşüncə və hisslərini daha dolğun ifadə etməyə imkan verir. Rəsm-kompozisiyalarda uşaqlar təəssüratlarını, ətraf aləmi qavrama tərzini birbaşa ifadə edirlər. Lakin bu tip şagirdlərin işi də birbaşa müəllimin rəhbərliyi ilə baş verməlidir. Mövzu üzrə rəsm çəkməyin uğuru, bütün digər fəaliyyətlər kimi, bundan asılıdır. Müəllim uşaqları süjetə maraq göstərməyi, yaradıcı təxəyyüllün aktivləşdirməyi, işlərini düzgün istiqamətə yönəltməyi bacararsa, yaradıcılıq prosesi çox fəal şəkildə davam edəcəkdir.

Mövzu üzrə rəsm müəllim üçün də müəyyən bir əhəmiyyət kəsb edir: şagirdlərin mənəvi aləmini daha yaxşı tanımağı, hər bir şagirdin xarakter xüsusiyyətlərini öyrənməyi, obrazlı təsvir və təxəyyül qabiliyyətlərinin necə olduğunu izləməyə imkan verir.

Şagirdlərin yaradıcılıq qabiliyyətləri dekorativ-tətbiqi fəaliyyət dərslərində xüsusilə effektiv inkişaf edir. Dekorativ rəsm şagirdləri dekorativ-tətbiqi sənətin əsas prinsipləri ilə tanış etmək məqsədi daşıyır. Əşyanın dekorativ tərtibatı müəyyən qaydalar və qanunlar əsasında həyata keçirilir: ritm, simmetriya, rənglərin ahəngdar əlaqəsi. Dekorativ fəaliyyət məşğələlərində şagirdlər naxış düzəltməyi, kompozisiya qanunlarını öyrənməyi, boya ilə işləmək bacarıqlarını mənimsəməyi davam etdirir, Azərbaycan və digər xalqların dekorativ yaradıcılığını öyrənirlər. Dekorativ fəaliyyət zamanı şagirdlər bədii dizaynın əsasları ilə də tanış olurlar. Dekorativ-tətbiqi fəaliyyət məşğələləri əsasən milli naxışların formasının çəkilməsi və rənglənməsi ilə məhdudlaşmır. Bütün bunlar bədii zövqün və estetik hisslərin inkişafına kömək edir.

Yapma – təsviri fəaliyyətin bir növüdür. Yapma – uşaqların tədrisi və tərbiyəsi üçün böyük əhəmiyyətə malikdir. Bu bir əşya haqqında təsəvvürün əlifbasıdır. Heykəltəraşlıq təsviri sənət növü kimi həyatımızda mühüm rol oynayır. O, fərqli və böyük fikirləri, mürəkkəb düşüncələri və hissləri təbliğ edir. Digər sənət növləri kimi, heykəltəraşlığın da özünəməxsusluğu var ki, bu da həm məzmunda, həm də material seçimində ifadə olunur. Heykəltəraşlıq obrazının fərqli xüsusiyyəti həcmli və üçölçülü olmasıdır.

Naturadan yapma – uşaqlar üçün çox vacib bir iş növüdür, çünki təbii əşya öz ölçüləri ilə uşaqların

hazırladığı məhsuldan daha iri və ya kiçik ola bilər. Bu səbəbdən, şagirdlərin formanı təhlil etməsi, əşyanın ayrı-ayrı hissələrinin bir-biri ilə nisbətinin qurulması, proporsiyaları tapmaqdan əlavə, hətta işi müəyyən bir miqyasda tamamlamaları lazım olur.

Məktəbdə təsviri sənət haqqında söhbətlər zamanı müəllim şagirdləri görkəmli rəssam, heykəltəraş və memarların həyat və yaradıcılığı ilə tanış edir. Uşaqlar sənətkarların əsərlərinin ideoloji dərinliyini, emosional ifadə qabiliyyətini necə və hansı vasitələrlə əldə etdiklərini öyrənirlər. Şagirdlərin rəssamların əsərləri ilə sistemli tanışlığı estetik tərbiyə vasitələrindən biridir. Sənət əsərlərinin qavranılması, qiymətləndirilməsi bacarıqları və vərdişləri şagirdlərin mədəni səviyyəsini artırır. Bilik və bacarıq tədricən inkişaf edir - bir əsərə baxmaq və onun məzmununu başa düşmək üçün elementar qabiliyyətdən bədii ifadə vasitələrini başa düşməyə qədər çox vacibdir. Müəllim dərs zamanı sənətkarın hisslərini, doğma təbiətə olan sevgisini açıq şəkildə ifadə edən bir rəsm əsərinin reproduksiyasını nümayiş etdirərkən, uşaqlarda sevgi hissinə, vətənə heyran qalmasına səbəb olur.

Müəllim vəsaitdə tövsiyə olunan materiallardan sinfin hazırlıq səviyyəsinə, tədris vaxtına, texniki təchizata və diferensial təlim prinsiplərinə uyğun olaraq lazım bildiyi qədər istifadə edə bilər. Vəsaitdə, ümumiyyətlə, STEAM layihələri zamanı qruplarla, tədqiqat işlərində qruplarla və cütlərlə iş formalarına daha çox üstünlük verilir. Praktik dərslər zamanı isə şagirdlərdə fərdi bacarıqların formalaşdırılması məqsədi ilə, əsasən, fərdi və cütlərlə iş formasından istifadə edilməsi daha məqsədəuyğundur. Cütlərdə işləyən şagirdlər tədqiqat işini də birlikdə yerinə yetirirlər.

Yaradıcı tətbiqetməyə çox vaxt tələb olunduğu üçün bu mərhələnin tətbiqinin evdə yerinə yetirilməsi nəzərdə tutulur, lakin müəllimin istəyindən asılı olaraq o, dərsdə də reallaşa bilər. Şagird işlərinə məzmun, orijinallıq və yaradıcılıq nöqteyi-nəzərindən hər zaman diqqət ayırmaq çox vacibdir. İşlərin müzakirəsi şagirdlərin diqqətini aktivləşdirir, yaradıcı ünsiyyət təcrübəsini formalaşdırır.

Sərgilərin vaxtaşırı təşkili şagirdlər üçün yeni şəraitdə öz nəticələrini yenidən qiymətləndirmək, nailiyyətlərinə sevinclə nəzər salmaq imkanı verir. Bu işlər valideyn və dostlar üçün hədiyyə, məktəbin tərtibatında isə çox gözəl bəzək nümunələri ola bilər.

## Təsviri incəsənət fənn kurikulumu haqqında

Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) bu fənnin təlimi qarşısında qoyulan məqsəd və vəzifələri müəyyənləşdirən, müvafiq təlim standartlarının reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir.

Təsviri incəsənət fənni şagirdlərin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək, hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin zənginliyini və rəngarəngliyini şagirdlərə bədii təsvirlər (görüntülər, obrazlar) vasitəsilə əyani şəkildə aşılamaq onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradır.

Təsviri fəaliyyət şagirdləri həm əqli, həm də estetik cəhətdən inkişaf etdirir, onları ətraf mühiti dərk etməyə yönəldir, təbiətin və əşyaların formasını, rəngini və materialını, onların vəhdətini, gözəlliyini hiss etməyə və bu hissiyyatları təsvirlərdə əks etdirməyə imkanlar yaradır. Təsvir etmək insanın görmə yaddaşını, mühit və məkan duyumunu, obrazlı təsəvvür qabiliyyətini inkişaf etdirir. Təsviri incəsənət fəaliyyəti şagirdləri məkan və forma ölçülərini hiss etməyə, obrazlı və məntiqi düşünməyə və bu düşüncələri vizual obrazlarda əks etdirməyə istiqamətləndirir.

Təsviri incəsənət fənni şagirdlərdə Azərbaycan və dünya incəsənətinin klassik nümayəndələri və nümunələri haqqında uşaqların məlumat dairəsini genişləndirir, mənəvi aləmini daha da zənginləşdirir. Fənnin məqsədi – estetik dünyagörüşlü, zəngin mənəviyyata, bədii zövqə və yaradıcı təxəyyülə, obrazlı düşüncə tərzinə malik, incəsənət əsərlərini duyub qiymətləndirməyi bacaran şəxsiyyət formalaşdırmaqdır.

Kurikulumda təsbit olunmuş məqsəd və vəzifələri aşağıdakı məzmun xətləri vasitəsilə həyata keçirmək nəzərdə tutulur :

**1. Cəmiyyət və təsviri incəsənət.** Bu məzmun xətti cəmiyyətdə təsviri incəsənətin rolu, cəmiyyət və təsviri incəsənət arasındakı əlaqələri, baş verən tarixi hadisələrin mahiyyətinin dərk olunmasında təsviri incəsənət nümunələrinin əhəmiyyəti, milli və dünya təsviri incəsənət tarixinin görkəmli nümayəndələri, onların məşhur əsərləri haqqında məlumatları əhatə edir.

**2. Təsviri və dekorativ yaradıcılıq.** Təsvir yaradarkən şagird hadisələri, obyektləri və əşyaları dərk etdiyi tərzdə vizuallaşdıraraq onların mahiyyətinə, qarşılıqlı əlaqələrinə və fərdi xüsusiyyətlərinə öz münasibətini bildirir.

Təsviri sənətin mühüm hissəsi olan, istər müstəvi səth üzərində (qrafika, rəngkarlıq), istərsə də üçölçülü plastik forma yaratmaq bacarığı (heykəltəraşlıq) şagirddə forma hissiyyatını təmin etməklə, onun forma gözəlliyindən və kamilliyindən zövq almaq qabiliyyətini inkişaf etdirir.

Təsviri və dekorativ yaradıcılıq şagirdlərə eyni zamanda tərtibat, quraşdırma, dizayn bacarıqları aşılayır. Dekorativ yaradıcılıq prosesi şagirdlərin abstrakt və estetik düşüncə qabiliyyətini inkişaf etdirərək rənglərin, formaların, ölçülərin vəhdət prinsiplərini və qanunauyğunluqlarını mənimsəməsini təmin edir.

**3. Estetik reaksiya.** Azərbaycan və dünya incəsənəti tarixini təşkil edən incəsənət əsərləri ilə təmasda olmaq şagirdə milli və ümumbəşəri dəyərlərə yiyələnməklə bir növ mədəni mübadilə prosesini yaşadır. Təsviri incəsənət fənninin mənimsənilməsi nəticəsində formalaşdırılan və inkişaf etdirilən bədii həssaslıq və emosional qavrama bacarıqları şagirdlərin mənəvi dünyasını zənginləşdirir, onlarda milli və ümumbəşəri dəyərlərə hörmət hislərini qüvvətləndirir.

### I sinif təsviri incəsənət fənn kurikulumunun məzmun xətləri üzrə əsas və alt-standartları

**I sinfin sonunda şagird:**

- təsviri və dekorativ-tətbiqi sənətin əsas növlərini sadalayır;
- Azərbaycanın görkəmli təsviri incəsənət nümayəndələri (B.Kəngərli, Ə.Əzimzadə, S.Bəhlulzadə, F.Əbdürrəhmanov) və onların ən məşhur əsərlərini sadalayır;
- sadə təsvir alətlərindən (karandaş, fırça, flomaster, kömür) və bədii ifadə vasitələrindən (xətt, cizgi, ton) istifadə edir;
- sadə həndəsi fiqurlar çəkir, kiçik kompozisiyalar qurur;
- verilmiş sadə formalı əşyaları şərh edir, rəng çalarlarına ayırır.

**1. Cəmiyyət və təsviri incəsənət / Şagird:**

**1.1. Təsviri və dekorativ-tətbiqi sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.**

1.1.1. Təsviri sənətin əsas növlərini (qrafika, rəngkarlıq, heykəltəraşlıq) sadalayır.

1.1.2. Dekorativ-tətbiqi sənətin əsas növlərini (xalçaçılıq, misgərlik, milli geyim) sadalayır.

1.1.3. Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrini (Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Fuad Əbdürrəhmanov) və onların ən məşhur əsərlərini sadalayır.

**2. Təsviri və dekorativ-tətbiqi yaradıcılıq / Şagird:**

**2.1. Təsviri sənət üzrə zəruri sadə təsvir alətlərindən istifadə bacarıqlarını nümayiş etdirir.**

2.1.1. Sadə təsvir alətlərindən (karandaş, qələm, fırça, flomaster, kömür) təyinatına görə istifadə edir.

2.1.2. Sadə bədii ifadə vasitələrindən (xətt, cizgi, ton) istifadə qaydalarını mənimsədiyini nümayiş etdirir.

2.1.3. Əsas rəngləri tanıyır, onları sadalayır.

2.1.4. Sadə və rəngli karandaşlarla səthi təsvir yaradır.

**2.2. Sadə tərtibat və dizayn bacarıqlarını nümayiş etdirir.**

2.2.1. Müxtəlif növ xətlərdən sadə həndəsi fiqurlar çəkir, plastik materialdan sadə fiqurlar düzəldir, hazır fiqurlardan kiçik kompozisiyalar qurur.

**3. Estetik reaksiya / Şagird:**

**3.1. Verilmiş sadə təsviri və dekorativ-tətbiqi sənət nümunələrinə münasibət bildirir.**

3.1.1. Verilmiş sadə formalı əşya və təsvirləri şərh edir.

3.1.2. Verilmiş əsərlərdə rəng çalarlarını ayırır və adlandırır.

## I sinif təsviri incəsənət üzrə məzmun standartlarının reallaşdırılması cədvəli

| Tədris vahidi | Həftə | Mövzu | Məşğələ növü | Məzmun xətləri, əsas və alt standartlar | | | | | | | | | | Saat |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1. Cəmiyyət və təsviri incəsənət | | | 2. Təsviri və dekorativ yaradıcılıq | | | | | 3. Estetik reaksiya | | |
| | | | | 1.1. | | | 2.1. | | | | 2.2. | 3.1. | | |
| | | | | 1.1.1. | 1.1.2. | 1.1.3. | 2.1.1. | 2.1.2. | 2.1.3. | 2.1.4. | 2.2.1. | 3.1.1. | 3.1.2. | |
| 1. Ətrafa nəzər salaq | 1. | **1. Təbiətin gözəlliyi** | Mövzu üzrə rəsm | | | + | | | | + | | | + | 1 |
| | 2. | **2. Ətrafda xəttin müxtəlifliyi** | Naturadan rəsm | | | | | + | | + | + | + | | 1 |
| | 3. | **3. Təbiətin nemətləri** | Yapma (natura) | | | | | | | | + | + | + | 1 |
| | 4. | **4. Kiçik dostlarım** | Dek.-tətbiqi fəaliyyət / Aplikasiya | | | | | | | | + | + | | 1 |
| | 5. | **5. Rəngarəng quşlar** | Dek.-tətbiqi fəaliyyət / Oriqami | | | | | | | | + | + | | 1 |
| | 6. | **STEAM: Heyvanlar aləminin xəritəsini hazırlayaq** | Qarışıq texnika (aplikasiya, yapma) | | | | | | | | + | + | | 1 |
| 2. Təbiət və incəsənət | 7. | **6. Təbiətin yaratdığı evlər** | Mövzu üzrə rəsm | | | | + | | | + | | + | | 1 |
| | 8. | **7. Torpağın naxışları** | Dek.-tətbiqi fəaliyyət | | + | | + | | | | | + | | 1 |
| | 9. | **8. Heyvanların naxışlı "geyimləri"** | Dek.-tətbiqi fəaliyyət | | | | | | | | + | + | | 1 |
| | 10. | **9. Təbiətin rəngləri** | Mövzu üzrə rəsm | + | | | | | + | | | | + | 1 |
| | 11. | **10. Bəzəkli həşəratlar** | Dek.-tətbiqi fəaliyyət / Monotipiya | | | | + | | + | | | + | | 1 |
| | 12. | **STEAM: Payız meşəsində düşərgə aplikasiyasını hazırlayaq** | Dek.-tətbiqi fəaliyyət / Aplikasiya | | | | | | + | | + | | + | 1 |
| 3. Dəyər verdiyimiz insanlar | 13. | **11. Mən kiməm?** | Dek.-tətbiqi fəaliyyət / Aplikasiya | | | + | | | | | + | + | | 1 |
| | 14. | **12. Həyatımızdakı xüsusi insanlar** | Mövzu üzrə rəsm | | | + | | | | + | | | | 1 |
| | 15. | **13. Fəaliyyətdə olan insanlar** | Yapma | + | | + | | | | | + | | | 1 |
| | 16. | **STEAM: İncəsənət muzeyində sərgi zalı və tamaşaçıları hazırlayaq** | Dek.-tətbiqi fəaliyyət / Aplikasiya | + | | | | | | | + | + | | 1 |
| 4. İnsan və məkan | 17. | **14. Evimizin otaqları** | Mövzu üzrə rəsm | | | | + | | | | | + | | 1 |
| | 18. | **15. Pəncərədəki naxışlar** | Mövzu üzrə rəsm | + | | + | | + | | | | | | 1 |
| | 19. | **16. Bizim küçə** | Dek.-tətbiqi fəaliyyət / Aplikasiya | | | | | | | | + | + | | 1 |
| | 20. | **17. Torpaq və səma** | Mövzu üzrə rəsm | | | + | + | | | | | + | | 1 |
| | 21. | **18. Əyləncə parkı** | Mövzu üzrə rəsm | | | | | | + | + | + | | | 1 |
| | 22. | **STEAM: Şəhərimizi quraq** | Dek.-tətbiqi fəaliyyət / Aplikasiya / Konstruksiya | | | | | | | | + | + | | 1 |
| 5. Əyləncə zamanı | 23. | **19. Ziyafət şirniyyatları** | Mövzu üzrə rəsm | | | + | | + | | | + | + | | 1 |
| | 24. | **20. Bayram geyimləri** | Dek.-tətbiqi fəaliyyət | | + | + | + | | | | | | | 1 |
| | 25. | **21. Xüsusi geyimlər** | Mövzu üzrə rəsm | | | | | + | | | | + | | 1 |
| | 26. | **22. Oyun geyimləri** | Mövzu üzrə rəsm | | | | | + | | | | + | | 1 |
| | 27. | **23. Bayram maskaları** | Dek.-tətbiqi fəaliyyət | | | | | | | | + | + | | 1 |
| | 28. | **STEAM: Əyləncə üçün məkan və geyim çəkək** | Mövzu üzrə rəsm | | | | + | | | | | + | | 1 |
| 6. Həyatımızda baş verən dəyişikliklər | 29. | **24. Ağıllı oyuncaqlar** | Dek.-tətbiqi fəaliyyət / Aplikasiya | | | | | | | | + | + | | 1 |
| | 30. | **25. Gündəlik əşyalar** | Yapma (natura üzrə) | + | + | | | | | | | + | | 1 |
| | 31. | **26. Gələcəyin mebeli** | Mövzu üzrə rəsm | | | | | + | | + | | + | | 1 |
| | 32. | **27. Səyahət üçün avtomobil** | Mövzu üzrə rəsm | | | | + | | | | | + | | 1 |
| | 33. | **STEAM: Gələcəyin robotlarını hazırlayaq** | Dek.-tətbiqi fəaliyyət / Konstruksiya | | | | | | | | + | + | | 1 |

**I sinifdə təsviri incəsənət fənnindən alt-standartlar üzrə "Cəmiyyət və təsviri incəsənət" məzmun xətti üzrə reallaşdırılacaq bacarıqların nümunəsi**

**1. Cəmiyyət və təsviri incəsənət / Şagird:**

**1.1.** Təsviri və dekorativ-tətbiqi sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.

1.1.1. Təsviri sənətin əsas növlərini (qrafika, rəngkarlıq, heykəltəraşlıq) sadalayır.

- Təsviri sənətin qrafika növünü verilmiş (təqdim edilmiş) qrafik təsvirlər əsasında ayırır.
- Təsviri sənətin qrafika növünün əsas xüsusiyyətlərindən olan xətt və qara rəngdən istifadəni sadalayır.
- Təsviri sənətin rəngkarlıq növünü verilmiş (təqdim edilmiş) təsvirlər əsasında ayırır.
- Təsviri sənətin rəngkarlıq növünün boyalar vasitəsilə yaradıldığını izah edir.
- Təsviri sənətin heykəltəraşlıq növünün plastilin (gil) vasitəsilə yaradıldığını sadalayır.
- Təsviri sənətin heykəltəraşlıq növünü materiallarına (daş, mərmər, ağac və s.) görə digərlərindən fərqləndirir.

**1.1.2. Dekorativ-tətbiqi sənətin əsas növlərini (xalçaçılıq, misgərlik, milli geyim) sadalayır.**

- Dekorativ-tətbiqi sənətin xalçaçılıq növünü verilmiş (təqdim edilən) xalça təsvirləri və ya xalça nümunələri əsasında sadalayır.
- Dekorativ-tətbiqi sənətin xalçaçılıq növünü üzərindəki naxışlara əsasən sadalayır.
- Dekorativ-tətbiqi sənətin misgərlik növünü mis materialına görə fərqləndirir.
- Dekorativ-tətbiqi sənətin misgərlik növünü forma, bəzək və istifadəsinə görə sadalayır.
- Dekorativ-tətbiqi sənətin milli geyim növünü əsas xüsusiyyətlərinə – forma və rənginə görə şərh edir.
- Dekorativ-tətbiqi sənətin milli geyim növünü parçalar üzərindəki nəbati naxışlara əsasən ayırır.
- Dekorativ-tətbiqi sənətin milli geyim növünü kişi və qadın geyimlərinə görə müqayisə edir.
- Dekorativ-tətbiqi sənətin milli geyim növünü kostyumları təşkil edən üst geyimlərinə görə fərqləndirir.

**1.1.3. Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrini (Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Fuad Əbdürrəhmanov) və onların ən məşhur əsərlərini sadalayır.**

- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Bəhruz Kəngərli və onun məşhur olan "Oğlan budaq ilə", "Qırmızı yaylıqlı qız" əsərlərini şərh edir.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Bəhruz Kəngərli və onun məşhur olan "Oğlan budaq ilə", "Qırmızı yaylıqlı qız" əsərlərində insanın xarici görünüşü, sifət formalarını izah edir.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Bəhruz Kəngərli və onun məşhur olan "Dağ mənzərəsi" əsərində yaxın və uzaqda təsvir edilənləri sadalayır.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Bəhruz Kəngərlinin "Milli geyimli qız" əsərindəki qadın təsvirində milli geyimlər və onları tamamlayan aksesuarları şərh edir.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Əzim Əzimzadə və onun "Varlı evində Ramazan" adlı məşhur əsərlərində insanın gündəlik həyatını – bayram günündə insanların bir-birinə olan qayğısını, onların sifət ifadələrini şərh edir.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Əzim Əzimzadə və onun ən məşhur əsərlərini sadalayır.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Səttar Bəhlulzadə və onun məşhur "Cıdır düzü" əsəri ilə tanış olur, əsərdə rəngləri ayırır və adlandırır.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Səttar Bəhlulzadə və onun "Torpağın

arzusu" əsərində əsas rəngləri və formaları sadalayır.

- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Səttar Bəhlulzadə və onun məşhur "Bahar nəğməsi" əsərlərində yaxın və uzaqda təsvir edilənləri sadalayır.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Səttar Bəhlulzadə və onun "Şahnabad dağları" əsərində istifadə etdiyi xətt növlərini sadalayır.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Səttar Bəhlulzadə və onun "Azərbaycan nağılı" əsərində təsvir olunan şirniyyatları sadalayır.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Fuad Əbdürrəhmanovun "Oxatan" və "Çoban" əsərlərində insanların fəaliyyəti – hansı işlə məşğul olduqlarını sadalayır.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Fuad Əbdürrəhmanovun əsərlərini yaradıldığı materiallara görə ayırır.

## İnklüziv təlim prinsipləri

İnklüziv təlimin əsasını hər bir şagirdə fərdi yanaşma ideyası təşkil edir. İnklüziya sağlamlıq imkanları məhdud olan şagirdlərdə özünə inam yaratmaqla yanaşı onlara digər yaşıdları ilə eyni məktəbdə təhsil almaq şəraitinin yaradılmasıdır. Onların qabiliyyətlərinin və irəliləyişlərinin inkişaf etdirilməsi çox vacib amildir. Belə uşaqlarla işləyərkən müəllim informasiyanı onlara müxtəlif forma və variantlarda çatdırmağa çalışmalıdır. Yeni təlim prinsipləri imkanları məhdud olan uşaqların ümumi təhsil mühitinə inteqrasiya etməsini və ümumi proqram əsasında təhsil almalarını tələb edir. Hər bir şagird təlimdə uğur qazanması üçün tələb olunan psixoloji yardım, diqqət və qayğı ilə əhatə edilməlidir.

Hər bir məzmun xətti üzrə qiymətləndirmə standartlarının əsasında diferensial təlim nəzərə alınmaqla bilik və bacarıqları möhkəmləndirmək üçün tapşırıqlar, yaradıcı tətbiqetmə xarakterli çalışmalar, praktik işlər üzrə tapşırıqlar, istiqamətləndirici suallar daxildir. İnklüziv təlimin prinsiplərinə uyğun olaraq xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün də çalışmalar nəzərə alınır. Tapşırıqlar sadədən mürəkkəbə doğru yerləşdirilmişdir. Metodik vəsaitdə bu tapşırıqlar sağlamlıq imkanları məhdud olan şagirdlər üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlardır.

## Təlimin təşkilində istifadə olunan forma və üsullar

Təlim üsulları təlim prosesinin səmərəliliyini təmin edən faktorlardan biridir. Nəzərdə tutulan bacarıqların formalaşdırılmasının ən real rolu təlim prosesini fəal təlim üsullarından istifadə etməklə təşkil etməkdir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Vəsaitdə fəal təlimin iş formaları və üsullarından istifadə etməklə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, işgüzar iş mühiti, əməkdaşlıq şəraiti təmin olunur.

## İnformasiya texnologiyalarından istifadə imkanları

Müasir tədris sistemində informasiya texnologiyaları geniş tətbiq olunur. Hazırda, kənd məktəblərində də dərslərin İKT-nin köməyi ilə keçirilməsi adi hala çevrilib.

Təsviri incəsənət dərslərində yeni materialı öyrənmək, yeni məlumatları təqdim etmək, keçmiş dərsləri möhkəmləndirmək, təlim bacarıqlarını inkişaf etdirmək, təkrarlamaq, əldə edilmiş bilik, bacarıq, ümumiləşdirmə, biliyin sistemləşdirilməsi üçün bir multimedia kompleksi istifadə olunur.

Təcrübə göstərir ki, dərslərin multimedia müşayiəti sayəsində müəllim lövhədə işlədiyindən iş vaxtının 30% qədərinə qənaət edir. O, lövhədə kifayət qədər yer olmadığını düşünmür. Vaxta qənaət edərək müəllim mövzunun həcmini artıra, əlavə məlumatlarla zənginləşdirə bilər. Dərsdə yeni materialı izah edərkən, təsvir olunan şəkillərdən, fotoşəkillərdən, portretlərdən, tədqiq olunan sənətkarların rəsm əsərlərindən, videoturlar, videoçarxlar, təqdimat slaydları, dinamik cədvəllər və diaqramlardan, geniş ekranda hazırlanmış və ya interaktiv lövhəyə qoyulan interaktiv modellərdən istifadə edə bilər. Eyni zamanda, dərsin mövzusunu izah etmək texnologiyası əhəmiyyətli dərəcədə dəyişir. Təqdimat dərslər təsviri incəsənətin növ və janrları ilə, dekorativ-tətbiqi sənətlə tanışlıq dərslərində, rəssamların həyat və yaradıcılıq irsini öyrənərkən, muzeyləri araşdırarkən və s. geniş istifadə olunur. Bu dərslərin hazırlanması

zamanı müəllimin kompüter texnologiyasından istifadəsi zamanı çox vaxtın sərf olunması tələb olunur ki, bu da mövzuya idrak marağının artması ilə əsaslandırılır.

Zaman keçdikcə daha yeni informasiya-kommunikasiya texnologiyaları yaranır, inkişaf edir, mükəmməlləşir. Məktəbin gündəlik praktik həyatında interaktiv avadanlıqlar, elektron lövhələr tətbiq olunmaqdadır ki, bu da qısa müddət ərzində təlim-tədris prosesinin ayrılmaz hissəsinə çevrilib.

İnteraktiv lövhə ilə müəllim, materialı rahatlıqla sinifdəki hər bir şagirdə çatdıra bilər. Lövhə kompüterə və proyektora qoşulur, üzərində xüsusi elektron qələm – stilius ilə yazmaq olur. Lövhədə slaydlar, video nümayiş etdirmək, şəkil çəkmək, real vaxtda əks olunan şəklin üzərində qeydlər aparmaq mümkündür. Hər dəyişikliyi daxil etməyə və onları kompüter faylları qismində sonradan redaktə etmək üçün yaddaşda saxlamağa, printerdə çap etməyə, faks və yaxud elektron poçt vasitəsilə göndərməyə imkan verir. Elektron lövhənin digər yaxşı cəhətləri ondadır ki, animasiya imkanı yaradır, real vaxtda çəkilən şəkillərə baxmaq və mühazirələr yazmaq olur. İnteraktiv lövhələr dərs prosesini maraqlı edərək şagirdlərdə motivasiyanın inkişafına səbəb olur.

**Təsviri incəsənət dərslərində musiqinin rolu**

Təsviri sənət dərslərində musiqi əsərlərinin, xüsusən klassik musiqinin istifadəsi çox effektiv hesab edilir. Xalq musiqisi insana müsbət, sakitləşdirici təsir göstərir. Enerjili musiqi insan ruhuna və psixikasına təsir etməklə kədəri xoş anlarla, qəm və kədəri nikbinliklə əvəzləyir. Sakit və həzin musiqi rahatlamağa və sakitləşdirməyə imkan verir.

Təsviri sənət dərslərində şagirdlər daim kifayət qədər fərqli olmayan təsəvvür və təxəyyüllərinə müraciət etmək məcburiyyətində qalırlar. Buna görə, musiqi əsərləri məktəblilərin ətrafdakı məkan haqqında fikirlərini genişləndirməyə kömək edir. Axı, musiqinin köməyi ilə bəstəkarlar gözəlliklə dolu ecazkar bir dünya yaradıblar.

Musiqi sənətinin ən yaxşı əsərlərini məşğələlərin məzmuna uyğun olaraq dərslər keçirərkən istifadə edilə bilər, məsələn, mənzərəni təsvir edərkən. Mövsümlər, təbiətin hadisələri, heyvanların davranışı - hər şey dinləyiciyə təsir göstərən səs ifadəsini tapır.

Rəngkarlıq kimi, musiqi də zəngin və dəyişkən dünyanı görməyə və başa düşməyə kömək edir. O, təbiətin şəkillərini çəkə bilər, böyük bir şəhərin səs-küyünü və ya bayramın şən əhval-ruhiyəsini də bizə çatdıra bilər. Musiqi təkcə həyatımızı bəzəmir, onu daha zərif, daha əyləncəli, daha şən edir. Elə musiqi var ki, həyatımızı daha mənalı, zəngin və daha yaxşı bir hala gətirir.

Təsviri sənət və musiqi eyni dərəcədə bədii təxəyyülü, fantaziyanı inkişaf etdirir, emosional aktivliyi artırır, bir sözlə, insanın daxili aləminin zənginliyinə gətirib çıxarır. Müəllim nəzərə almalıdır ki, musiqinin səslənməsi görmə obrazlarına xüsusi ahəng və qabarıqlıq verir. Musiqi fraqmentinin optimal səslənmə müddəti konkret şəraitdən asılı olaraq 20 – 40 saniyədir.

Təsviri sənətlə ünsiyyət prosesini daha səmərəli və sevindirici etməyə imkan yaradan bu vəsait, eyni zamanda şagirdlərin incəsənətə marağının dərinləşməsində və yaradıcılıq imkanlarının inkişafında əvəzsiz yardımçı olacaq.

**Təsviri incəsənət dərslərində muzey və ekskursiyaların rolu və əhəmiyyəti**

Təhsil fəaliyyətinin ən vacib vəzifələri sırasına mədəni və tarixi dəyərlərin formalaşdırılması, qorunub saxlanılması, inkişaf etdirilməsi daxildir. Müasir cəmiyyətin ən aktual vəzifələrindən biri ümumbəşəri, mədəni, tarixi, bədii və estetik, mənəvi dəyərlərə yönəlmiş, hərtərəfli, sağlam bir şəxsiyyətin formalaşması üçün münbit şərait yaratmaqdır. Bu işdə cəmiyyətin, sivilizasiyanın mədəniyyət dünyasına aparan muzeyin xüsusi rolu var.

Muzey – tarix, maddi və mənəvi mədəniyyət abidələrinin toplanması, tədqiqi, saxlanması ilə məşğul olan bir qurumdur. İndi çox sayda muzey var: diyarşünaslıq, tarixi, ədəbi, musiqi, elmi, teatr və s. Kompüter texnologiyalarının inkişafı ilə bağlı virtual muzeylər də yaranıb. Muzeylər daxili dünyanı intellektual şəkildə zənginləşdirir, üfüqlərini genişləndirir, gözəllikləri tanıdır, dünya və zamanla əlaqəli olmalarına imkan yaradır.

**Muzeyə səyahət**

Rəssamların yaradıcılığı, dekorativ-tətbiqi sənət nümunələri ilə bağlı muzeylərə ekskursiya təşkil etmək tövsiyə edilir. Dərs zamanı nümayiş etdirilən reproduksiyalar rəssam əsərləri ilə canlı ünsiyyəti əvəz edilə bilməz. Bunun nə olduğunu isə yalnız əsl rəssam əsəri qarşısında başa düşmək mümkündür. Muzeyə ekskursiya zamanı müəllim şagirdlərə müşahidə vərəqləri hazırlaya bilər. Burada şagirdin tanış olduğu mövzulara dair suallar tərtib etmək olar.

*Rəssamın adı* ______________________________

*Əsərin adı*______________________________

*Nə təsvir olunub?*______________________________

*Hansı materialdan istifadə edilib?*______________________________

*Hansı hisləri ifadə edir?*______________________________

*Əsəri daha necə adlandırmaq olar?* ______________________________

*Əsərdə ən çox yaddaqalan nədir?*______________________________

*Rəssamın daha hansı işləri var?* ______________________________

Muzeylərlə bağlı şagirdlər "Təsviri incəsənət olmasaydı, insanın həyatında nə baş verərdi?" – ən əsas sual ətrafında cavab tapmağa çalışa bilərlər. Bu sual hər bir insanı, onu həyatı boyu əhatə edən incəsənət aləminin nə qədər zəruri olduğu haqda düşündürür.

Şagirdlərin kiçik yaşlarından klassik obrazlara cəlb edilməsini həm müəllim, həm də valideynlər tərəfindən atılan ən mühüm addım saymaq olar. Bu isə, öz növbəsində, şəxsiyyətin formalaşmasında əsas amillərdən biridir. İncəsənətin dahi klassik obrazları milli dünyagörüşünün tamlığını təşkil edir. Bu məşhur əsərlərin şagirdlərin yaddaşlarına həkk olunmasına çalışmaq isə çox vacibdir. Bu nümunələr hər zaman öz dövrünün insanları üçün necə vardısa, şagirdlər tərəfindən də doğma incəsənətin təsdiqi kimi dərin fəxr hissi ilə yenidən kəşf edilməlidir.

Bu hislər, əlbəttə, şagirdlərdə tədricən formalaşacaq. Rəssam əsərlərinə birgə baxış zamanı müəllimin şagirdlərlə səmimi hisləri isə bu yaşda onlar üçün çox əhəmiyyətlidir. Şagirdlərə eyni zamanda çoxlu əsərə baxış keçirmək məsləhət görülmür. Ən vacibi – hər bir əsərin "ovqatını duymağı" öyrətməkdir. Əsərin müəllifini, adını müsahibə zamanı təkrarlamaq məqsədəuyğun olardı. Əgər muzey və sərgilərdə şagirdlər seyrçi idilərsə, sinifdə isə onlar rəssamdır.

Məşğələlərdən əvvəl, sinifdə yaxud məktəb foyesində şagirdlərin təsvir etdikləri rəsmlərdən sərgi düzəltmək məqsədəuyğundur. Şagirdlər gördükləri işdən zövq alır, öz sevinc və nailiyyətlərini valideyn və dostları ilə bölüşməkdən fərəh hissi duyurlar. Bu həm də bütün sinfin əməyinin nəticəsi sayılır. Müəllim tərəfindən yaradılan mühit şagirdlərə özlərini əsl rəssam kimi hiss etməyi və bundan sevinc hissi duymağı öyrədir.

Ekskursiyalar məktəbin normal işinin çox vacib bir hissəsidir, onlar bütün təlim tədrisi ilə sıx əlaqəlidir. Ekskursiyalar fərqli bir xarici mühitdə – təbiətdə və ya muzeydə, sərgidə və s. keçirilən dərslərdir. Buna görə məktəblərin ekskursiyalara münasibəti dərslərlə eyni olmalıdır. Ekskursiyalar tədris planı ilə əlaqəli məktəb planına daxil edilir, hər sinifdə fənnin illik, tematik planlaşdırmasında müəyyən yer tutur.

Mövzuya görə, bütün ekskursiyalar aşağıdakı qruplara bölünə bilər:

- ətraf mühitin müxtəlifliyi ilə tanış olmaq, ilin müxtəlif fəsillərində (yaz, yaz, payız və qış mənzərələri) təbiət hadisələrini müşahidə etmək;
- ətraf mühitə ekoloji ekskursiyalar, bölgələrin təbii sərvətləri və ətraf mühit problemləri ilə tanışlıq;
- diyarşünaslıq muzeyinə, sərgilərə ekskursiyalar, plener.

Hər sinif üçün ekskursiyaların mövzuları yaş xüsusiyyətləri və şagirdlərin hazırlıq səviyyəsi nəzərə alınmaqla müəyyən edilir. Ekskursiyadan sonra toplanmış materiallar işlənilir. Ekskursiya materiallarını mövzunun təkrarlanması zamanı istifadə edilə bilən müvafiq rəsmlər, fotoşəkillər, qeydlər, diaqramlar, sxemlər, tapşırıq mətnləri ilə bir albom şəklində təşkil etmək məsləhət görülür. Əqli və əxlaqi tərbiyə estetik inkişaf ilə ayrılmazdır və paralel olaraq aparılır. Təbiətdəki rəng və çalarların, səslərin, formaların, xətlərin görünüşü və müxtəlifliyi, onların birləşməsi, dəyişkənliyi, ritmikliyi uyğun estetik hiss və təcrübələrə səbəb olur. Ekskursiyalar tərbiyəvi əhəmiyyətə malikdir. Ekskursiyalar zamanı uşaqlar təbiəti öyrənir, müşahidəni daha dolğun şəkildə həyata keçirməyə kömək edir, müəyyən əmək bacarıqlarını

formalaşdırır. Ekskursiya zamanı şəxsiyyətin mənəvi keyfiyyətləri inkişaf edir və formalaşır - müşahidə, diqqət, rəğbət, ətrafa sevgi və s.

Bu gün əlaqəli və müasir ekskursiya formalarından biri də virtual ekskursiyadır. Virtual ekskursiya – müstəqil müşahidə üçün şərait yaratmaq, lazımi faktları toplamaq və s. üçün real həyatdan obyektlərin virtual nümayişi ilə real ekskursiyadan fərqlənən təşkilati bir təlim formasıdır. Üstünlükləri isə əlçatan olması, yenidən baxma imkanı, görüntü, interaktiv tapşırıqların mövcudluğu və s. Virtual ekskursiya müasir pedaqoji fəaliyyət prinsiplərini tətbiq edir: səriştəyə əsaslanan yanaşma prinsipi – şagirdlərin fəaliyyəti vasitəsilə yüksək nəticələr, idrak fəaliyyət prinsipi - yeni biliklər əldə etmək üçün müstəqil, yaradıcı fəaliyyət.

## Şagird nailiyyətlərinin qiymətləndirilməsi

Təlim prosesinin ən mühüm mərhələlərindən biri qiymətləndirmədir. Hər bir fənn üzrə təlim prosesinin müxtəlif mərhələlərində aparılan qiymətləndirmə şagirdlərdə mənfi emosiya doğurmamalıdır. O cümlədən təsviri incəsənət fənni üzrə əldə edilən bilik və bacarıqların qiymətləndirilməsində bir yaradıcılıq, şəffaflıq, yüksək estetik zövq və daimi yüksəlişə, ümumbəşəri dəyərlərə köklənmiş müsbət emosiya hiss olunmalıdır. Bu prosesdə müəllim şagirdin səhvlərini deyil, daha çox əldə etdiyi nailiyyətləri, keyfiyyət göstəricilərini və qazandığı dəyərləri vurğulamalıdır. Müəllim təlim prosesində müəyyənləşdirilmiş hər hansı bir səhvin ən asan həlli yollarını tapmaqda onlara dəstək verməklə, stimul yaratmalıdır.

Fənn kurikulumlarına görə, qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, onu idarə edən vacib amil kimi meydana çıxır. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik*, *formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır. Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur. Bu qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın fərdi qovluğunda saxlanılır.

Diaqnostik qiymətləndirmədə istifadə olunan metod və vasitələr: müsahibə, söhbət, müşahidə, tapşırıqlar, valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq.

**Formativ qiymətləndirmə** təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir. Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur. Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr:

| Üsullar | Vasitələr |
|---|---|
| **Müşahidə** | Müşahidə vərəqləri |
| **Şifahi sual-cavab** | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| **Tapşırıqvermə** | Çalışmalar |
| **Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq** | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| **Oxu** | Dinləmə üzrə qeydiyyat vərəqi |
| | Oxu üzrə qeydiyyat vərəqi |
| **Yazı** | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi |
| **Layihə** | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| **Rubrik** | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |

| | |
|---|---|
| **Şifahi və yazılı təqdimat** | Meyar cədvəli |
| **Test** | Test tapşırıqları |
| **Özünüqiymətləndirmə** | Özünüqiymətləndirmə vərəqləri |

**Təsviri incəsənət fənni üzrə formativ qiymətləndirmə zamanı istifadə olunan üsul və vasitələr**

| FƏALİYYƏT NÖVLƏRİ | ÜSULLAR | VASİTƏLƏR |
|---|---|---|
| Müşahidəetmə | **Müşahidə** (müəllim şagirdlərin fəaliyyətini müşahidə edərək qiymətləndirir). | **Müşahidə vərəqi** (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl):<br>natura, təbiət, interyer, meyvə, tərəvəz, məişət əşyaları və s.<br>Təsviri incəsənət əsərləri (rəsm və heykəltəraşlıq nümunələri).<br>Dekorativ-tətbiqi sənət nümunələri (xalçaçılıq, parça, misgərlik, milli geyimlər). |
| **Təsvirlərin təhlili** | **Tapşırıqvermə** | **Təsviri incəsənət əsərləri, rəsm işləri** |
| | Nəzəri tapşırıqlar | |
| | Sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili. | Təsviri (reproduksiya, fotoşəkil və s.) və dekorativ-tətbiqi sənət əsərlərinə (xalçaçılıq, misgərlik, milli geyimlər) münasibət. |
| | Praktiki tapşırıqlar | |
| | ***Məzmun*** | ***İşləmə texnikası*** |
| | səth üzərində | rəsm, rəngkarlıq, aplikasiya |
| | həcmli (model) | kağız, karton, plastilin, gil, maket |
| | • Rəsm çəkmək (naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ fəaliyyət və s.);<br>• Dekorativ-tətbiqi fəaliyyət (texnikalar: aplikasiya, panno, kollaj və s.);<br>• Yapma (relyefli və ya həcmli); | • Rəngli karandaşlar, flomasterlər, diyircəkli və rəngli qələm, tuş, pastel təbaşirlər, rəngli kağız, karton, qutu, parça, boya (quaş, akvarel, akril, yağlı boya və s.) və s.;<br>• təbiət materialları (düyü, buğda, şam qozası, ağac, budaq, toxum, yarpaq və s.);<br>• plastilin, gil, gips, duzlu xəmir; |
| **Sorğu** | Şifahi sual-cavab | Təsviri incəsənət əsərləri, ətraf aləm, qayda və anlayışlar üzrə sual-cavablar, təhlil, müzakirə üzrə *qeydiyyat vərəqi* |
| **Təqdimat** | Şifahi, yazılı, rəmzi, təsviri, kompüterdə təqdimatlar | Şifahi cavablar;<br>bədii əsərlərə esselərin yazılması;<br>rəmzi təsvirlər (işarələr);<br>bədii yaradıcılıq və əl işləri, slayd vasitəsilə təqdimat;<br>layihələr |
| **Qiymətləndirmə** | Qrup işlərinin qiymətləndirilməsi, özünüqiymətləndirmə, rubrik üzrə qiymətləndirmə, qrafik, sxem, şkala, test və s. | Qiymətləndirmə vərəqləri, qiymətləndirmə sxemləri, meyarlar cədvəli, şkalalar, sxemlər, test tapşırıqları və s. |

Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə və "Məktəbli kitabçası"nda müvafiq yazılı qeydlər aparılır. Müəllim dərs ilinin yarımillərinin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır. Tədris prosesində formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə oluna bilər.

Müəllim qiymətləndirmə meyarlarına uyğun dörd səviyyəli rubriklər (I-IV səviyyə) hazırlayır. Rubrik vasitəsilə qiymətləndirmə nəticəsində şagirdlərin keçilmiş materialı necə mənimsədiklərini, buraxdıqları

xarakterik səhvləri müəyyən etmək, növbəti dərsdə qarşıya çıxa biləcək problemlər üzərində görüləcək işləri dəqiqləşdirmək olar.

Qiymətləndirmə şkalası nailiyyət səviyyələrinə qiymət (bal) verilməsi üçün mexanizmdir. Rubriklərin hazırlanması üçün əvvəlcə dərsin məqsədləri müəyyən olunmalıdır. Qiymətləndirmənin formalarından biri seçilməlidir (diaqnostik, formativ və ya summativ).

### Qrup fəaliyyətinin qiymətləndirilməsi

Şagirdləri qiymətləndirmək üçün müəllim də şagirdlərlə birlikdə meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Bunun üçün o, tədqiqat işinə başlamazdan əvvəl şagirdlərlə birlikdə qrupun fəaliyyətini qiymətləndirmək üçün meyarlar işləyib hazırlamalıdır. Qiymətləndirmə ballarını ulduzlardan, müxtəlif işarələrdən, simvollardan (smayliklərdən) istifadə etməklə göstərmək olar. Nəticədə isə hər qrupun topladığı ulduz, simvol (smayliklər) toplanıb sayılır.

| Qruplar | Meyarlar | | | | | |
|---|---|---|---|---|---|---|
| | Dinləmə bacarığı | Əməkdaşlıq | Tapşırığın tam və uyğun yerinə yetirilməsi | Əlavələr | Tərtibat | Vaxtında yerinə yetirilməsi |
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |

### Qrup diskussiyaları üçün qrupun özünüqiymətləndirməsi

Şagirdlər qruplarda işləyərkən, dərsin sonunda müəllim tərəfindən onlara öz işlərini qiymətləndirmək üçün vaxt verilir. Müəllim şagirdlərə müəyyən istiqamətlər verə bilər.

| № | Meyarlar | Həmişə | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|
| 1 | Müzakirəyə başlamazdan əvvəl tapşırığı dəqiqləşdiririk | | | |
| 2 | Tapşırıqdan kənara çıxmırıq | | | |
| 3 | Hamı fikrini söyləyir | | | |
| 4 | Bir rəyə gələ bilirik | | | |
| 5 | Qrupda yerinə yetiriləcək işləri aramızda düzgün bölürük | | | |
| 6 | İşi verilən vaxt ərzində yerinə yetiririk | | | |

Şagirdlər qrup daxilində öz işlərini qiymətləndirdikdən sonra bu işin səmərəsini necə artırmaq barədə müəllimlə müzakirə apara bilərlər.

### Şagirdlərin layihə metodu

Bu metod şagird tərəfindən bilik və bacarıqları müstəqil fəaliyyət nəticəsində əldə etməyə imkan verir. Layihə metodunda nəzəri biliklərin praktik tətbiqi şagirdlərin motivə olunmasında çox ciddi əhəmiyyət daşıyır. Layihə metodu həm yeni bilik və bacarıqların qazanılması, həm də onların genişləndirilməsi məqsədilə istifadə oluna bilər. Layihələrin icrasında üsulların seçimi konkret mövzudan asılıdır. Layihələrin aşağıdakı növlərini qeyd etmək olar:

1. Layihələrin icra olunduğu metod və fəaliyyət növünə görə (tədqiqat xarakterli; yaradıcı; rollu oyunlar; informasiya xarakterli; praktiki).
2. Məzmun-fənn əlamətinə görə (mono layihələr; fənlərarası layihələr).
3. Əlaqəlilik baxımından (daxili; beynəlxalq).
4. İştirakçıların sayına görə (fərdi; cütlərlə; qrup halında) .
5. Müddətinə görə (qısamüddətli; orta müddətli; uzun müddətli).
6. Nəticəsinə görə (məruzə, albom, kataloq, almanax, məcmuə; maket, sxem, plan-xəritə; intervyu, videofilm; yeni məhsul istehsalı; sərgi və s.).

*Layihələrin icrasında müəllimin rolu.* Müəllimin təşkilati və yönləndirici yardımı olmadan təlim layihələrini icra etmək mümkün deyil. Praktikada müəllimin rolu bir qədər fərqlənir: o, hazır bilik daşıyıcısından şagirdlərin gündəlik fəaliyyətinin təşkilatçısına çevrilir. Layihə fəaliyyəti şagirdlərə müəllimdən fərdi yanaşmağı tələb edir. Dərsdə psixoloji mühit fərqli olur. Bilik ötürən rolundan müəllim tədqiqat aparmaqda, yaradıcılıq prosesində məsləhətçiyə, şagirdlərin həmkarına çevrilir. Bu isə əsl əməkdaşlıq deməkdir.

Müəllim layihə ilə işləyərkən aşağıdakı fəaliyyətlə məşğul olur:

- şagirdlərə lazımi mənbələri seçməyə yardım edir;
- özü mənbəyə çevrilir;
- bütün prosesi koordinasiya edir;
- şagirdləri rəğbətləndirir;
- şagirdlərlə kəsilməz əks əlaqəni təmin edir, lazım olan tövsiyələr verir.

*Layihənin yerinə yetirilmə mərhələləri:*

1. Layihə fəaliyyətinin məqsəd və vəzifələrinin müəyyən olunması.
2. Mövzunun müəyyən edilməsi.
3. İşçi heyətinin müəyyən edilməsi .
4. Layihə üzrə işin icrası .

*Qrup heyətin müəyyən olunması:*

- Mövzunun daha kiçik alt mövzulara bölünməsi;
- İş bölgüsünün aparılması;
- İnformasiyanın toplanması (mənbələrin müəyyən edilməsi);
- İnformasiyanın emal edilməsi və müzakirəsi;
- İnformasiyaların sistemləşdirilməsi və nəticənin çıxarılması;
- Yaradıcı hesabat və təqdimatın hazırlanması;

*Layihənin təqdimatı planı*

- Hər işin təqdimatına 5–10 dəqiqə, onunla bağlı suallara (2–3 sual) isə 3–5 dəqiqə vaxt ayrıla bilər;
- Təqdimatlar müxtəlif formalarda ola bilər. Şagirdlər işlərini yazılı plakatlar, albomlar, sxemlər, videomateriallar və s. formalarda təqdim edə bilərlər. Onlar həmçinin PowerPoint, multimedia materialları (video, audioyazı, İnternet veb-saytı və s.) ilə müşayiət olunan şifahi çıxışlar formasında da ola bilər.

Təqdimatın təqribi planı belə ola bilər:

1. Layihənin mövzusu və icraçıları.
2. Mövzunun aktuallığı, elmi-sosial əhəmiyyəti, mövzu ilə bağlı ümumi icmal.
3. Layihə üzərində qrup işi haqqında qısa hesabat.
4. Layihənin icrası zamanı istifadə olunan tədqiqat metodları.
5. Nəticələr.
6. İstifadə olunan mənbələr.

*Layihənin qiymətləndirilməsi* meyarları təlim fəaliyyətinin müxtəlif cəhətlərini əks etdirir. Bu prosesdə əsas məsələ şagirdlərin öz fəaliyyətlərini təhlil etmək bacarıqlarının formalaşdırılmasıdır. Özünüqiymətləndirmənin əsas məqsədi öz təcrübəsini dərk etmək, şəxsi çatışmazlıqları aşkar etmək, uğur və uğursuzluğun səbəblərini müəyyən etmək, daxili imkanlar hesabına bu problemləri həll etmək bacarıqlarının formalaşdırılmasıdır. Qiymətləndirməni müxtəlif meyarlar əsasında keçirmək olar.

*Layihələrin ümumi qiymətləndirmə meyarları:*

1. Planlaşdırma, planın açılması və mövzunun inkişaf etdirilməsi.
2. İnformasiyanın toplanması.
3. Üsul və vasitələrin seçimi.
4. İnformasiyanın təhlili.
5. Təqdimatın forması.
6. Layihə üzrə iş prosesinin təhlili və nəticələr.
7. Şəxsi iştirakın səviyyəsi.

Bu meyarlar daha kiçik meyarlara bölünə bilər və hər bir meyar qiymətləndirmə şkalası ilə qiymətləndirilə bilər.

**Layihələrin qiymətləndirilməsi meyarları**

| Qiymətləndirilən meyarlar | Meyarların izahı | Qiymətləndirmə nümunələri |
|---|---|---|
| **Məzmun** | Bu qrup meyarlar təqdimatın məzmununu qiymətləndirir, onun hazırlanması məqsədini, nəzərdən keçirilən mövzuya aid faktlarla və faydalı məlumatlarla dolğunluğunu müəyyən edir. | • İşin məqsədi düzgün ifadə edilmişdir<br>• Qoyulan problem aydındır<br>• Məzmun qoyulan problemi əks etdirir<br>• Nəticələr düzgün çıxarılmışdır |
| | | |
| **Dizayn** | Bu qrup meyarlar təqdimatın tərtibatının keyfiyyətini müəyyən edir. | • Vahid tərtibat üslubu gözlənilmişdir<br>• Mətn aydın oxunur, fon mətnə və şəkillərə uyğun seçilmişdir<br>• İllüstrasiyalar mövzunun məzmununu tam şəkildə ifadə etməyə imkan verir, məzmundan yayındırmır<br>• Slayddakı mətn tamamlanmayan cümlələrlə müxtəlif obyektləri təsvir edən dayaq-konspekt rolunu oynayır (açar sözlər, nişanlanmış və ya nömrələnmiş siyahı)<br>• Daha vacib məlumat rənginə, ölçüsünə, animasiya effektinə görə düzgün fərqləndirilmişdir və s.<br>• İllüstrasiyaların keyfiyyəti yaxşıdır, təsvirləri aydındır<br>• Animasiya effektləri məqsədəuyğun tətbiq edilmişdir<br>• İnformasiyanın əyaniliyi üçün istifadə edilən vasitələr (cədvəllər, xəritə-sxemlər, qrafiklər və s.) |
| | | |
| **Struktur** | Bu qrup meyarlar təqdim olunan informasiyanın quruluşunu, dəqiqliyini, etibarlılığını və miqdarının lazımi səviyyədə olduğunu qiymətləndirir. | • Titul vərəqinin düzgün tərtib edilməsi<br>• Slaydlarda informasiyanın ardıcıllığı<br>• Məlumatın konkret, dəqiq və tam olması<br>• Slaydların sayı məzmuna və vaxta uyğun olmalıdır (7 dəqiqəlik təqdimat üçün 10-a qədər slayddan istifadə edilə bilər)<br>• Məlumatın etibarlılığı |
| | | |
| **Çıxışlara verilən tələblər** | Bu meyarlar qrup iştirakçılarının təqdimat vərdişlərinin qiymətləndirilməsinə xidmət edir. | • Çıxış edən məzmunu mükəmməl bilir, ideyaları aydın şəkildə izah edir<br>• Çıxış edən auditoriyanın sual və iradlarına sərbəst və nəzakətlə cavab verir<br>• Çıxış edən auditoriyaya müraciət edir, onunla əlaqə yaradır<br>• Sualdan asılı olaraq çıxış edən öz təqdimatının istənilən slaydına müraciət edə bilir<br>• Hər bir şagird çıxışında qrup işində öz rolunu qeyd edir (imkan daxilində)<br>• Reqlamentə riayət edir |

**Summativ qiymətləndirmə** hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur. I sinifdə kiçik və böyük summativ qiymətləndirmə aparılmır.

## STEAM haqqında

STEAM təhsil metodu şagirdlərə beş sahənin - Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering), İncəsənət (Art) və Riyaziyyatın (Math) birgə və inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulub. STEAM kurikulumu fənlərarası, praktik və tətbiqi dərslərdən ibarətdir. Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərir.

STEAM dərsləri müəllimin tədris ili boyunca icra edə biləcəyi kurikulumun tərtib edilməsinə imkan verir. Fənn kurikulumlarının icrası zamanı isə müəllim dərsin mövzusuna uyğun olaraq effektli və optimal təlim üsul və vasitələrini seçməkdə, müxtəlif resurslardan istifadə olunmaqla təlim nəticələrini əldə etməkdə sərbəstdir.

Dərslərin STEAM əsaslı qurulması üçün müəllimdən xüsusi bilik və bacarıqlar tələb olunur. Çünki layihələr, real həyat problemlərinin həlli üçün seçilmiş üsullar nə qədər şagirdyönümlü olsa da, müəllim layihələrin planlanmasına və mərhələlərin düzgün icra olunmasına nəzarət etməkdə şagirdlərlə birlikdə fəaliyyət göstərir, onların fəaliyyətini istiqamətləndirir.

### STEAM layihələrinin planlaşdırma təlimatı

| **Tədris vahidləri** | **1. ƏTRAFA NƏZƏR SALAQ** | **2. TƏBİƏT VƏ İNCƏSƏNƏT** | **3. DƏYƏR VERDİYİMİZ İNSANLAR** | **4. İNSAN VƏ MƏKAN** | **5. ƏYLƏNCƏ ZAMANI** | **6. HƏYATIMIZDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR** |
|---|---|---|---|---|---|---|
| **STEAM layihələr** | **Heyvanlar aləminin xəritəsini hazırlayaq** | **Payız meşəsində düşərgə aplikasiyasını hazırlayaq** | **İncəsənət muzeyində sərgi zalı və tamaşaçıları hazırlayaq** | **Şəhərimizi quraq** | **Əyləncə üçün məkan və geyim çəkək** | **Gələcəyin robotlarını hazırlayaq** |
| **Səhifələr** | 24 | 36 | 44 | 56 | 68 | 78 |
| **Layihənin təsviri** |  |  |  |  |  |  |
| **Məşğələ növləri** | Qarışıq tex-nika (aplika-siya, yapma) | Dekorativ-tət-biqi fəaliyyət / aplikasiya | Dekorativ-tət-biqi fəaliyyət / aplikasiya | Dekorativ-tət-biqi fəaliyyət / konstruksiya / aplikasiya | Mövzu üzrə rəsm | Dekorativ-tətbiqi fəaliyyət / konstruksiya |
| **İstifadə edilən materiallar** | Rəngli kağız-lar, rəngli flomasterlər, plastilin | Rəngli kağız-lar, rəngli flomasterlər, plastilin | Rəngli kağızlar, rəngli floma-sterlər, pastel təbaşirlər, quaş | Rəngli kağız və karton, kağız və plastik qu-tular, plastilin, quaş, pastel təbaşirlər | A1 formatlı vərəq, quaş, flomasterlər, pastel təbaşi-rlər, qayçı, yapışqan | Rəngli kağızlar, karton, kağız və plastik qutular, rəngli floma-sterlər, pastel təbaşirlər, quaş |
| **STEAM sahələri** | Elm<br>Texnologiya | Elm<br>Mühəndislik | İncəsənət<br>Texnologiya | Elm<br>Mühəndislik | Texnologiya<br>İncəsənət | Mühəndislik<br>Elm |
| **Yeni sözlər** | Xəritə | Düşərgə<br>Ekskursiya | Muzey<br>Sərgi<br>Seyr etmək<br>Tamaşaçı | Plan<br>Maket | Karaoke | Robot |

Dərslikdə təqdim olunmuş şagird rəsmləri və aplikasiyaları Bakı məktəblərinin 1-ci sinif şagirdlərinə aiddir, bütün dərslər aprobasiyadan keçirilmişdir.

# TƏDRİS MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

# 1. ƏTRAFA NƏZƏR SALAQ

## 1 Təbiətin gözəlliyi

| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standart** | 1.1.3.; 2.1.4.; 3.1.2. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, rəssam əsərlərinin reproduksiyası, mövzu ilə bağlı foto və şagird rəsmləri, formativ qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, sadə və rəngli karandaşlar, rəngli flomasterlər |
| **Elektron resurslar** | http://bahlulzade.az/ |

| **Təlim məqsədləri** |
|---|
| ○ Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Səttar Bəhlulzadənin yaradıcılığını şərh edir. |
| ○ Sadə və rəngli karandaşlarla təbiətin gözəlliklərinin təsvirini yaradır. |
| ○ Səttar Bəhlulzadənin "Cıdır düzü" əsərində rəngləri ayırır və adlandırır. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Mövzu təsviri incəsənət fənninin insan həyatında rolu, rəssam və onun təsvirləri, ətraf aləmin gözəlliyi, məşğələ zamanı istifadə ediləcək material və rənglər haqqındadır. Dərsin əsas məqsədi – təsviri incəsənət fənni, Azərbaycanın görkəmli rəssamı Səttar Bəhlulzadə və onun yaradıcılığı ilə tanışlıqdan ibarətdir. Şagirdlər təqdim edilən müxtəlif təsvirlərin insan həyatında nə kimi əhəmiyyət daşıdığının, kim tərəfindən yaradıldığı haqda düşünür. Növbəti dərslərdə yaradıcı fəaliyyət təsvirlə tanışlıqdan başladığı üçün rəssamın insan həyatında oynadığı rolun mahiyyətini dərk edirlər.

**Dərsə başlayarkən**

Müəllimin dərsə hazırlaşarkən yuxarı sinif şagirdlərinin müxtəlif mövzu və texnikalarda yaratdıqları rəsmlərindən sərgi təşkil etməsi şagirdlər üçün faydalı olardı. Bununla da müəllim şagirdlərdə rəsm haqqında təsəvvürləri formalaşdırır, onların məzmununu başa düşməyi öyrədir, ilkin qavrama vərdişlərini inkişaf etdirmiş olur. Səttar Bəhlulzadənin həyat və yaradıcılığına dair təqdimat hazırlamağı yerinə düşərdi. Təqdimatda rəssamın təbiətin gözəlliyi əks etdirilən əsərlər yer almalıdır. Dərsin keçirilməsində "TƏBİƏT" anlayışı üzrə Klaster, "RƏSSAM" üzrə Açar sözlər üsulundan istifadə üçün kiçik fotokartlar hazırlaya bilər. Müəllim bu üsulları təqdimat, yaxud elektron lövhə vasitəsilə də edə bilər.








"RƏNGARƏNG" sözü ilə bağlı əşyaların rəng əlamətlərinə görə sual verə bilər:
– Gördüklərinizin oxşar cəhəti nədir?

**Düsünək-müzakirə edək**

Bu dərsdə şagirdlərdən təbiətin gözəlliyinin nədə əks olunduğu haqqında düşünmək və müzakirə etmək təklif olunur. Şagirdlər dərslikdə mövzunun mənimsənilməsini, dərsin mahiyyətini anlamağa kömək etmək üçün sorğu yolu ilə blok üzrə təqdim edilmiş suallara siniflə birgə cavab axtarırlar. Müəllim mövzu ilə bağlı əlavə yönləndirici suallar da verə bilər:

- Ətraf aləmi gözəlləşdirən nədir? İnsan ətraf aləmə öz töhfəsini necə verir?
- Təbiətdə hansı rənglər daha çoxdur? və s.



Verilmiş suallar vasitəsilə şagirdlərin ətraf aləmin nə olduğunu, ətrafdakı gözəllik haqqında fikirləri dinlənilir. Azərbaycan təbiətinin nə qədər zəngin və rəngarəng olduğu şagirdlərə çatdırılır. Şagirdlərin diqqəti müəllimin təqdim edəcəyi rəssam əsərlərinin reproduksiyalarına, abidələrin fotoşəkillərinə yönəldilir, onların kim tərəfindən yaradılması haqqında soruşulur.

**Öyrənək**

Müəllim ətraf aləmin niyə "Rəngarəng" olduğunu izah edir. Şagirdlər mövzuda "Təsvir" və "Rəssam" sözləri ilə də tanış olurlar. Bu terminlərlə tanışlıq gələcək məktəb illərində şagirdlərin rəsm çəkməyə, yapmağa, aplikasiya və konstruksiyalar düzəltməyə, rəssamların niyə və nəyi təsvir etdiklərini başa düşməyə kömək edəcəkdir. Onlara "Rəssam"ın ətraf aləmi təsvir etməyi bacaran sehrkar olduğu vurğulana bilər və onun çəkdiklərinin "Təsvir" adlandığı izah olunur.

**Qalereya**

Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi, Xalq rəssamı Səttar Bəhlulzadənin yaradıcılığı və onun "Cıdır düzü" əsəri haqqında məlumat verilmişdir. Şagirdlər əsər haqqında gördüklərini danışır, burada rəssamın istifadə etdiyi rəngləri sadalayırlar.

**Yaradıcılıq studiyası**

Şagirdlərə təbiətin gözəlliklərini təsvir etmək tapşırılır, onlara tam sərbəstlik verilir. Bu, parlaq günəş və ya qeyri-adi çiçəklər ola bilər. Ən əsası isə hər bir şagirdin çəkdiyini müzakirə etmək və onlardan sinif guşəsində kiçik sərgi düzəltmək məqsədəuyğun sayılır. Mövzu əsasında eşitdiklərini, yadda saxladıqlarını sadə karandaş vasitəsilə çəkib, rəngli karandaş və flomasterlərlə rəngləyirlər. Əgər rəsmetmə zamanı şagird təbiətlə bağlı təsvirlərdə çətinlik çəkirsə, müəllim onları lövhədə mərhələli şəkildə göstərərək şagirdə təqdim edir. Bu mövzu diaqnostik xarakter daşıdığına görə, sadəcə, şagirdlərin məktəbəqədər hazırlıq və bacarıq səviyyəsinin yoxlanılmasına yardım edir.

Rəsmlərin nümayişi üçün onlar yazı lövhəsinə bərkidilir. "Qalereya gəzintisi" üsulu vasitəsilə işlərlə ilkin tanışlıqdan sonra şagirdlər rəsmlər haqqında öz fikirlərini bildirirlər.

**Diferensial təlim**

Sinif fərqli inkişaf, hazırlıq, akademik göstəricilər, öyrənməyə münasibət, diqqət, yaddaş və digər zehni proseslərin fərqli xüsusiyyətləri olan şagirdlərdən ibarətdir. Müəllim hər bir uşağa fəal, müstəqil şəkildə özünü ifadəetmə və yaradıcılıq işinin sevincini yaşamaq imkanı verməlidir. Şagirdlərə müəllim tərəfindən köməklik göstərmədən, onun təlimatını gözləmədən müstəqil fəaliyyət göstərmək, bacarıqlarını hər tərəfli istifadə etmək üçün hər cür maraq oyatmaq məsləhət görülür. Müəllim şagirdlərə müxtəlif tapşırıqlar hazırlamalıdır. Sağlamlıq imkanları məhdud olan şagirdlərə çətinlik dərəcəsi aşağı olan tapşırıqlar təqdim edilə bilər. Müəllim bu qrupa xüsusi qayğı və fərdi yanaşma tətbiq etməlidir.

| | |
|---|---|
| Şagirdlər üçün çətinlik dərəcəsi **zəif** olan tapşırıq | Rəsmi təbiətlə bağlı rəngləmə və ya nöqtəli rəsmlə əvəz etmək olar. Bunun üçün tapşırıqlar çap olunur və şagirdə təqdim edilir. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **orta** olan tapşırıq | Ətraf təbiətdə olanları təsvir etmək. Burada ağaclar, günəş, səma, dağlar, evlər, çay və ya dəniz, gül-çiçəklər, yaşıl çəmənlik, həşəratlar, quş və ya heyvanlar ola bilər. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **yüksək** olan tapşırıq | Qədim insanın qayalıqlar üzərində həkk etdiyi təsvirləri çəkmək. |

**Müəllim üçün əlavə məlumat**

**Sənətkarın həyat və yaradıcılığı: Səttar Bəhlulzadə**

Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadənin (1909-1974) ölməz irsi təsviri sənətimizdə yeni və unudulmaz səhifələr yaratmışdır. O, doğma təbiətimizi tərənnüm edən istedadlı mənzərə ustalarımızdan biridir. Öz vətəninin gözəlliklərinə valeh olan bu rəssam Azərbaycan təbiətinə həsr edilmiş yüzlərlə mənzərələr çəkmişdir. S. Bəhlulzadə yaratdığı tablolarda təbiətin müxtəlif hadisələrini və rəngarəng gözəlliyini inandırıcı boyalarla verir.

Azərbaycanın silsiləli uca dağlarını və mavi sularını, göz oxşayan düzlərini, hündür sərv ağaclarını və durna gözlü bulaqlarını, zümrüd rəngli göylərini və barlı-bərəkətli tarlalarını ilhamla təsvir və tərənnüm etmişdir. Respublikamızın bir çox rayonlarında – ən çox isə Qubada və Lənkəranda, Şamaxı və Şuşada, Şahdağın ətəklərində və Göy göl sahillərində bilavasitə naturadan çəkilmiş kiçik etüdlər, iri həcmli epik mənzərə - tablolara gətirib çıxarmışdır. Yeni lövhələr, müəllifin bədii ifadə tərzi, təsvir dili göstərir ki, o, insanın doğma təbiətilə, ana diyarla dərindən bağlılığını vəsf etmək həvəsi ilə yaşamışdır.

Rəssam haqqında daha geniş məlumat almaq, əsərləri ilə tanış olmaq üçün http://bahlulzade.az/ saytına keçid etmək olar.

**Yaradıcı tətbiqetmə**

Müxtəlif kitab, ensiklopediya və ya internet vasitəsilə qədim rəssam və onun təsvirləri haqqında məlumatları araşdırmaq. Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadə və onun yaradıcılığı haqqında məlumatlarla tanış olmaq, yaradıcılığının ən maraqlı və yaddaqalan hadisələri haqqında danışmaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsi aşağıdakı cədvəldə verilmiş meyar, üsul və rubriklərin səviyyələri ilə təqdim edilmişdir.

| Meyarlar | Üsullar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|---|
| **Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi, rəssam S.Bəhlulzadənin yaradıcılığını şərh edir.** | *Tapşırıqvermə: Sənət əsərlərinin izahı, təhlili.* | Rəssam haqqında məlumat verməkdə çətinlik çəkir. | Rəssamın yaradıcılığı haqqında məlumata bir az malikdir. | Rəssamın yaradıcılığı haqqında məlumatları izah edir. | Rəssam və onun yaradıcılığı haqqında məlumatları şərh edir. |
| **Sadə və rəngli karandaşlarla təbiətin gözəlliklərinin təsvirini yaradır.** | *Rəsm çəkmək: təsviretmə* | Sadə və rəngli karandaşlarla təbiətin təsvirində çətinlik çəkir. | Sadə və rəngli karandaşlarla təbiətin təsvirini müəllimin köməyi ilə yaradır. | Sadə və rəngli karandaşlarla təbiətin gözəlliklərinin təsvirində kiçik səliqəsizliklərə yol verir. | Sadə və rəngli karandaşlarla təbiətin gözəlliklərinin sərbəst şəkildə təsvirini yaradır. |
| **Səttar Bəhlulzadənin "Cıdır düzü" əsərində rəngləri ayırır və adlandırır.** | *Şifahi sual-cavab* | Rəssam əsərindəki bütün rəngləri ayırmaqda və adlandırmaqda çətinlik çəkir. | Rəssam əsərində olan rəngləri ayırmaq və adlandırmağı müəllimlə birgə edir. | Rəssam əsərindəki rənglərin çoxunu ayırır, əsas olanları adlandırır. | Sənət əsərindəki rəngləri sərbəst olaraq ayırır və gördüyü rəngləri adlandırır. |

## 2 Ətrafda xəttin müxtəlifliyi

| | |
|---|---|
| **Məşğələ növü** | mövzu üzrə rəsm |
| **Alt-standart** | 2.1.2.; 2.1.4. 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı foto, rəssam əsərlərinin reproduksiyası və şagird rəsmləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, A4 formatlı rəsm vərəqi, sadə və rəngli karandaşlar, rəngli flomasterlər |

| Təlim məqsədləri |
|---|
| Sadə bədii ifadə vasitələrindən olan xəttin, yaxud cizginin təsviretmə qaydalarını mənimsədiyini nümayiş etdirir. |
| Sadə və rəngli karandaşlarla, rəngli flomasterlərlə əşya və canlıları yaradır. |
| Müxtəlif növ xətlər vasitəsilə əşya və canlıları çəkir. |
| Verilmiş sadə təbiət təsvirlərində xəttin müxtəlif növlərinə bənzərliyini şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Bu dərsdə "Xətt" və "Cizgi" anlayışlarını oyun vasitəsilə şagirdlərin diqqətinə çatdırmaq məqsədəuyğundur. Xəttin ifadəli xarakteri və onun müxtəlifliyi haqqında təsəvvürlərin formalaşdırılması şagirdlərdə təhliletmə və müqayisəetmə kimi idraki bacarıqların inkişafına yardım edir.

Mövzuda müəllim şagirdlərin diqqətini təbiətdə olan xətt formalarına yönəltməsi əhəmiyyətli olar. Adətən, şagirdlər xəttin obrazını yaratmaqda çətinlik çəkirlər. Müəllim əsasını xətt təşkil edən təbiət mənzərələrini, yaxud rəssam əsərlərini nümayiş etdirməklə şagirdlərdə xəttin obrazı haqqında təsəvvürlərin formalaşdırılmasına yardım etmiş olur. Müəllim şagirdlərə xəttin rəsmdəki rolunu, onun xarakterini nağıl və oyunlar vasitəsilə çatdıra bilər. Əsasını xətt təşkil edən rəsmlərdə şagirdlər özləri, yaxud ailələrini, xəttin növündən asılı olaraq müxtəlif heyvan, quş və ya əşyaları təsvir edə bilərlər. Bu zaman xətlərin nəyə bənzədiyini, hansı obrazı ifadə etdiyini şagirdlərə başa salmaq faydalı olardı.

**Dərsə başlayarkən**

Təbiətdə olan müxtəlif xətlərdən ibarət formaları nümayiş etdirməklə dərsi başlamaq məqsədəuyğundur. Burada şagirdlərin təbiətdə xəttin nəyi xatırladığını görə bilmələri çox vacib olduğu üçün, şagirdlərlə oyun keçirmək faydalı sayılır. Qrupa bölmək üçün müəllim əvvəlcədən xətt təsvirləri olan kiçik vərəqlər hazırlayır. Məşğələ zamanı şagirdlərdə maraq yarada biləcək xətlər və rəng vasitəsilə müxtəlif varlıqların formalarını nümayiş etdirmək üçün, nümunələr hazırlamaq məsləhətdir.



**Düşünək-müzakirə edək**

Dərslikdə verilmiş, yaxud müəllimin özünün təqdim etdiyi fotoşəkillər üzrə sinfə suallarla müraciət edilir. Şagirdlərin hansı xətləri tanıdıqları, xətlərə harada rast gəlmək olduğu soruşulur. Bu mövzuda şagirdlərlə oyun keçirmək məsləhətdir. İnsanlar kimi, xətlərin də xasiyyətə malik olduğu şagirdlərə nümunələr əsasında izah edilir; məsələn: "Tənbəl" xətt— yatmağı sevir. "Hoppanan" xətt isə, əksinə, kağız üzərində daim sıçramaqla məşğuldur. "Yumru", "düz" xətlər sakitliyi bildirir. "İti" və "kəskin" xətlər isə narahatlıq və qəzəb hissi oyadır.

**Öyrənək**

Dərslikdə təqdim edilən xətlər təbiət varlıqları ilə bağlıdır. Təbiətdə müxtəlif xətlər mövcuddur: ilbizin çanağı **spiralvari** xətti, tozağacının qara **zolaqları** qırıq xətlərə oxşayır. İlan **qıvrılarkən** və ya **burularkən** gövdəsindəki naxışlar daha yaraşıqlı görünür. Ağacların uca gövdəsi — **düz** xətti, ildırım çaxarkən onun hər tərəfə yayılan xətləri **ziqzaq** xətti xatırladır. Müəllim yazı lövhəsində müxtəlif xətlər çəkərək və yaxud təqdimat göstərməklə şagirdlərə birlikdə bu xətləri sadalayırlar və istiqamətlərini deyirlər: şaquli və üfüqi, maili, qapalı və düz, incə və qalın, qısa və uzun.

Müxtəlif xətlər çəkilmiş rəngli kiçik kartoçkalar uşaqlar arasında paylanılır. Bu kartoçkalar bir neçə hissədən ibarətdir. Eyni rəngli hissələr və xətlər düşmüş şagirdlər bir qrupa toplaşırlar. Qrupun adını isə şagirdlər kartoçkanın birləşmiş hissələrində çəkilmiş xətt ilə müəyyən edəcəklər.

| | | |
|---|---|---|
| ***Sakit, mülayim xətt*** *(düz xətt)* | ***Sevincli, şən, xeyirxah xətt*** *(buruq, qıvraq, spiralvari)* | ***Hiyləgər xətt*** *(dalğalı xətt)* |
| ***Qəzəbli, dişli xətt*** *(sınıq ziqzaq)* | ***"Xəstə" xətt*** *(punktir)* | ***Tullanan xətt*** *(dalğalı xətt)* |

Müəllim qruplara xəttin nəyə bənzədiyini lövhədə çəkməyi tapşırır. Xəttin xarakterini çəkmək üçün hər bir qrup bir anlığa özünü xətt kimi hiss etməlidir ki, onun xarakterini təyin etsin və göstərməyə çalışsın. Xətlərin xarakterini hərəkətlə kim təsvir edə bilərsə, növbə ilə hər qrupdan bir şagird lövhə qarşısına çıxsın! Sizlərdən kimsə xətti göstərməyə növbə çatmasa, o zaman digər xətləri göstərər. Beləliklə, oyun başlayır!

— ***"Mülayim" xətt*** (müəllim səsini yavaşıdaraq xəttin obrazını canlandırmağa çalışır). Sakit, mülayim bir xətt... O, kağız üzərində asta-asta, səssizcə hərəkət edir.
  Qrup üzvlərindən biri oyuna başlayaraq bu xətti öz hərəkətləri ilə göstərir (müəllim bu cür təklifləri hər bir xətt növündən sonra edə bilər).

— ***"Şən və sevincli" xətt*** (müəllim artıq gümrah səslə danışır). İndi isə xətt şən və sevinclidir. Onu necə çəkə bilərik? Əlimizi necə hərəkət etdirək ki, çəkdiyimiz xətt şən alınsın? Şən əhvali-ruhiyyəniz bu işdə sizə yardım edəcək.

— ***“Hiyləgər” xətt.*** Növbəti çəkəcəyimiz xətt — “hiyləgər” xətdir. Gəlin bu xətti təsəvvür edək: o, kağız üzərində necə görünür? ***Bu, dalğalı xəttə*** bənzəyir...

— ***“Dişli — ziqzaq” xətt.*** Artıq bütün uşaqların çox sevdiyi —“ziqzaq” xəttin növbəsi gəlib çatdı (şagirdlər asanlıqla bu sınıq xətti təsvir edirlər).

— ***“Xəstə” xətt.*** Bu xətti hiss etmək çox vacibdir, çünki o, böyük əziyyətlə hərəkət edir və çətinliklə nəfəs alır.

— ***“Sıçrayan, tullanan” xətt.*** Nəticəni qəmli əhvali-ruhiyyədə bitirməmək üçün sıçrayan xətti təsvir edək.

**Qalereya** Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadənin “Mənim anam” əsərində rəssam onu hansı xətlər vasitəsilə təsvir etdiyi soruşulur. Şagirdlər əsərdəki xətlər haqqında danışırlar, onları adlandırırlar.

**Yaradıcılıq studiyası** Yaradıcılıq zamanı müəllim digər oyunu şagirdlərə təklif edir. Hər qrup üzvləri onlara aid olan xətti əlini kağızdan ayırmadan çəkir. Çəkdiklərini parta yoldaşının kağızı ilə dəyişir. Beləliklə, qrup üzvləri bir-biri üçün xətt çəkir. Sonra kağızdakı xətdən ya müxtəlif əşyalar düşünüb çəkmək, yaxud da xəttin özünü elə tamamlamalıdırlar ki, əvvəlcə əşyaya, və ya hər hansı bir obyektə çevirsinlər, sonra isə ətrafını çəkərək nəticədə maraqlı rəsm alınsın. Rəsmi müəyyən bir təsvir alınanadək tamamlamağa çalışırlar.

### Diferensial təlim

Sağlamlıq imkanları məhdud olan şagirdlərə çətinlik dərəcəsi aşağı olan tapşırıq hazırlana bilər. Mövzuda keçirilən xətləri nöqtələr vasitəsilə çəkmək təqdim olunur.

| | |
|---|---|
| Şagirdlər üçün çətinlik dərəcəsi **zəif** olan tapşırıq | Xətt növlərini nöqtələri birləşdirməklə çəkmək. Tapşırığı xətt növləri vasitəsilə çəkilmiş heyvan, əşya və s. ilə tamamlamaqla, yaxud rəngləmə ilə əvəz etmək olar. Tapşırıqlar çap olunur və şagirdə təqdim edilir. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **orta** olan tapşırıq | Xətt növlərini çəkmək və onları əşya və ya canlılara kimi tamamlamaq. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **yüksək** olan tapşırıq | İstənilən bir xətt növündən vərəqdə çəkmək və onu maraqlı rəsmə kimi tamamlamaq. |




### Yaradıcı tətbiqetmə

Həyat hadisələrindən kiçik hekayə düşünərək xətt növləri vasitəsilə təsvir etmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsi aşağıdakı cədvəldə verilmiş meyar, üsul və rubriklərin səviyyələri ilə təqdim edilmişdir.

| Meyarlar | Üsullar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|---|
| **Sadə bədii ifadə vasitələrindən olan xəttin, yaxud cizginin təsviretmə qaydalarını mənimsədiyini nümayiş etdirir.** | *Təsviretmə: rəsm çəkmək* | Xəttin təsviretmə qaydalarını mənimsədiyini nümayiş etdirməkdə çətinlik çəkir. | Xəttin təsviretmə qaydalarını mənimsədiyini müəllimin köməyi ilə nümayiş etdirir. | Xəttin təsviretmə qaydalarını mənimsədiyini kiçik səhvlərə yol verməklə nümayiş etdirir. | Xəttin təsviretmə qaydalarını düzgün mənimsədiyini nümayiş etdirir. |
| **Sadə və rəngli karandaşlarla, rəngli flomasterlərlə əşya və canlıları yaradır.** | *Təsviretmə: rəsm çəkmək* | Sadə və rəngli karandaşlarla, rəngli flomasterlərlə əşya və canlılarının yaradılmasında çətinlik çəkir. | Sadə və rəngli karandaşlarla, rəngli flomasterlərlə əşya və canlıları yaradılmasında müəllimin köməyindən istifadə edir. | Sadə və rəngli karandaşlarla, rəngli flomasterlərlə əşya və canlıları yaradılmasında kiçik səhvlərə yol verir. | Sadə və rəngli karandaşlarla, rəngli flomasterlərlə əşya və canlıları yaradır. |
| **Müxtəlif növ xətlər vasitəsilə əşya və canlıları çəkir.** | *Təsviretmə: rəsm çəkmək* | Müxtəlif növ xətlər vasitəsilə əşya və canlıları çəkməkdə çətinlik çəkir. | Müxtəlif növ xətlər vasitəsilə əşya və canlıları çətinliklə səliqəsiz çəkir. | Müxtəlif növ xətlər vasitəsilə əşya və canlıların çəkilməsində nümunələrdən istifadə edir. | Müxtəlif növ xətlər vasitəsilə əşya və canlıları çəkir. |
| **Verilmiş sadə təbiət təsvirlərində xəttin müxtəlif növlərinə bənzərliyini şərh edir.** | *Tapşırıqvermə: sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili* | Verilmiş təbiət təsvirlərində hansı xətlərin mövcud olduğunu sadalamaqda çətinlik çəkir. | Verilmiş təbiət təsvirlərində xəttin növlərini bənzərliyini müəllimin köməyi ilə sadalayır. | Verilmiş təbiət təsvirlərində xəttin müxtəlif növlərinə bənzərliyini izah edir. | Verilmiş təbiət təsvirlərində xəttin müxtəlif növlərinə bənzərliyini şərh edir. |

# 3 Təbiətin nemətləri

| **Məşğələ növü** | Yapma |
|---|---|
| **Alt-standart** | 2.2.1; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı payız meyvə, tərəvəz və giləmeyvələrin fotoları və əyani nümayişi, rəssam əsərlərinin reproduksiyası, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, rəngli plastilin, plastik lövhə və bıçaqlar, quru və nəm salfetlər. Natura üçün mövcud payız meyvə, tərəvəz və giləmeyvələri. |

| **Təlim məqsədləri** |
|---|
| ○ Plastilindən sadə həndəsi fiqurlar yapır, fiqurlardan meyvə, tərəvəz və giləmeyvələr düzəldir, hazır məhsullardan kiçik kompozisiyalar qurur. |
| ○ Səttar Bəhlulzadənin “Abşeron bağlarında” əsərində meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh edir. |
| ○ Verilmiş sadə formalı meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Bu dərs müşahidəetmə, təhliletmə və görmə bacarıqlarının inkişafı üçün çox əhəmiyyətlidir. Şagirdin hiss edən və düşünməyi bacaran insan olması üçün ətrafdakı gözəlliyi görmək bacarığını tərbiyə etmək faydalı olardı. Rəssam qeyri-adı və maraqlı olanları görməyi bacarır. Adi insanların görə bilmədiklərini rəssamın görə bilir. Müəllim onlara rəssamın görmə və müşahidəetmə keyfiyyətləri haqqında danışa bilər. Bu, hər bir insan üçün vacib olan çox çətin bir bacarıqdır. Rəsmetmə və yapma bacarıqları nəyi necə gördüyümüzdən asılıdır.

Dərsin əsas məqsədi – şagirdə ətrafdakı varlıqları xırda incəliklərlə deyil, onun formasını bütöv olaraq görməyi öyrətməkdir. Bu isə onlar üçün rəsm və yapma zamanı çox vacib olan amillərdəndir. Ətrafdakı əşyaları müşahidə etmək, onları  forma, rəng və ölçüyə görə müqayisə etmək isə şagirdlərdə əşyaları əlamətlərinə görə fərqləndirmək bacarıqlarının formalaşdırılmasını təmin edir.

Yapma zamanı şagird yalnız yaratdığını görməklə kifayətlənmir, həm də yapdığını əlinə götürür, toxunur və lazım gələndə dəyişir. Yapma zamanı əsas alət əl olduğu üçün bacarıq səviyyəsi qayçı, yaxud karandaşlarla deyil, əllə işləmək məharətindən asılı olur. Yapma texnikasını sərbəst mənimsəmək baxımından ən təbii və asan texnikalardan biri kimi qiymətləndirmək mümkündür. Digər təsviri sənət növləri kimi yapma da uşaqların estetik cəhətdən inkişafına səbəb olur. O, görməyi, hiss etməyi, qiymətləndirməyi və yaratmağı öyrədir.

**Dərsə başlayarkən**

Şagirdlərin meyvə, tərəvəz və giləmeyvələrin formasını, ölçüsünü və rəngini daha rahat və yaddaqalan formada təqdimatı üçün müəllim "Meyvələrin söhbəti" oyununa hazırlaşa bilər. Bunun üçün rəngli kartonlar vasitəsilə əvvəlcədən məhsullar hazırlayır və onları canlandırır – göz, ağız, əl-ayaq yapışdırır. Daha sonra onları qrupa ayırmaq üçün də istifadə edə bilər.

Müəllim məşğələ zamanı əyanilik üçün payız meyvə, tərəvəz və giləmeyvələrini canlı olaraq nümayiş etdirmək üçün dərsə gətirə bilər. Bu uşaqlara da naturadan yapma üçün tövsiyə edilir. Onlar nemətləri həm müqayisə, həm də müşahidə etmiş olurlar. Şagirdlərin dərsin sonunda öz yapma işlərini nümayiş etdirmək üçün onlara sinfin bir guşəsində yer ayırmaq məsləhət görülür.

**Düsünək-müzakirə edək**

Mövzuya giriş üçün bu blokda Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadənin "Abşeron bağlarında" əsəri verilmişdir. Müəllim siniflə birgə əsər üzrə verilmiş suallara cavab axtarırlar. Rəssamın təsvir etdiyi nemətlərin forması, ölçüsü və rəngləri haqqında danışırlar.

**Övrənək**

Müəllim şagirdlərdən sadə əşyaların formasını necə tanıdıqları barədə müxtəlif əşyaları nümayiş etdirərək soruşa bilər: əşyaların hansı formanı xatırlatdığını, ətrafımızda bu formalarda daha nələr ola biləcəyini və s. Sonra şagirdlər dairəvi, üçbucaqlı və kvadrat formada olan əşyaları sayırlar. Uşaqlar ətrafda olan əşyaları müqayisə edərkən onların "böyük-kiçik", "uzun-qısa", "hündür-alçaq", "çox-az" sözlərindən istifadə etmələri bu anlayışları mənimsəmələri üçün faydalıdır.

Müəllim payız meyvə, tərəvəz və giləmeyvələrinin şəkillərini və ya onları əyani nümayiş etdirir.  Yönəldici suallarla onların rəngi, forması, ölçüsü haqqında soruşur və birlikdə Venn diaqramı vasitəsilə onları müqayisə edirlər. Müəllim dərsdə müxtəlif formaların bir-biri ilə müqayisəsini apararaq onlar arasındakı oxşar və fərqli cəhətləri yardımçı suallarla şagirdlərə izah etməklə onlardan istədiyi cavabı ala bilər.

Ətraf aləmdəki bütün cisimlər formaya malikdir. Əşyaların forması həndəsi fiqurlarda ümumi əksini tapmışdır. Həndəsi fiqurlar uşaqlar tərəfindən əşyaların formasını müəyyənləşdirən nümunə kimi qəbul olunur (top, alma, nəlbəki, təkər — dairəvi, yaylıq isə kvadrat formasındadır).

İnteraktiv lövhə üçün maraqlı tapşırıqlar hazırlamaq olar. Müxtəlif formalı, ölçülü və rəngli əşyalar təqdim etmək, şagirdlər isə üç əlamətə görə onları ayıra bilərlər. İnteraktiv lövhədə iş zamanı dərsin motivasiya və tədqiqat mərhələsində müxtəlif rəngli meyvə, tərəvəz və giləmeyvələr haqqında animasiya, maraqlı təqdimat, proporsiya anlayışını başa salmaq üçün müqayisəli əşyalar göstərməklə şagirdlərin mövzu haqqında anlayışları möhkəmləndirilir. Yapma zamanı formanın qavranılması üçün lövhədə fiqurlar yerləşdirdikdən sonra şagirdlər növbə ilə stilus qələmi vasitəsilə onları meyvə və tərəvəzlərə bənzədə bilər.

Şagirdlərlə birgə Venn diaqramı vasitəsilə nemətlərin oxşar və fərqli cəhətlərini müəyyən etmək əhəmiyyətlidir. Şagirdlər onların fərqli xüsusiyyətlərini söyləyirlər. Müəllim fərqli xüsusiyyətləri olanları müvafiq dairədə, dairələrin kəsişməsində isə oxşarları qeyd edir.

Bu məşğələni müəllim "Məhsulların bir-biri ilə söhbəti" adlı oyuna da çevirə bilər.






Müəllim şagirdləri müxtəlif rəngli fiqurlar vasitəsilə, yaxud meyvə-tərəvəz rəngləri ilə qruplara ayırır. Şagirdlər qrupların rənginə uyğun olan meyvə, tərəvəz və giləmeyvələr yapmağa başlayırlar.

| I qrup | II qrup | III qrup | IV qrup | V qrup |
|---|---|---|---|---|
| "Sarı" | "Qırmızı" | "Bənövşəyi" | "Narıncı" | "Yaşıl" |

**Müəllim üçün əlavə məlumat**

Müəllim yapma zamanı istifadə edəcəkləri materiallar və iş yerinin səliqəli saxlanılması üçün şagirdləri qaydalarla tanış edir.





1. Plastilinlə iş zamanı plastik lövhə və ya müşəmbə üzərində işləyin.
2. Plastilinin bir rəngindən digərinə keçərkən, heykəltəraş bıçaqları (stek) və əllərinizi əsgi parçası ilə silin.
3. Plastik bıçaqlarla ehtiyatla davranın.
4. İşi tamamladıqdan sonra iş yerinizi səliqəyə salın.

**Yaradıcılıq studiyası**

**Yapma** — bədii yaradıcılıq növlərindən biridir. Şagird yalnız yaratdığını görməklə kifayətlənmir, həm də yapdığını əlinə götürür, toxunur və lazım gələndə dəyişir. Yapma zamanı əsas alət əl olduğu üçün bacarıq səviyyəsi qayçı, yaxud karandaşlarla deyil, əllə işləmək məharətindən asılı olur.

"Plastilindən meyvə, tərəvəz və giləmeyvələri yapmaq üçün nələri bilmək lazımdır?" sualı ətrafında müzakirə aparılır. Şagirdlər dərslikdə mərhələli şəkildə təqdim edilmiş yapma ardıcıllığını nəzərə alaraq qruplarda işləyirlər.

Şagirdlər öz yapma işlərini nümayiş etdirir, sinif yoldaşlarının işləri ilə tanış olur və öz rəylərini bildirirlər. Yapma işlərini sərgiləmək çox vacibdir. Yaxşı əl işlərinin hər zaman şagirdlərin gözləri önündə olması onlarda bir-birinin işinə hörmət tərbiyə edir və incəsənətə olan münasibəti daha da inkişaf etdirir. Dərsin sonunda yapılmış meyvələri şagirdlər natura ilə müqayisə edirlər.

**Diferensial təlim**

Sağlamlıq imkanları məhdud olan şagirdlərə çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlana bilər. Şagird bu tapşırıqda, yəqin ki, hamı kimi yapmaq istəyəcək. Yapma zamanı bacardığı kimi ovucunun içində müxtəlif dairələr, ovallar düzəldə bilər. Bu da onun meyvə və ya tərəvəzi ola bilər, əsas odur ki,

yapdığı formalar məhsulların öz rəngini əks etdirsin. Yapmanı məhsulların rənglənməsi ilə də əvəz etmək olar.

| | |
|---|---|
| Şagirdlər üçün çətinlik dərəcəsi **zəif** olan tapşırıq | Plastilindən müxtəlif fiqurlar hazırlamaq. Vərəqdə nöqtələrlə fiqurların çəkilməsini və rənglənməsini vermək. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **orta** olan tapşırıq | Payız fəslinə aid giləmeyvə, meyvə və tərəvəz yapmaq. Onları formasına, ölçüsünə və rənginə görə ayırmaq, kompozisiya qurmaq. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **yüksək** olan tapşırıq | Ətrafımızda fiqurların (dairə, üçbucaq, kvadrat, oval və s.) formasında nələr olduğunu düşünüb yapmaq. |

Sinfin çətinlik dərəcəsi yüksək olan şagirdləri üçün tanqram haqqında məlumat vermək olar. Onlar üçün tanqramla bağlı tapşırıq təqdim etmək tövsiyə olunur. Fiqurlardan ibarət oyun **tanqram** adlanır. Kvadratı yeddi fiqura bölüb müxtəlif əşyalar düzəltmək (qurmaq, yaratmaq) olar (oyuncaqlar, nəqliyyat vasitələri, hərf və ya rəqəmlər)

Ən qədim məntiqi oyunlardan biri olan tanqramı faydalı nümunə hesab etmək olar. Tanqram kvadratın yeddi yerə – iki böyük, bir orta və iki kiçik üçbucaqdan, kvadrat və paraleloqrama bölünmüş hissələrindən ibarətdir. Oyunun mahiyyəti – mozaika üsulu ilə verilmiş elementlərdən müxtəlif fiqurlar yığmaqdır. Oyun obrazlı düşünməyə, təxəyyülün, həmçinin bütöv bir əşyanı vizual olaraq hissələrə bölmək bacarığının inkişafına yardım edir. Bu oyun zamanı ilkin çalışmalardan biri də iki-üç elementlə fiqur yaratmaq tapşırığıdır; məsələn: üçbucaqlardan kvadrat və trapesiya yaratmaq. Şagird tapmacanı həll edərkən istiqamətlərini müəyyənləşdirməlidir: bütün üçbucaqları saymalı, onları ölçüsünə görə müqayisə etməlidir. Sonra detalları bir-birinə yapışdıraraq nə alındığına baxmalıdır: göbələk, evcik, şam ağacı, lent, konfet... Tanqramın 7 elementini  istifadə edərək ən sadə — dovşan fiqurundan başlamaqla düzəltmək olar.



**Yaradıcı tətbiqetmə**

Plastilindən yastı fiqurlar  (relyef heykəltəraşlıq) hazırlamaq, ağ kağız üzərində onları toplamaqla canlıların kompozisiyasını yığmaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsi aşağıdakı cədvəldə verilmiş meyar, üsul və rubriklərin səviyyələri ilə təqdim edilmişdir.

| Meyarlar | Üsullar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|---|
| **Plastilindən sadə həndəsi fiqurlar yapır, fiqurlardan meyvə, tərəvəz və giləmeyvələr düzəldir, hazır məhsullardan kiçik kompozisiyalar qurur.** | *Yapma* | Plastilindən sadə həndəsi fiqurlar yapır. | Plastilindən sadə həndəsi fiqurlar yapır, fiqurlardan meyvə, tərəvəz və giləmeyvələr düzəldir, lakin onların xırda detalları nəzərə almır. | Plastilindən sadə həndəsi fiqurlar yapır, fiqurlardan meyvə, tərəvəz və giləmeyvələr düzəldir. | Plastilindən sadə həndəsi fiqurlar yapır, fiqurlardan meyvə, tərəvəz və giləmeyvələr düzəldir, hazır məhsullardan kiçik kompozisiyalar qurur. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **S.Bəhlulzadənin “Abşeron bağlarında” əsərində meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh edir.** | ***Tapşırıqvermə: sənət əsərinin izahı, müqayisəsi, şərhi, təhlili*** | **Rəssam əsərində meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh etməkdə çətinlik çəkir.** | **Rəssam əsərində meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müəllimin köməyi ilə müqayisə və şərh edir.** | **Rəssam əsərində meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh edərkən kiçik səhvlərə yol verir.** | **Rəssam əsərində meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh edir.** |
| **Verilmiş sadə formalı meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh edir.** | *Şifahi sual-cavab, müşahidə* | Verilmiş sadə formalı meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh etməkdə çətinlik çəkir. | Verilmiş sadə formalı meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müəllimin köməyi ilə müqayisə və şərh edir. | Verilmiş sadə formalı meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh edərkən kiçik səhvlərə yol verir. | Verilmiş sadə formalı meyvə, tərəvəz və giləmeyvələrin forma, ölçü və rənglərini müqayisə və şərh edir. |

## 4 Kiçik dostlarım

| | |
|---|---|
| **Məşğələ növü** | Dekorativ-tətbiqi fəaliyyət / aplikasiya |
| **Alt-standart** | 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı aplikasiyalar, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, rəngli kağız və karton, qayçı, yapışqan, nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| ○ Müxtəlif növ xətlərdən rəngli kağızlar üzərində iri və kiçik ölçülü fiqurlar çəkir. |
| ○ Heyvan fiqurunu hazırlamaq üçün rəngli karton üzərində kəsilmiş formaları yapışdırır. |
| ○ Hazır heyvan fiqurlarını “zooparkda toplamaqla” kiçik kompozisiyalar qurur. |
| ○ Verilmiş sadə formalı heyvan fiqurlarını ölçülərinə görə müqayisə və şərh edir. |
| ○ Verilmiş sadə formalı heyvan fiqurlarının aplikasiyasında mövcud fiqurları sadalayır. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Əvvəlki dərsdə olduğu kimi, forma, ölçü və rənglər haqqında anlayışlar artıq aplikasiya texnikasında bu mövzuda təqdim edilmişdir. Dərsin əsas məqsədi şagirdlərin müxtəlif heyvan fiqurlarında formalar vasitəsilə obrazı müəyyən etməkdən ibarətdir. Bu isə şagirdlərdə rəngli kağız vasitəsilə heyvan fiqurlarında formaların ölçüsünün müəyyən edilməsi ilə öz əksini tapmışdır. Aplikasiya uşaqların sevdiyi çox maraqlı və inkişaf edən bir təsviri fəaliyyət növlərindən biridir. Şagirdlərdə kiçik motorika bacarıqlarını inkişaf etdirir, bu da onların zehni inkişafına təsir göstərir. Məşğələ zamanı şagirdlərdə bədii təxəyyül, estetik zövq və konstruktiv düşüncəsi inkişaf etdirir. Aplikasiya məşğələləri abstrakt düşüncəni, hətta nitqi də inkişaf etdirir.

**Dərsə başlayarkən**

Müəllim şagirdlərə mövzu ilə bağlı aplikasiya nümunələri təqdim etmək üçün, əvvəlcədən rəngli kağız və ya kartondan müxtəlif ölçüdə həndəsi formalar kəsir, onlardan heyvan fiqurları hazırlayır. Bu tapşırığı müəllim interaktiv lövhədə də hazırlaya bilər. Keçən dərsi şagirdlərin yadına salır, forma, ölçü, rəng, müşahidə və müqayisə etmək bacarıqlarını bir daha təkrarlamağı tövsiyə edilir. Bunun üçün müxtəlif oyun formaları təqdim etmək məsləhətdir. Heyvanlara aid, onların yaşayış tərzini əks etdirən videoçarx da nümayiş etdirmək olar. Dərs zamanı aplikasiyanın xüsusiyyətlərini müəyyən etmək üçün müxtəlif boyalar vasitəsilə işlənilmiş işlər nümayiş etdirildiyinə görə, müəllim rəssam və ya şagird işlərini özü üçün müəyyən edə bilər.

**Düşünək-müzakirə edək** Dərslikdə verilmiş aplikasiya nümunələri əsasında suallara siniflə birgə cavab axtarılır. Heyvanlara necə münasibət bəsləmək lazım olduğunu, onları necə mühafizə edilməsini, harada yaşadıqlarını müzakirə edirlər. Verilmiş nümunələrdə heyvanların fiqurlarında hansı formanın olduğunu tapırlar. Müəllim bu bloku özünün hazırladığı nümunələr əsasında da təqdim edə bilər.

**Öyrənək** Akvarel, quaş, yağlı boya ilə işlənilmiş və aplikasiya vasitəsilə hazırlanmış işlər şagirdlərə təqdim edilir, onlar arasında fərqli texnikada olan iş müəyyən edilir. Aplikasiya nədir, məşğələ zamanı necə istifadə edildiyi şagirdlərə çatdırılır. Müəllim hazırladığı aplikasiya nümunələrini şagirdlərə nümayiş etdirir, onlarda forma, ölçü və rəng haqqında müzakirə aparır. Aplikasiya zamanı nəyə diqqət yetirmək lazım olduğu, fəaliyyət prosesi necə keçiriləcəyi ətrafında sorğu-sual aparılır.

**Yaradıcılıq studiyası** Müəllim 1 və 2-ci qrupa ev heyvanlarını, 3 və 4-cü qruplara vəhşi heyvanların aplikasiyasını hazırlamağı tapşırıq olaraq verə bilər. Şagirdlər dərslikdə rəngli kağızlardan mərhələli şəkildə təqdim edilmiş heyvan fiqurlarının aplikasiyasını ardıcıllığı nəzərə alaraq qruplarda hazırlayırlar. Qruplar hansı formalardan istifadə edəcəklərinə birlikdə qərar verirlər. Şagirdlər öz aplikasiyalarını nümayiş etdirir, sinif yoldaşlarının işləri ilə tanış olur və öz rəylərini bildirirlər. Dərsin sonunda şagirdlər hazır heyvan fiqurlarını bir yerə toplayaraq, ətrafında zoopark elementləri kəsib yapışdırırlar və beləliklə kiçik kompozisiyalar qurur. Müəllimin şagird aplikasiyalarını sərgiləməsi məsləhət görülür.

**Diferensial təlim**

Sağlamlıq imkanları məhdud olan şagirdlərə çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlana bilər.

| | |
|---|---|
| Şagirdlər üçün çətinlik dərəcəsi **zəif** olan tapşırıq | Rəngli kağız üzərində müxtəlif ölçüdə dairə, üçbucaq, kvadrat kəsmək, sonra onları bir-birinə yaxın yerləşdirməklə heyvan fiqurları düzəltmək. Istənilən bir həndəsi forma ilə də sadə heyvan fiquru ola bilər. Şagird qayçı ilə işləyə bilməsə bu tapşırığı barmaqlar vasitəsilə cırmaqla da təqdim edə bilər. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **orta** olan tapşırıq | Rəngli kağızlardan formalar kəsmək, səthi karton üzərinə bir-neçə heyvanları yapışdırmaq. Sonra onlardan kompozisiya yığmaq. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **yüksək** olan tapşırıq | Rəngli kağızlardan formalar kəsmək, heyvanlar yapışdırmaq və onların yaşayış tərzini göstərmək üçün ətraf fonu da rəngli kağızlardan kəsib yapışdırmaq. |

**Yaradıcı tətbiqetmə**

Müxtəlif yaşayış tərzinə malik olan heyvanlar haqqında məlumat toplamaq, yaşadıqları mühiti göstərməklə onlar haqqında maraqlı rəsm çəkmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsi aşağıdakı cədvəldə verilmiş meyar, üsul və rubriklərin səviyyələri ilə təqdim edilmişdir.

| Meyarlar | Üsullar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|---|
| **Müxtəlif növ xətlərdən rəngli kağızlar üzərində iri və kiçik ölçülü fiqurlar çəkir.** | *Səth üzərində aplikasiya texnikası* | Müxtəlif növ xətlərdən rəngli kağızlar üzərində iri və kiçik ölçülü fiqurlar kəsməkdə çətinlik çəkir. | Müxtəlif növ xətlərdən rəngli kağızlar üzərində iri və kiçik ölçülü fiqurları müəllimin köməyi ilə kəsir. | Müxtəlif növ xətlərdən rəngli kağızlar üzərində iri və kiçik ölçülü fiqurları səliqəsiz kəsir. | Müxtəlif növ xətlərdən rəngli kağızlar üzərində iri və kiçik ölçülü fiqurları sərbəst kəsir. |
| **Heyvan fiqurunu hazırlamaq üçün rəngli karton üzərində kəsilmiş formaları yapışdırır.** | *Səth üzərində aplikasiya texnikası* | Heyvan fiqurunu hazırlamaq üçün rəngli karton üzərində kəsilmiş formaları yapışdırmaqla çətinlik çəkir. | Heyvan fiqurunu hazırlamaq üçün rəngli karton üzərində kəsilmiş formaları qeyri-müəyyən şəkildə yapışdırır. | Heyvan fiqurunu hazırlamaq üçün rəngli karton üzərində kəsilmiş formaları müəllimin köməyi ilə yapışdırır. | Heyvan fiqurunu hazırlamaq üçün rəngli karton üzərində kəsilmiş formaları sərbəst yapışdırır. |
| **Hazır heyvan fiqurlarını "zooparkda toplamaqla" kiçik kompozisiyalar qurur.** | *Səth üzərində aplikasiya texnikası* | Hazır heyvan fiqurlarını "zooparkda toplamaqla" kompozisiyanın qurulmasında səhvlərə yol verir. | Hazır heyvan fiqurlarını "zooparkda toplamaqla" kompozisiyanı müəllimin köməyi ilə qurur. | Hazır heyvan fiqurlarını "zooparkda toplamaqla" kiçik kompozisiya qurmağa çalışır. | Hazır heyvan fiqurlarını "zooparkda toplamaqla" kiçik kompozisiyalar qurur. |
| **Verilmiş sadə formalı heyvan fiqurlarını ölçülərinə görə müqayisə və şərh edir.** | *Tapşırıqvermə: təsvirlərin izahı, müqayisəsi, şərhi, təhlili.* | Verilmiş sadə formalı heyvan fiqurlarını ölçülərinə görə müqayisə və şərh etməkdə çətinlik çəkir. | Verilmiş sadə formalı heyvan fiqurlarını suallar əsasında müqayisə və izah edir. | Verilmiş sadə formalı heyvan fiqurlarını ölçülərinə görə fərqləndirir və izah edir. | Verilmiş sadə formalı heyvan fiqurlarını ölçülərinə görə sərbəst müqayisə və şərh edir. |
| **Verilmiş sadə formalı heyvan fiqurlarının aplikasiyasında mövcud fiqurları sadalayır.** | *Şifahi sual-cavab* | Verilmiş sadə formalı heyvan fiqurlarının aplikasiyasında mövcud fiqurları sadalamaqda çətinlik çəkir. | Verilmiş sadə formalı heyvan fiqurlarının aplikasiyasında mövcud fiqurların bir-neçəsini adlandırır. | Verilmiş sadə formalı heyvan fiqurlarının aplikasiyasında mövcud fiqurları müəllimin köməyi ilə sadalayır. | Verilmiş sadə formalı heyvan fiqurlarının aplikasiyasında mövcud fiqurları sadalayır. |

## 5 Rəngarəng quşlar

| Məşğələ növü | Dekorativ-tətbiqi fəaliyyət / aplikasiya / oriqami |
|---|---|
| **Alt-standart** | 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, oriqami nümunələri və ya fotoları, rəssam əsərləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, A4 ölçülü rəngli və ağ kağız, qayçı, rəngli flomasterlər |
| **Elektron resurslar** | https://oriqami.me/ |

| Təlim məqsədləri |
|---|
| o Kağız materialdan sadə quş fiquru düzəldir, hazır quş fiqurlarından kompozisiyalar qurur. |
| o Verilmiş quş fotoşəkillərində forma, ölçü və rəngləri şərh edir. |
| o Verilmiş sadə formalı oriqami nümunələrini şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Kağızı qatlama şagirdlərdə bədii və məntiqi təfəkkürü, səliqə və hövsələni, yaddaş və düşüncəni inkişaf etdirir. Oriqami həm də əsas həndəsi anlayışlarla tanışlıqdır: kvadrat, bucaq, tərəf, üçbucaq və s. Kiçikyaşlı şagirdlər üçün bu məşğələ yaradıcı bacarıqdan əlavə, həm də bir növ oyun sayılır. Oriqami əyləncəli olduğu üçün, şagirdlərin ömür boyu çevriləcək bir hobbi ola bilər. O, yaşdan asılı olmayaraq – uşaqlar və böyüklər üçün bir fəaliyyət və bacarıq səviyyəsinin yaxşılaşdırılmasına imkan verir. Bundan əlavə, oriqami şagirdin özünü ifadə etməyə, təxəyyülünü həyata keçirməyə, özünəməxsus dünyanı yaratmağa imkan verir. Oriqami uşaq məntiqini çox yaxşı inkişaf etdirir, diqqəti cəmləyir, təlimatlara əməl edərək sxemlərə uyğun işləməyi öyrədir, incə motor bacarıqlarını inkişaf etdirir, əl və barmaqları gücləndirir və hərəkətlərin koordinasiyasını yaxşılaşdırır. Oriqami həm də gözəl hədiyyədir. Şagird öz əlləri ilə hazırladığı oriqami nümunələrinin dost və qohumlar üçün nə qədər dəyərli olduğunu bilərsə, bu onun özünəinamını xeyli yüksəldəcək və fəaliyyətdən aldığı daxili sevinc onu daha maraqlı nümunələr yaratmağa sövq edəcək.

Şagirdlər oriqami hazırlayarkən kağız materialın xüsusiyyətləri ilə tanış olur, düz kağızdan necə üçölçülü bir həcmli fiqurun yaranmasını müşahidə edir. Müəllim oriqami texnikasında olan işlərdən – kağız kompozisiyalardan ümumi sərgi və ya panno təşkil etməklə şagirdlərdə yaradıcı aktivliyi yüksəltməyə nail olacaq.

### Dərsə başlayarkən

Məşğələ zamanı şagirdlərdə mövzuya maraq oyatmaq üçün müəllim əvvəlcədən müxtəlif quş səslərinin ifasını internetdən araşdırıb toplaya bilər. Dərs zamanı müəllim onları səsləndirir, şagirdlər qulaq asır və onların kimə aid olduğunu tapırlar. Müəllim dərs zamanı oriqami texnikası ilə yaradılmış müxtəlif əşya, heyvan və quş fiqurları nümayiş etdirmək üçün, öncədən onları hazırlaya bilər.

Dərsin sonunda kağız kompozisiyalardan sərgi təşkil etmək üçün sinifdə, yaxud məktəb dəhlizində xüsusi yerin hazırlanmasını təmin etməklə müəllim bir növ şagird nailiyyətlərinin daha bir qiymətləndirmə nümunəsini təqdim etmiş olur.

**Düşünək-müzakirə edək**

Şagirdlər dərslikdə verilmiş quş fotoşəkillərinə baxır, adlarını və onlar haqqında bildiklərini söyləyirlər. Müəllim şagirdlərin diqqətini quşların formasına, ölçüsünə və rənginə yönəldirilməsi vacibdir. Quşların xeyri, insanların onlara rəftarı, yaşayış tərzi, onların mühafizəsi haqqında suallarla sinfə müraciət edə bilər.

**Öyrənək**

Müəllim bu blokda quşlar və onların xarici görünüşü haqqında məlumatı şagirdlərin diqqətinə çatdırır. Rəssamların quş təsvir etdiklərini söyləyir, eyni zamanda həm də rəngli kağızlar vasitəsilə də onları yaratmaq olduğunu vurğulayır. Müəllim əvvəlcədən hazırladığı oriqami nümunələrini göstərir və oriqaminin nə olduğunu, ümumiyyətə onun haqqında kiçik məlumatı diqqətlərinə çatdırır. Yəqin ki, hər bir uşaq valideynlərilə birgə kağızdan təyyarə və ya gəmi düzəldib. Kağızı qatlamaqla müxtəlif fiqurların düzəldilməsinə oriqami deyilir. Oriqami – "oru" (qatlamaq), "qami" (kağız) mənasını verən iki sözün birləşməsindən yaranıb.

**Müəllim üçün əlavə məlumat**

**Oriqami haqqında**

Zaman keçdikcə kağız öz keyfiyyətini itirir və korlanır. Bu səbəbdən oriqami icadının dəqiq tarixini demək çətindir. Yapon mədəniyyətində digər bir çox ünsürlər olduğu kimi, Oru (qatlamaq) Gami (kağız) mənasını verən iki sözün birləşməsiylə yaranan Oriqami kağız qatlama sənəti, Çin mədəniyyəti mənşəlidir. Kağızın Çində icad edildiyi qəbul edilir. Çində bu sənət I və ya II əsr zamanından günümüzə qədər gəlməkdədir.

Yaponlar ilk dəfə VI əsrdə kağızdan istifadə etdilər. Yaponiyada oriqaminin ilk nümunələri isə VIII-XII əsrlərdə rast gəlməkdədir. Bu dövr Yaponiyanın qızıl çağı olaraq da adlandırılar. Bu dövrdə kağız qatlama sənəti festival və mərasimlərdə bəzək olması məqsədiylə olduqca inkişaf etmişdir. Ağ kağız gizli və müqəddəs elementləri saxlamaq məqsədiylə istifadə edilərdi və hələ də bəzi məbədlərdə istifadə edilməkdədir. Əsas XVII-XIX əsrlərdə Oriqami sənəti inkişaf etmiş və yaradılan yeni qəliblərlə xalq tərəfindən də bu bir əyləncə sənəti olaraq mənimsənmiş və məşhurlaşmışdır. XIX əsrin ortalarına doğru 70-ə yaxın fərqli oriqami dizaynı yaradılmışdır.

Quşları kağızdan düzəldəcəklərini bildirir və onların əlvan və yaraşıqlı görünməsi üçün üzərini flomasterlərlə rəngləyib bəzəyəcəklərini də deyir. Şagirdlər oriqami texnikasında quşu hansı ardıcıllıqla düzəltmək olduğu haqqında düşünür və müzakirə aparırlar. Vərəqdən fiqurlar hazırlayaraq, müəllim şagirdlərlə birgə müxtəlif oyun formaları fikirləşə bilər.

**Yaradıcılıq studiyası**

Fiqurları hazırlamazdan əvvəl şagirdlərlə əsas qatlama texnikalarını məşq etmək məqsədəuyğun sayılır. Bunu bacaran şagirdə fiqurların konstruksiyasını düzəltmək çətin gəlməyəcək; məsələn: düzbucaqdan kvadrat kəsmək, kvadratın bucaqlarını bir-biri ilə diaqonal şəkildə birləşdirib qatlamaqla üçbucaq almaq olar. Qatlamaq lazım olduğu üçün nazik vərəq seçməyi şagirlərin nəzərinə çatdırmaq yerinə düşərdi.




Şagirdlər müəllimin müşayiəti ilə oriqami nümunəsinin sxemini düzəldir. Müəllim bütün ardıcıllıq mərhələlərini özü əlində kağızla şagirdlərə nümayiş etdirir. Lakin öncə şagirdlərə A4 formatlı kağızdan kvadrat formanı necə kəsməyi başa salır, çünki oriqami nümunələrinin əsasını bu forma təşkil edir. Şagirdlər işlərini təqdim etdikdən sonra, müəllim onları bir yerə toplayaraq gözəl panno yaradır və sərgiləyir .

**Diferensial təlim**

Sağlamlıq imkanları məhdud olan şagirdlərə çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlana bilər. Ən sadə tapşırıq kağızın bir neçə yerə qatlanması ola bilər. Bu tapşırığın nə üçün önəmli olduğu vəsaitdəki mövzunun əvvəlində qeyd edilmişdir. Müəllim quşun düzəldilməsini şagirdin özünün seçdiyi oriqami texnikası ilə əvəz edə bilər.

| | |
|---|---|
| Şagirdlər üçün çətinlik dərəcəsi **zəif** olan tapşırıq | Hazır kvadrat formalı kağızdan istənilən oriqami nümunəsi hazırlamaq. Quşlara aid rəngləmə də, nöqtəli rəsm də hazırlayıb vermək olar. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **orta** olan tapşırıq | Sadə sxemi nəzərə alaraq, oriqami – quş modeli hazırlamaq. Üzərindəki rəngləri, naxışları flomasterlərlə bəzəmək. |
| Şagirdlər üçün çətinlik dərəcəsi **yüksək** olan tapşırıq | Sxemi daha çətin olan oriqami texnikasında tapşırıq verilə bilər. Tapşırıqdan asılı olaraq şagirdlər maraqlı kompozisiya düşünə bilərlər. |

**Yaradıcı tətbiqetmə**

Sevimli quşun rəsmini çəkmək, yaşadığı mühiti ətrafında təsvir etmək və rəngləmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsi aşağıdakı cədvəldə verilmiş meyar, üsul və rubriklərin səviyyələri ilə təqdim edilmişdir.

| Meyarlar | Üsullar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|---|
| **Kağız materialdan sadə quş fiquru düzəldir, üzərini bəzəyir, hazır quş fiqurlarından kompozisiyalar qurur.** | *Rəsm çəkmək; şifahi sual-cavab; müşahidə* | Kağızdan sadə quş fiquru düzəltməkdə çətinlik çəkir. | Kağızdan sadə quş fiquru düzəldir, bəzəməkdə çətinlik çəkir. | Kağızdan sadə quş fiquru düzəldir, hazır quş fiqurlarından kompozisiyalar qurur. | Kağızdan sadə quş fiquru düzəldir, üzərini bəzəyir, hazır quş fiqurlarından kompozisiyalar qurur. |
| **Verilmiş quş fotoşəkillərində forma, ölçü və rəngləri şərh edir.** | *Tapşırıqvermə: sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili.* | Verilmiş quş fotoşəkillərində forma, ölçü və rəngləri şərh etməkdə çətinlik çəkir. | Verilmiş quş fotoşəkillərində forma, ölçü və rəngləri suallar əsasında izah edir. | Verilmiş quş fotoşəkillərində forma, ölçü və rəngləri izah edir. | Verilmiş quş fotoşəkillərində forma, ölçü və rəngləri şərh edir. |
| **Verilmiş sadə formalı oriqami nümunələrini şərh edir.** | *Şifahi sual-cavab* | Verilmiş sadə formalı oriqami nümunələrini şərh etməkdə çətinlik çəkir. | Verilmiş sadə formalı oriqami nümunələrini müəllimin köməyi ilə izah edir. | Verilmiş sadə formalı oriqami nümunələrini izah edir. | Verilmiş sadə formalı oriqami nümunələrini şərh edir. |

**LAYİHƏYƏ HAZIRLIQ**

Müəllim növbəti dərsdə keçiriləcək STEAM layihə ilə tanış olur. Onun əsasında şagirdləri əvvəlcədən qruplara bölür, növbəti dərs üçün evdə hazırlamağa tapşırıqlar verir. Bu tapşırıqlar əvvəlki dərslərin bilik və bacarıqlarına əsasən valideyn nəzarəti altında yerinə yetirilir. Aplikasiya vasitəsilə heyvanlar kəsib yapışdırmaq, ag və ya rəngli kağızlardan oriqami kiçikölçülü quşları hazırlamaq, plastilindən də dünyanın heyvan və quşlarını düzəltmək tapşırılır. Detalları flomasterlərlə də işləmək mümkündür. Kimin hansı işi görəcəyi müəllimin sinfi əvvəlcədən qitələr üzrə qruplara ayırmağından asılı olacaq.

## Heyvanlar aləminin xəritəsini hazırlayaq

- Rəngli kağızlar
- Rəngli flomasterlər
- Plastilin




**Dərsə başlayarkən**

Müəllim iri rəngli kağızlardan qitələri forma, sahə və quruluşuna görə kəsib hazır edir. Dərs zamanı onları şagirdlərə paylayacaq, qruplarda iş bitdikdən sonra isə qitələri mavi vatman kağızına (A1 və ya A0 ölçülü mavi və ya göy kağız) yapışdıracaq. Bunun üçün, əvvəlcədən vatmanda da qitələrin kənar xətlərini sadə karandaşla çəkərək yerini müəyyən edə bilər. Müəllim üçün qitələrin formaları təqdim edilmişdir.




## Araşdıraq və tədqiqat aparaq

Müəllim xəritənin nə üçün lazım olduğunu, orada nələrin yerləşdiyini, onun kim tərəfindən hazırlandığını, ondan necə istifadə etməyi şagirdlərlə müzakirə edir. Xəritə tərtib etmək üçün əvvəl Yer planetinin forma və ölçüləri mütəxəssislər tərəfindən təyin olunur. Yer planeti dairəvi formanı xatırladır. Daha sonra riyazi metodlarla bu forma kağız üzərinə köçürülür. Hər hansı xəritəni tərtib etmək üçün ilk növbədə təsvir olunacaq ərazinin və oradakı obyektlərin məzmunu öyrənilir. Çünki, xəritədə bütün məlumatlar və təsvirlər **şərti işarələrlə** verilir. Belə təsvirlər qəbul olunmuş şərtlərə əsasən müəyyən məna daşıyır. Xəritəni şərti işarələr toplusu da adlandırmaq olar. Burada həm də **miqyas** nəzərə alınır – real ölçülərin nə qədər kiçildilməyi bildirilir.

Müəllim şagirdlərə siniflər birgə öz xəritələrini hazırlayacaqlarını bildirir. Bu, xüsusi bir xəritə olacaq, yalnız heyvan və quşların yaşadığı yerlərin xəritəsi. Müəllim qitələrin rənginə uyğun olaraq şagirdləri 7 qrupa bölür. Müəllim hər qitədə hansı heyvanların yaşadığını qruplarla müzakirə edir.

| **1-ci qrup – Avropa** | **2-ci qrup – Asiya** | **3-cü qrup – Afrika** |
|---|---|---|
| Dağ keçisi, dələ, maral, ayı, qaban, suiti, dovşan, kirpi, köstəbək, tülkü, canavar, ağacdələn, kərtənkələ | Fil, ayı, dəvə, canavar, kərgədan, oranqutan, qurbağa, durna, timsah, tısbağa, kobra, akula | Fil, begemot, şir, zürafə, leopard, hepard, antilopa, kərgədan, zebra, meymun, dovşan, tülkü, timsah, tısbağa |

| **4-cü qrup – Şimali Amerika** | **5-ci qrup – Cənubi Amerika** | **6-cı qrup – Avstraliya** | **6-cı qrup – Antarktida** |
|---|---|---|---|
| Qunduz, ayı, timsah, sığın, canavar, arıquşu, milçəkquşu (kolibri) | Ayı, qarışqayeyən, şir, pişik, yaquar, anakonda, meymun, timsah, tısbağa, qutan, tutuquşu | Koala, kəl, kenquru, dəvə, tülkü, siçan, kərtənkələ | Balina, suiti, su leopardı, su pişiyi, su fili |

## Düşünək

Müəllim əvvəlcədən rəngli kağızlardan kəsib hazırladığı qitələri hər qrupa paylayır. Şagirdlər qruplarda xəritənin necə adlanacağını düşünür və işin sonunda bütün qruplar bir qərara gəlirlər. Qruplar heyvan və quşları harada yerləşdirəcəklərini düşünürlər, öz qeydlərini aparırlar. Lazım olduqda, müəllimin köməyindən istifadə edə bilirlər.

## Yaradaq



Şagirdlər evdə əvvəlcədən hazırladıqları rəngli kağız və ya plastilindən müxtəlif fiqurlar vasitəsilə heyvan və quşları yaşadıqları yerlərin üzərinə qoyurlar. Kiçik formada, qitə üzərində yerləşdirilə biləcək qədər heyvan və quşları şagirdlər orada yerləşdirilər. İşi bitirən qrup divardan yaxud lövhədən asılmış iri mavi vatmanda müəllimin əvvəldən işarələnmiş qitələrin yerlərini tapır, müəllimin köməyi ilə onları yapışdırırlar.





Fəaliyyətinin qiymətləndirilməsi **layihələrin qiymətləndirilməsi** meyarları vasitəsilə aparıla bilər.

# 2. TƏBİƏT VƏ İNCƏSƏNƏT

## 6 Təbiətin yaratdığı evlər

| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 2.1.1.; 2.1.4.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, foto və şagird rəsmləri, elektron təqdimat, formativ qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, sadə və rəngli karandaşlar, rəngli flomasterlər, pastel təbaşirlər |

| **Təlim məqsədləri** |
|---|
| o Sadə təsvir alətlərindən olan rəngli karandaş, flomaster və pastel təbaşirləri qeyri-adi formalı evin rənglənməsində istifadə edir. |
| o Sadə və rəngli karandaş, flomaster, pastel təbaşirlərlə qeyri-adi formalı evin təsvirini yaradır. |
| o Verilmiş sadə formalı təbiətin yaratdığı evcikləri şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Bu dərsdə şagirdlər bədii konstruktiv fəaliyyətin əsasları ilə tanış olurlar. Çox zaman evi çəkərkən onlar ənənəvi evin formasını təsvir edirlər: kvadrat formalı ev, üçbucaq dam və baca. Müəllim şagirdlərlə birgə real memarlıq nümunələrinin şəkillərini göstərir, tikililərin müxtəlif məqsədlərə xidmət etdiyi haqqında söhbət aparır: evlər, mağazalar, məktəblər, qalalar və s. Onların hansı hissədən ibarət olduğunu, dam, divar, pəncərə, qapının necə olacağını, orada kimin yaşayacağını düşündürməklə şagirdlərdə memarlıq haqqında müəyyən təəssüratlar formalaşır. Bununla yanaşı, təbiətdə formalaşan konstruksiyaları da nəzərdən keçirmək lazımdır. Dərsin əsas məqsədi – şagirdlərdə formanı hiss etmək qabiliyyətini, analiz etmək bacarığını inkişaf etdirməkdir. Çünki tikilinin necə olduğunu başa düşmək üçün onun konstruksiyasını müəyyən etmək lazımdır.

**Dərsə başlayarkən**

Müəllimin dərsə hazırlaşarkən Azərbaycanın memarlıq nümunələrinin fotolarını, adlarını, onların harada yerləşdiyini slayd vasitəsilə hazırlayır. Bundan əlavə, təbiətin yaratdığını kiçik evlər haqqında da məlumat toplayır, hətta internet vasitəsilə videoçarxlar da göstərmək üçün internet resurslar toplaya bilər. İnsanın və təbiətin yaratdığı evcikləri Venn diaqramı vasitəsilə müqayisə etmək üçün diaqramı iri vatman vərəqində və ya slayd vasitəsilə hazırlaya bilər.

**Düşünək-müzakirə edək** Dərsdə şagirdlər təqdim edilmiş müxtəlif canlıların evciklərinin xarici görünüşünə diqqət yetirir, onların daxilinin necə olduğunu təsəvvür etdiklərini siniflə birgə müzakirə edirlər. Şagirdlər evciklərin həm xarici, həm də daxili forması haqqında danışırlar.

**Öyrənək** Şagirdlər müəllimin köməyi ilə dərslikdə blokun əvvəlində verilmiş təbiətin yaratdığı evciklər haqqında materialla tanış olurlar. Meşədə ətrafa nəzər salsaq müxtəlif evciklərin olduğunu görmək olar. Quş, heyvan yuvası və koğuş, balıqqulağı və tısbağanın, ilbizin çanağı – təbiətin yaratdığı evlərdir. Arılar da özünə ev tikir, qarışqa yuvası isə, demək olar ki, bütöv bir şəhərə bənzəyir!

Sonra müəllim şagirdlərə müxtəlif memarlıq nümunələrinin şəkillərini göstərir və onların necə və kim tərəfindən yaradıldığını soruşur və qısa məlumat verir. İnsanlar ev, park, kənd, şəhər tikirlər. Bu xü-

susiyyət onlarda qədim zamandan formalaşıb. Tikilinin formasının necə olduğunu, onu necə tikməyi isə rəssam düşünür. Bu rəssam memar adlanır, tikililər isə – memarlıq nümunələri. Uşaqlar da tikir – qumdan, qardan və ya kiçik oyuncaq kublardan. İnsan bütün yaratdıqlarını təbiətdən öyrənir. Müəllim şagirdlərə nağıllarda olan evlər haqqında da söhbət aça bilər.

**Yaradıcılıq studiyası** Şagirdlər qruplara ayrılırlar. Müəllim təbiətin yaratdığı tikililərə bənzər və yaxud qeyri-adi ev formaları düşünməyi tapşırır. Şagirdlər **"Evin formasını təsvir edəndə nəyi nəzərə almaq lazımdır?"** sualı ətrafında düşünürlər. Təsvir edəcəkləri evin daxili hissəsi yaşamaq üçün rahat, onun pəncərə, qapı, bacası olduğu müəllim tərəfindən izah edilir. Nağıllardakı kimi – ev təkərlər üzərində, bəlkə də onun qınaqlarının da olduğunu vurğulaya bilər. İş qruplarda aparılır. Təbiət formalarına görə qruplara ayırmaq olar. Rəsmlərin təqdimatı zamanı digər qruplar təriflərini, suallarını və təkliflərini bildirirlər.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Həndəsi fiqurlar ibarət ev çəkmək: insanın yaşadığı ev, quş yuvası və it damı ola bilər. Çəkmək çətin olarsa, onu nöqtəli rəsmlə də əvəz etmək olar. |
| **Orta** | Qeyri-adi formalı ev fikirləşib çəkmək. İstəyə uyğun olaraq evin təkərləri və qanadları da ola bilər. |
| **Yüksək** | Heyvan və quşların yaşaması üçün bir neçə qeyri-adi formalı ev fikirləşib çəkmək. Ətrafda meşəlik, heyvan və quşları da təsvir etmək. |

**Yaradıcı tətbiqetmə**

Sinifdə çəkilən evin daxili hissəsini təsəvvür etmək, orada yerləşəcək əşyaları çəkmək.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrupların özünüqiymətləndirmə cədvəl formasından istifadə edə bilər.

## 7 Torpağın naxışları

| **Məşğələ növü** | Dekorativ-tətbiqi fəaliyyət |
|---|---|
| **Alt-standartlar** | 1.1.2.; 2.1.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı fotosu, rəssam əsərlərinin reproduksiyası, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, sadə karandaş, rəngli flomasterlər, pastel təbaşirlər |

| **Təlim məqsədləri** |
|---|
| o Dekorativ-tətbiqi sənətin xalçaçılıq növünü istifadə materialı və üzərindəki naxışlara görə sadalayır. |
| o Sadə təsvir alətlərindən olan rəngli flomaster və pastel təbaşirlərdən xalçanı rənglənilməsində istifadə edir. |
| o Verilmiş təbii gülləri formasına görə şərh edir. |
| o Verilmiş sadə formalı xalça nümunəsini və üzərindəki gül naxışlarını şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Dərsdə şagirdlər dekorativ-tətbiqi sənətin növlərindən biri olan xalçalar və üzərindəki naxışlarla tanış olurlar. Naxışları müəyyən etmək, onların hansı formalardan ibarət olduğunu başa düşürlər. Xalçalar haqqında ümumi məlumat, onların fotoşəklinin nümayişindən sonra şagirdlər (1-ci sinfin yaş səviyyəsinə uyğun) bu mövzuda naxışların artıq ardıcıl təsvirini deyil, "vərəq-xalça" səthi üzərində çiçəklərdən kompozisiya yaratmalıdırlar.

**Dərsə başlayarkən**

Müəllim Azərbaycan xalçaçılıq məktəblərinin nümunələri arasında üzərində gül kompozisiyaları olan xalçaları müəyyən edir və slayd vasitəsilə şagirdlərə təqdim etmək üçün toplayır. Bundan əlavə, təbiətdə olan müxtəlif formalı və rəngli gül-çiçəkləri də rəngli kağızdan kəsə bilər, yaxud fotoşəkillərini slayd vasitəsilə təqdimatı üçün hazırlaya bilər. Dərsin motivasiya mərhələsi üçün gül-çiçəklərlə bəzədilmiş qab-qacaq, geyim, xalçalar nümayiş etdirilə bilər.

**Düşünək-müzakirə edək**

Dərslikdə rəssam tərəfindən çəkilmiş gül haqqında danışırlar. Sonra güllərə harada rast gəlindiyi və hansı məişət əşyalarının üzərini bəzədiyi soruşulur (qab, geyim, xalça və s.). Şagirdlər fotoşəkillər vasitəsilə xalçalar və üzərindəki naxışlar haqqında bildiklərini danışırlar.

**Öyrənək**

Şagirdlər müəllim vasitəsilə dərslikdə təqdim edilən məlumatla tanış olurlar. Müxtəlif gül şəkilləri göstərilir və yönəldici suallarla onların "təbiətin naxışları" olduğu müəyyən edilir.

**Yaradıcılıq studiyası**

Müəllim şagirdlərə gül-çiçəklərdən ibarət xalça təsvir edəcəklərini söyləyir. Şagirdlər **"Güllərdən ibarət xalçanı necə təsvir etmək olar?"** sualı ətrafında düşünürlər. Şagirdlərə albomda, yaxud A4 format rəsm vərəqi üzərində müxtəlif ölçülərdə dairələr çəkmək tapşırılır. Bu dairələr güllərin orta hissəsi olacaq. Sonra isə dairələr ətrafında müxtəlif formalı ləçəklər çəkməklə onları müxtəlif ölçülü çiçəklərə çevirirlər. Çiçəkləri flomasterlərin, xalçanı isə pastel təbaşirin müxtəlif rəngləri ilə boyayırlar.

İnteraktiv çalışma kimi lövhənin sol hissəsində müxtəlif güllərin kiçik hissələri verilir, sağ tərəfdə isə boş kvadrat. Şagird gülləri hissə-hissə birləşdirərək gülün bütov təsvirini düzəltməlidir. Bu, bir növ, uşaqların sevimli və məntiqi oyunu – pazıllardır.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Həndəsi fiqurlardan ibarət xalça çəkmək. Mövzunu çiçəkli xalça rənglənməsi ilə əvəz etmək olar. |
| **Orta** | Gül naxışlarından ibarət olan xalça çəkmək. |
| **Yüksək** | Zolaqlı xalça çəkmək və üzərini istənilən formalı naxışlarla bəzəmək. |

**Yaradıcı tətbiqetmə**

Azərbaycan xalçaları və üzərindəki naxışlar haqqında məlumat toplamaq.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun olaraq rubriklərdən, yaxud şagirdlərin fərdi özünüqiymətləndirmə cədvəlindən istifadə edə bilər.

## 8 Heyvanların naxışlı "geyimləri"

| Məşğələ növü | Yapma |
|---|---|
| **Alt-standartlar** | 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, fotolar və ya slaydlar, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, plastilin, plastilin üçün lövhə, plastik bıçaqlar – steklər, quru və nəm salfetlər |

| Təlim məqsədləri |
|---|
| o Plastilindən sadə heyvan fiqurlarının formasını düzəldir. |
| o Heyvan dərisinin naxışlarını yaratmaq üçün əl altında olan ləvazimatlardan istifadə edir. |
| o Verilmiş heyvan təsvirlərində xətt, rəng və formaları şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Dərsin məqsədi – müşahidə etməyi öyrətmək, estetik təəssüratlardan təcrübə qazanmaq və təsviri yaradıcılıqda yeni bacarıqları formalaşdırmaqdır. Müəllim təbiətin gözəllikləri haqqında söhbət etməklə, müşahidə olunan xətt, naxış, rəng və forma haqqında məlumatları şagirdlərə çatdırmaqla, onlarda emosional və estetik hisləri tərbiyə etmiş olur.

### Dərsə başlayarkən

Şagirdlərin mövzunu daha yaxşı başa düşmələri üçün vizual təqdimat çox vacib sayılır. Bu baxımdan müəllim üzərində naxışlar olan müxtəlif canlıların dərisinin fotoşəkillərini şagirdlərə nümayiş etdirmək üçün slayd və ya fotoşəkil kimi toplayır.

**Düşünək-müzakirə edək**

Mövzuya giriş üçün müəllim keçən dərsdə nə keçdiklərini şagirdlərə xatırladır və mövzunun xalça naxışları olduğunu vurğulayır. Sonra şagirdlərdən canlıların da naxışlarının olub olmadığını soruşur. Cavablar müxtəlif olduğu üçün, müəllim şagirdlərin diqqətini dərslikdəki, yaxud əvvəlcədən hazırlamış slayddakı canlıların dərisinə yönləndirir və təbiətdə olan canlıların dərilərinin də naxış hesab etmək olduğunu bildirir. Dərslikdə rəssam da canlıların "geyimini" naxış kimi göstərmişdir. Şagirdlər siniflə birgə şəkillərdə bu naxışları tapır, onların hansı xətləri xatırladığını cavablandırırlar.

**Öyrənək**

Müəllim şagirdləri blokda verilmiş məlumatla tanış edir. Canlıların dərisini "geyim" adlandırır və bu "geyim"in kiçik naxışlara bənzədiyini vurğulayır. Həmin geyim-naxışları müəllim lövhədə çəkə də bilər. Naxışlarda təkrarlanan xətt, rəng və formalar var. Hər bir canlının görünüşü bu naxışlara görə də fərqlənir.

**Yaradıcılıq studiyası**

Müəllim şagirdlərə heyvan, quş və ya balığın yapmasını hazırlamağı tapşırır. Lakin bu yapma dairəvi formada deyil, kağız üzərində olacaq (relyef yapma haqqında uşaqların hələ məlumatı yoxdur, lakin bunun texnologiyasını uşaqların yaş səviyyəsinə uyğun müəllim başa salır). Əvvəlcə müəllim şagirdləri yapacaqları heyvanların adlarına görə 6 qrupa bölür. 1 və 4-cü qruplar fərqli rənglərdə quşu, 2 və 5-ci qruplar balığı, 3 və 6-cı qruplar quzunu yapır. Bunun üçün plastilindən təxminən barmaq qalınlığında yastı lövhə yayırlar. Sonra onu qalın karton üzərinə yerləşdirirlər. Lövhə üzərində yapılacaq heyvanın formasını plastik bıçaq – stek vasitəsilə cızır, sonra isə plastilinin artıq hissələrini kəsib çıxarırlar. Heyvanın forması hazır olduqdan sonra onun dərisinin naxışlarını yaratmaq üçün şagirdlər əlləri altında olan ləvazimatlardan istifadə edirlər. Məsələn, flomaster qapağından dairələr, karandaşın ucu ilə nöqtələr, xətkeşin yan tərəfi ilə düz incə zolaqlar naxış hesab edilir. Uşaqların fantaziyası tükənməzdir, onlara sərbəstlik verilir və onlar da öz ideyalarını

naxışlara çevirirlər. Qruplar işlərini təqdim etdikdən sonra müəllim yapmaları "Qalereya gəzintisi" vasitəsilə bütün qrupların tanış olması üçün şərait yaradır.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Plastilindən həndəsi fiqurlardan ibarət canlıları kağız üzərində yapmaq. |
| **Orta** | Plastilindən heyvan, quş və ya balığın kağız üzərində yapmasını hazırlamaq. |
| **Yüksək** | İstəyə əsasən eyni texnikadan istifadə edərək müxtəlif heyvan, quş və həşəratlar yapmaq, onlardan kompozisiya yaratmaq. |

**Yaradıcı tətbiqetmə**

Plastilinin müxtəlif rənglərindən istifadə etməklə zolaqlı balıqlar yapmaq, sualtı aləm kompozisiyası yaratmaq.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun olaraq rubriklərdən, yaxud şagirdlərin qrupların özünüqiymətləndirimə cədvəlindən istifadə edə bilər.

## 9 Təbiətin rəngləri

| | |
|---|---|
| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
| **Alt-standartlar** | 1.1.1.; 2.1.1. 2.1.3.; 3.1.2. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, əsas rənglərin təsviri olan əyani vəsait, şagird rəsmləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, quaş, müxtəlif ölçülü fırçalar, suqabı, önlük, quru və nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| ○ Təsviri sənətin rəngkarlıq növünü sadalayır. |
| ○ Sadə təsvir alətlərindən olan fırçanı və quaş boyanı təyinatına görə istifadə edir. |
| ○ Əsas – qırmızı, sarı və göy rəngləri tanıyır, onları sadalayır. |
| ○ Səttar Bəhlulzadənin "Torpağın arzusu" əsərində əsas rəng çalarlarını ayırır və adlandırır. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Məktəbəqədər dövrdə uşaqların əksəriyyəti boyalarla tanış olmuşdur. 1-ci sinifdə isə şagirdlərdə quaşla düzgün işləmək bacarığının formalaşdırılması çox əhəmiyyətlidir. Boyalarla iş xüsusi təşkilati bacarıqlar tələb etdiyinə görə, şagirdlərə bir qədər gec təqdim olunur.

Şagirdlərə iş yerinin təşkilini (su bankasının və boyaların hansı tərəfdən qoyulması, bankadakı suyun miqdarı, boyaları açmaq və bağlamaq bacarığı, qapaqların hara qoyulması və s.), palitradan, hansı fırçalardan və necə istifadə etməyi, onları necə yumağı, iş zamanı boyaları çirkləndirməməyi və əsgi parçasının nə üçün lazım olduğunu başa salmaq məqsədəuyğun olardı.

Belə texniki və təşkilati bacarıqların məşq edilməsi şagirdlərin uyğun çətinliklərinin aradan qaldırılmasına yardım göstərir. Bu isə dərs zamanı şagirdlərin fikrinin əsas məqsəddən yayınmasının qarşısını alır. Belə bir işdə boyalarla məşğələ zamanı dərsin emosional keçməsi, bayram əhvali-ruhiyyəsinin yaradılması çox faydalıdır. Yeni boyaların görünüşü, qoxusu nəinki kiçikyaşlı uşaqlarda, hətta rəssamlarda belə həyəcan hisləri oyadır. Hər bir boyanın rəngi və qoxusu nəyisə xatırladır. Uşaqlar boyaların yaratdığı assosiasiyalar barədə məmnuniyyətlə söhbət edirlər. Çünki bu onların həyat tərzinə çox uyğun gəlir.

Dərsin məqsədi – quaş boyaları ilə tanışlıq, onun xüsusiyyəti, işləmə qaydaları, fırça və sudan istifadə bacarıqlarının formalaşdırılmasıdır. 1-ci sinifdə rənglərin bir-biri ilə qarışdırılması və müxtəlif çalarların alınması əsas məqsəd daşımır. Bu yaşda olan uşaqlar, sadəcə, boyalarla çəkir və rəngləyirlər. Rəng mühiti isə tədricən yuxarı sinifdə öz əksini tapacaq.

### Dərsə başlayarkən

Şagirdlərin boyalarla iş yerinin təşkili üçün müəllim əyani vəsait hazırlaya bilər. Bura iş zamanı nələrə diqqət yetirmək, işə necə və nədən başlamalı olduqları ardıcıllığı əks etdirən fotolardan ibarət bir vəsait olmalıdır. Bu əyani vəsait bir müddət iş zamanı şagirdlərin adaptasiya olunması üçün sinfin bir hissəsindən asılmalıdır.

### Düşünək-müzakirə edək

Dərslikdə verilmiş fotoşəkildə çiçəklər qırmızı, Günəş sarı və səma göy rənglərə boyanıb. Bu rənglərdə təbiətdə daha nələr olduğunu şagirdlər müzakirə edir və cavablandırırlar.

### Öyrənək

Bu blokda verilmiş məlumat şagirdlər üçün yeni informasiyadır. Bu vaxta kimi şagirdlər müxtəlif ləvazimatlarla işləyiblər. Bu dərsdə isə müəllim rəssamların da müxtəlif materiallarla işlədiyini və bu materiallar arasında **quaş** boyaların da adını çəkir. O bildirir ki, yalnız boyalarla təsvir edilən əsərlərə **rəngkarlıq** nümunələri, rəssama isə **rəngkar** deyilir. Rəssamların istifadə etdiyi quaş – qatı boyadır, iş zamanı boyadan çox, sudan az istifadə edilir. Bu boyaların şəffaflığı yoxdur, örtücü xüsusiyyətə malikdir.

Müəllim şagirdlərə quaşın xüsusiyyətləri və işləmə qaydaları ilə tanış etmək üçün suallar verir. Dərslikdə verilmiş 3 quaş qabında hansı rənglərin (qırmızı, sarı, göy) olduğunu soruşur və bildirir ki, qırmızı, sarı, göy rənglərə **əsas rənglər** deyilir. Qırmızı, sarı, göy ona görə əsas rəng adlanır ki, bu rəngləri heç bir rənglərdən almaq mümkün deyil. Onların qarışığından isə istənilən rəng çalarları almaq olur.

Sonra müəllim şagirdlərə hazırladığı əyani vəsaiti nümayiş etdirə bilər. Boyalarla iş zamanı vərəq və alətlər parta üzərində rahat yerləşdirilməlidir. Vərəqi – qarşıda, boya və su bankasını vərəqin yuxarı və sağ hissəsindən qoymaq lazımdır. Fırçaları istifadə etmədikdə isə su bankasında tükləri yuxarı istiqamətdə saxlamaq lazımdır ki, korlanmasın.

Müəllim şagirdləri müxtəlif fırça növləri ilə tanış edir və onların 2 cür – yumru və düz olduğunu bildirir. Yumru fırçanın ucu – şiş, iti, tükləri isə təbii heyvan tükündən (at, dələ) olduğu üçün çox yumşaqdır. Düz fırçanın ucu isə düz, tükləri isə sərt və cod olur.




### Qalereya

Dərsliyin bu blokunda Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi, Xalq rəssamı Səttar Bəhlulzadənin məşhur "Torpağın arzusu" əsəri verilmişdir. **Təsviri sənət əsərlərini araşdıraq** hissəsində müəllim şagirdləri suallar vasitəsilə rəssamın çəkdiyi əsərə münasibət bildirməyi yönləndirməlidir.

1. **Rəssam əsərində nə görürsünüz?** sualına şagirdlər əsərdə gördüklərini şifahi təsvir edirlər.
2. **Rəssam göy, qırmızı və sarı boyalarla nə təsvir etmişdir? Əsərin ön hissəsində hansı rənglər daha çoxdur?** suallarına şagirdlər rəssamın əsas rəngdə nələri təsvir etdiyini sadalayır. Daha sonra rəssam əsərinin ön hissəsini təhlil edirlər – şagirdlər əsərdə hansı rənglərin üstünlük təşkil etdiyini söyləyirlər.
3. **Əsərdəki məkan haqqında nə düşünürsünüz? Güllərin, dağların forması haqqında danışın.** Şagirdlər öz fikir və düşüncələrini şərh edirlər.
4. **Əsərdə nə xoşunuza gəlir?** sualına əsəri qiymətləndirməklə münasibət bildirirlər.

### Yaradıcılıq studiyası

Müəllim şagirdlərə yalnız əsas – sarı, qırmızı və göy rənglərdən istifadə etməklə istədikləri rəsmi çəkməyi tapşırır. Şagirdlər **"Quaşla necə işləmək olar? İş zamanı nəyi nəzərə almaq lazımdır?"** sualı ətrafında tədqiqat aparırlar.

Əvvəlcə şagirdlər əsas rənglərdə nələrin olduğunu düşünürlər. Müəllim bütün siniflə frontal sorğu keçirir və bildirir ki, çəkəcəkləri rəsmdə əsas rənglərdə olan əşyalar bir-biri ilə uzlaşmalıdır, yəni rəsmdə məna və məzmun kəsb etsin. Sonra onlar çəkdiyi əsas rənglərdə olan əşyaların ətrafını təsvir edirlər – harada yerləşəcək, yuxarıda, aşağıda, sağ və sol tərəfdə nələri çəkməli olduqlarını düşünürlər. Bu zaman

dərslikdə yer almış şagird rəsmləri ilə də tanış olurlar. Burada birinci iş insan əli ilə yaradılmış əsas rənglərdə olan əşyalardır. İkinci rəsm isə təbiətin yaratdığı varlıqlardır. İş formalarına gəldikdə isə müəllim bu məşğələni istər fərdi iş kimi, istərsə də cütlüklərlə iş kimi keçirə bilər.

İnteraktiv tapşırıq kimi lövhədə müxtəlif rənglərdə olan əşya təsvirləri verilir, ortada isə üç rəngsiz ləkə - bu, əsas rənglər sayılacaq. Şagird öncə bunların hansı rənglər olduğunu müəllimin verdiyi suala cavab tapmaqla müəyyən edir. Sonra isə bu rənglərə uyğun gələn əşyaları taparaq ətrafına yığır (məsələn: qırmızı – nar, alma, pomidor və s.)

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Hazır rəsmi quaşla boyamaq və ya quaş vasitəsilə istənilən xətlər, zolaqlar, nöqtələr çəkmək. |
| **Orta** | Əsas rənglərdən istifadə etməklə istənilən mövzuda rəsm çəkmək. |
| **Yüksək** | Təbiətdə sarı, qırmızı, göy rənglərdə mövcud olanları təsvir etmək. |

**Yaradıcı tətbiqetmə**

Ensiklopediya və ya internet vasitəsilə yalnız əsas rənglərdə olan canlıları – heyvan, quş, həşərat və balıqları araşdırmaq və məlumat toplamaq.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun olaraq rubriklərdən, şagirdlərin fərdi özünüqiymətləndirmə, yaxud cütlüklərin qiymətləndirilməsi cədvəlindən istifadə edə bilər.

## 10 Bəzəkli həşəratlar

| **Məşğələ növü** | Dekorativ-tətbiqi fəaliyyət / monotipiya |
|---|---|
| **Alt-standartlar** | 2.1.1.; 2.1.3.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı müxtəlif həşərat fotoları, rəssam əsərlərinin reproduksiyası və şagird işləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, A4 formatlı rəsm vərəqi, quaş, fırçalar, rəngli flomasterlər, suqabı, önlük, palitra, quru və nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| o Sadə təsvir alətlərindən olan fırça və flomasteri həşəratın təsvirində istifadə edir. |
| o Əsas rəngləri tanıyır, onları sadalayır. |
| o Verilmiş həşəratların quruluşunu və formasını, rəng və naxışlarını şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Uşaqlar yeniliyə çox sevinirlər, gözəlliyə isə heyranlıqla baxırlar. Dərsdə məhz bu praktik işin köməyi ilə asılan işlərdən ibarət pannoya baxarkən sinifdə yay, təbiət, gözəllik əhvali-ruhiyyəsinin yaranmasında müəllimin yanaşması böyük rol oynayır. Kəpənəyi çəkmək üçün şagirdlərə simmetriya anlayışını öyrətmək tezdir. Bunu quaş ilə çəkilmiş rəngli ləkələr vasitəsilə monotipiya texnikasında göstərmək məqsədəuyğundur. Şagirdlərlə kəpənəyin rəng uyğunluğunu, qanadlarında incə naxışların yerləşməsini müzakirə etmək müəllimə tövsiyə olunur.

**Dərsə başlayarkən**

Məşğələyə hazırlaşmaq üçün müəllim monotipiya texnikası haqqında məlumat toplaması tövsiyə edilir. Buraya Azərbaycanın Xalq rəssamı Hüseyn Əliyev, Əməkdar İncəsənət Xadimi, professor Elturan Avalovun və impressionistlər haqqında məlumatlar daxil ola bilər.

Dərsin motivasiya mərhələsi üçün şagirdlərə müxtəlif səthlərin şəkillərini göstərə bilər. Bunlar ağacın gövdəsi, ilanın, zürafənin dərisi, balıqqulağı, kəpənəyin qanadları ola bilər. Onların fotosunu slayd vasitəsilə hazırlaya bilər.

Müəllim müxtəlif forma və naxışlarla zəngin kəpənək şəkilləri və ya onları canlı şəkildə nümayiş etdirmək üçün kiçik videoçarx nümunəsi hazırlasa, sinifdə canlı və şən əhvali-ruhiyyə yaratmış olar və yaradıcılığa müsbət təsir göstərər.

Qeyd. Müəllim kəpənəyi parabüzən, hörümçək və digər həşəratlarla əvəz edə bilər.

**Düşünək-müzakirə edək** Şagirdlər dərslikdə təqdim edilmiş həşəratlar haqqında bildiklərini danışırlar. Qanadlarındakı bəzəklər barədə müzakirə edirlər. Burada müəllim onların diqqətini həşəratların qanadlarına yönəldir, qanadların sağ və sol tərəfdə eyni formada, ölçüdə və rəngində - naxışlarında olduğunu vurğulayır.

**Öyrənək** Müəllim şagirdləri dərslikdə verilmiş məlumatla tanış edir, təbiətdə çoxlu sayda müxtəlif həşəratların olduğunu bildirir. Onların hər birinin öz quruluşu, forması, rəngi və naxışları olur. O həşəratların sağ və sol qanadlarındakı naxışlar eyni olur.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə kəpənək çəkəcəklərini və onun əlvan, yaraşıqlı və naxışlı "geyim"ini quaşla qeyri-adi üsulla təsvir edəcəklərini bildirir. Şagirdlər **"Boyalarla kəpənəyi necə təsvir etmək olar?"** sualı ətrafında tədqiqat aparırlar. Onu təsvir etmək üçün müxtəlif naxışlar fikirləşmək lazımdır ki, hər bir qrupda fərqli olsun. Şagirdlər bu tapşırığı qruplarda, lakin fərdi olaraq işləyəcəklər. 1-ci qrup kəpənəyi xətt və zolaqlarla; 2-ci qrup nöqtələrlə; 3-cü qrup kiçik ləkələrlə; 4-cü qrup iri ləkələrlə; 5-ci qrup isə, sadəcə, müxtəlif rənglərin qarışığı ilə bəzəyə bilər. Bu tapşırığı monotipiya texnikasında işləyəcəklər (1-ci sinif şagirdi üçün bu texnikanın adını bilmək, yaxud öyrənmək kimi məqsəd qoyulmayıb müəllimin qarşısında).

Şagirdlər vərəqi 2 hissəyə qatlayırlar. Açdıqdan sonra bir tərəfində boyaların müxtəlif rəngləri ilə bir neçə ləkə, xətt və ya nöqtə çəkirlər. Sonra həmin vərəqin hissələrini bir-biri ilə tutuşdurub yenidən qatlayırlar ki, onlar üst-üstə düşsün. Qatladıqdan sonra əlləri ilə üstündən basırlar. Açdıqda əvvəlkindən fərqli izlər qalacaq.

Kəpənəyin naxışlarını xətt, iri və kiçik ləkələr, nöqtələrlə fırçanın köməyi ilə qoya bilərlər. İşlər quruduqdan sonra uşaqlar flomasterlərlə kəpənəyin gözlərini, buynuzlarını da çəkirlər. Qrup üzvləri monotipiya üsulu ilə yaratdıqları kəpənəkləri təqdim etmək üçün lövhənin qarşısına düzürlər. Müəllim isə sinif guşəsindən onları asaraq "Çəmənlik üzərində kəpənəklər" adlı panno yaradır. Təriflər, suallar və təkliflər üsulu ilə müzakirə edirlər.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Kəpənəyi nöqtəli rəsm vasitəsilə çəkmək və üzərinə fırça ilə ləkələr – "naxışlar" qoymaq. Kəpənək, parabüzən və ya cırcırama rəngləməsi üzərində naxış vuraraq rəngləmək. |
| **Orta** | Kəpənəyə əlvan, yaraşıqlı və naxışlı "geyim" çəkmək (monotipiya texnikası) |
| **Yüksək** | İstənilən həşəratı monotipiya texnikasında təsvir etmək. |

**Yaradıcı tətbiqetmə**

Monotipiya texnikasında güllərin təsvirini yaratmaq.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

## Payız meşəsində düşərgə aplikasiyasını hazırlayaq

• Rəngli kağızlar • Rəngli flomasterlər • Plastilin

### Dərsə başlayarkən

Müəllim düşərgə ilə bağlı fotoları nümayiş etdirmək üçün təqdimat hazırlaya bilər. Buraya şagirdlərin yaş səviyyəsinə uyğun müxtəlif formalı ağaclar, kollar, heyvanlar və s. daxildir. Nəzərə almaq lazımdır ki, payız fəsli ilə də bağlı fotolar və suallar hazırlamaq olar. Payızda ağacların forması, yarpaqların rəngi, yağış və s. haqqında suallar vermək yerinə düşərdi. Azərbaycanın səfalı yerlərinin də fotolarını nümayiş etdirmək tövsiyə olunur. Dərsin motivasiya mərhələsi üçün suallar, fotoşəkillər, açar sözlər təqdim etmək yerinə düşər.

Şagirdlərdən düşərgənin nə olduğu soruşulur. Onlardan düşərgədə olanlar varmı, burada olan insanlar nələri müşahidə edir, nələrlə tanış olduqları müzakirə edilir. İnsanlar nə üçün düşərgəni təbiətin qoynunda qurduqları cavablandırırlar.

Məktəb tətili və ya həftə sonları bir çox ailələr açıq havada vaxt keçirməyə üstünlük verirlər. Ağaclar arasında təmiz havada uzun müddət qalmaq insan sağlamlığını gücləndirir. Məşqlər, idman oyunları və turnirləri də insanların rifahına müsbət təsir göstərir. Yeni insanlarla, heyvanlarla, bitkilərlə tanışlıq təbiəti, ətraf aləmi, digər insanları və özünü daha yaxşı tanımağa kömək edir. Düşərgədə fərqli maraq dairəsi və xarakterləri olan uşaqlar da dincəlir. Burada yeni ünsiyyət bacarıqlarını inkişaf etdirmək və həmfikir insanlar tapmaq çox asandır.

### Araşdıraq və tədqiqat aparaq

Müəllim mövzu ilə bağlı şagirdləri məlumatlandırır. Fəal həyata üstünlük verən insanlar düşərgədə dincəlməyi çox sevdiklərini bildirir. Onlar yürüş və ekskursiyalara gedir, idman və yaradıcılıqla məşğul olur, əylənirlər. Düşərgələri çox vaxt meşə və dağlarda qururlar. Burada ağaclar və güllər, çaylar və ya şəlalələr, heyvanlar, quşlar və həşəratlar olur. Müəllim şagirdlə payız meşəsində öz düşərgələrini yaratmağı tapşırır. Bunun üçün onları qruplara ayırır və hər birinə tapşırıq verir.

### Düşünək

Qruplar payızda ağacın yarpaqları hansı rənglərdə olduğunu və düşərgəyə nə adı verəcəklərini müzakirə edirlər. 1-ci qrup düşərgəni meşədə, 2-ci qrup – dağda, 3-cü qrup isə çay kənarında qurur. Heyvan, quş, bitki, həşəratlar və balıqlar da orada yerləşdirirlər. Gecələmək üçün meşədə rəngli çadırlar da olacağı yeri və onların və ağacların formalarını da müəyyən edirlər.

### Yaradaq

Qruplar düşərgədə olacaq varlıqların formalarını rəngli kağızlardan kəsir, xırda hissələri isə rəngli flomasterlərlə çəkirlər. Hər qrup düşərgənin hissələrini və hazırladıqları varlıqları vərəqdə yerləşdirirlər. Öndə, arxada nələri yerləşdirəcəyinizi müəyyən edib yapışdırırlar. İşlər təqdim edildikdən sonra qruplar bir-birinin işinə münasibət bildirir.

Müəllim qrupun təqdim etdikləri işlərdən sərgi hazırlaya bilər. Digər fənn dərslərində hazırladıqları aplikasiyada üzrə maraqlı bir hadisə düşünüb, şəkillərlə üzrə iş apara bilərlər.

Fəaliyyətinin qiymətləndirilməsi **layihələrin qiymətləndirilməsi** meyarları vasitəsilə aparıla bilər.

# 3. DƏYƏR VERDİYİMİZ İNSANLAR

## 11 Mən kiməm?

| **Məşğələ növü** | Dekorativ-tətbiqi fəaliyyət / Aplikasiya |
|---|---|
| **Alt-standartlar** | 1.1.3.; 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, rəssam əsərlərinin reproduksiyası, mövzu ilə bağlı foto və şagird rəsmləri, formativ qiymətləndirmə meyarları və cədvəli, kompüter, proyektor | Dərslik, albom, A3 və ya A4 formatlı rəsm vərəqi, ağ və rəngli kağızlar, rəngli flomasterlər, qayçı, yapışqan |
| **Elektron resurslar** | http://behruzkengerli.nakhchivan.az/ |

| **Təlim məqsədləri** |
|---|
| ○ Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Bəhruz Kəngərlini və onun məşhur olan "Oğlan budaq ilə", "Qırmızı yaylıqlı qız" əsərlərini şərh edir. |
| ○ Bəhruz Kəngərlinin "Oğlan budaq ilə", "Qırmızı yaylıqlı qız" əsərlərində insanın xarici görünüşünü, sifət formalarını şərh edir. |
| ○ Rəngli kağızlardan sadə formalı insan sifətinin aplikasiyasını düzəldir. |
| ○ Verilmiş müxtəlif quruluşda olan uşaq sifətlərindən ibarət təsvirləri şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Mövzuda şagirdləri Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Bəhruz Kəngərlinin yaradıcılığı ilə tanış etməkdir. Rəssam yaradıcılığında portret xüsusi yer tutduğu üçün, şagirdlərə yaş səviyyələrinə uyğun insan sifətinin forması, üz cizgiləri aplikasiya vasitəsilə təqdim edilir. Bəhruz Kəngərlinin əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanıldığı üçün muzeyə əvvəlcədən ekskursiya təşkil etmək tövsiyə olunur. Şagirdlər növbəti mövzularda tanış olacaqları rəssam əsərləri ilə canlı ünsiyyət zamanı əyani seyr etməklə yanaşı, onların qorunub saxlanıldığını da biləlidirlər. 1-ci sinif şagirdinə təsviri sənətin janrı olan portretin adının öyrədilməsi nəzərdə tutulmayıb. Bu janr haqqında o, 2-ci sinifdə ətraflı məlumat alacaq.

**Dərsə başlayarkən**

Müəllimin dərsə hazırlaşarkən bir-neçə uşaq simalarının fotolarını dərsin motivasiya mərhələsində təqdimat forması üçün hazırlayır. Dərsdə Azərbaycanın görkəmli rəssamı Bəhruz Kəngərli haqqında məlumat əldə edir, onun insan portretləri olan əsərlərini əvvəlcədən araşdırır. Aplikasiyanın hazırlanması üçün müəllim əvvəlcədən rəngli kağızlardan müxtəlif göz, burun və ağız formaları kəsib hazırlamaqla nümunə olaraq nümayiş etdirə bilər. Məşğələ zamanı şagird işlərinin nümünəsinin olması tövsiyə edilir.

**Düşünək-müzakirə edək**

Dərsdə şagirdlər dərslikdə verilmiş və ya müəllimin təqdim etdiyi müxtəlif formalı uşaq sifətlərinə baxır və onların hansı formada olduğunu müzakirə edirlər. Ümumiyyətlə insan simalarının müxtəlif formalarda ola biləcəyini başa düşürlər. Bu zaman şagirdlər parta yoldaşları ilə bir-birilərinin də sifət formalarını müəyyən edə bilərlər.

**Öyrənək** Bu blokda şagirdlər müəllimin slayd və ya fotolarda nümayiş etdirdiyi müxtəlif rəssamların əsərlərində insan sürətləri ilə tanış olurlar. Bu əsərlərdə sifətin forması, üz cizgiləri və insanın xarakteri haqqında müəllim söhbət açır.

**Qalereya** Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Bəhruz Kəngərlinin yaradıcılığı haqqında məlumat verilmişdir. Müəllim şagirdləri rəssamın həyat yaradıcılığı ilə tanış edir və onun "Qaçqınlar" silsiləsindən olan "Oğlan budaq ilə" və "Qırmızı yaylıqlı qız" akvarel əsərlərində insanlar sifət formaları, onların sifətlərindəki ifadə və xarakteri müzakirə olunur.

## Müəllim üçün əlavə məlumat

**Sənətkarın həyat və yaradıcılığı: Bəhruz Kəngərli (1892-1922)**

Azərbaycan təsviri sənətində realist dəzgah rəngkarlığının təşəkkülü, portret və mənzərə janrlarının formalaşması Bəhruz Kəngərlinin adı ilə bağlıdır.

Bəhruz Kəngərlinin yaradıcılığında aparıcı yer tutan portret əsərlərində müasirlərinin real və canlı obrazları əksini tapmışdır. Bəhruz Kəngərli portret janrına müstəsna əhəmiyyət vermişdir, ilk qaralama rəsmlərindən, rəssamlıq məktəbində çəkdiyi sinif işlərindən, klassik heykəllərin surətlərindən tutmuş, təmasda olduğu yaxın adamların, tanışların, müəllimlərin surətlərinə kimi, onun erkən əsərlərinin böyük hissəsi portret janrına aid olmuşdur.

Bəhruz Kəngərlinin sərbəst yaradıcılıq fəaliyyəti gərgin ictimai-siyasi təzadlı illərə, xüsusilə ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi təcavüz və terror əməliyyatlarının baş verdiyi dövrə təsadüf etmişdir. Xüsusilə "Qaçqınlar" rəsm silsiləsi zamanın ictimai ziddiyyətlərini əks etdirən realist qüvvəsi ilə səciyyələnir. B.Kəngərlinin portret əsərləri bədii forma cəhətdən şərti, təxmini, stilizə yolu ilə deyil, peşəkar dəzgah rəssamlığına xas olan real və canlı, işıq-kölgə və rəng münasibətlərinə əsasən yaradılmışdır. Azərbaycan rəngkarlıq sənətində o, ilkin akademik rəsm üslubunda işləyərək realist əsərləri ilə yeniliyə yol açmış fırça ustasıdır.

Azərbaycan incəsənətində B.Kəngərliyə qədər öz portretini çəkən olmamışdır. Portret janrının maraqlı qolu olan avtoportret Bəhruz bəy Kəngərli yaradıcılığı ilə Azərbaycan rəsm sənətinə gətirilən yeniliklərdən biridir.

XX əsr Azərbaycan rəsm sənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərli 30 yaşında ciyər xəstəliyindən vəfat etmişdir. Bəhruz Kəngərlinin əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində və Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Rəssam ömrü boyu doğma Vətəninin gözəlliklərini öz əsərlərində tərənnüm etmişdir. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır.

**Yaradıcılıq studiyası** Şagirdlərə sifətin aplikasiyasını hazırlamaq tapşırılır . Müəllim şagirdləri sifət formalarına görə 4 qrupa ayıra bilər. 1-ci qrup uzunsov oval, 2-ci qrup uzunsov düzbucaqlı, 3-cü qrup dairəvi, 4-cü qrup kvadrat formalı sifətin aplikasiyasını hazırlayırlar. İş zamanı ardıcıllıq uşaqlara başa salınır. Yaradıcılıq zamanı müəllim şagirdləri insan sifətinin dəqiq forması, göz, burun və ağızın dəqiq ölçülərinin öyrədilməsindən kənarda qalmalıdır. Şagirdlər bunları rəngli kağızda istədikləri formada çəkib kəsə bilərlər. Kəsməkdə çətinlik çəkən şagirdlər kağızı barmaqları ilə də forma çevrəsində cırmaqla işi həll etmiş olurlar.

Əvvəlcə rəngli kağızdan sifət forması çəkilir və kəsilir. Sonra sifətin bütün hissələrini A3 formatlı kağızda birləşdirir və yapışdırırlar. Şagirdlər gözün forması dairəvi, oval yaxud uzunsov seçə bilərlər. Müəllim şagirdlərin əyri kəsməklərinə qətiyyən qarışmamalı, sadəcə ehtiyat qaydalarına riayət etmələri üçün diqqət yetirməlidir. Başın, gözün, burnun, ağızın, saçların formasının kiçik, yaxud böyük, əyri və ya düz olması qiymətləndirmə meyarlarına daxil deyil. Saçlar üçün zolaqlar kəsir, xırda detalları flomasterlərlə çəkmək olar. İşlər hazır olduqdan sonra Venn diaqramı vasitəsilə müxtəlif formalı sifət aplikasiyalarını müqayisə edə bilərlər.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Hazır kəsilmiş sifət formasını və onun hissələrini ayrı vərəqdə birləşdirmək və yapışdırmaq. |
| **Orta** | İnsan sifətinin aplikasiyasını hazırlamaq. |
| **Yüksək** | Ailə üzvlərinin sifət formalarını nəzərə almaqla, rəngli kağızlardan maraqlı kompozisiya hazırlamaq. |

**Yaradıcı tətbiqetmə**

Müxtəlif ensiklopediya və ya internet vasitəsilə B.Kəngərlinin yaradıcılığına dair məlumat toplamaq.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

## 12 Həyatımızdakı xüsusi insanlar

| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 1.1.3.; 2.1.4. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı foto, rəssam əsərlərinin reproduksiyası və şagird rəsmləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, rəngli flomasterlər, pastel təbaşirlər, rəngli karandaşlar |

| **Təlim məqsədləri** |
|---|
| ○ Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Əzim Əzimzadənin yaradıcılığını şərh edir. |
| ○ Əzim Əzimzadənin "Varlı evində Ramazan" adlı məşhur əsərində insanın gündəlik həyatını –insanların bir-birinə olan qayğısını, onların sifət ifadələrini şərh edir. |
| ○ Sadə və rəngli karandaşlarla, pastel təbaşirlər və rəngli flomasterlərlə insan təsvirlərini səthi çəkir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Mövzuda Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrindən olan Əzim Əzimzadə və onun ən məşhur əsərlərinin nümunəsində insanın gündəlik həyatı, qayğıları, bir-birinə olan münasibətləri haqqında fikirləri formalaşdırmaqdır. Ə.Əzimzadənin yaradıcılığı haqqında məlumat verən müəllim onun əsərlərinin əsas mövzusunu adətlər və xalqın məişəti təşkil etdiyini bildirir. Yaşadığı evdə rəssamın ev-muzeyi fəaliyyət göstərir, evin yaxınlığındakı bağda büstü qoyulmuşdur. Müəllimin rəssamın ev-muzeyinə əvvəlcədən ekskursiya təşkil etməsi tövsiyə olunur.

**Dərsə başlayarkən**

Müəllim Xalq rəssamı Əzim Əzimzadənin yaradıcılığı, əsərlərindən ibarət təqdimat və əsərlərini araşdırmaq üçün suallar hazırlayır. Bundan əlavə nümayiş üçün insanların bir-birinə olan doğma və səmimi münasibətlərindən ibarət foto və ya rəssam əsərləri toplaya bilər.

Müəllim şagirdlərə əvvəlcədən belə bir tapşırıq verə bilər – şagirdlər ailələrində bir-birinizə necə qayğı göstərdiklərini əks etdirən fotolar gətirməyi tapşıra bilər. Dərsin sonunda sinifdə divar lövhəsində onlardan gözəl bir kollaj hazırlamaq olar.

**Düşünək-müzakirə edək** Dərslikdə Baba Əliyevin "Ana ürəyi" əsəri verilmişdir. Rəssamın nə təsvir etdiyini, insanların bir-birinə necə qayğı göstərdiklərini siniflə birgə müzakirə edirlər.

**Öyrənək** Dərslikdə insanların bir-birinə münasibəti haqqında verilmiş mətn müəllim tərəfindən şagirdlərə çatdırılır.

**Qalereya** Müəllim Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi, Xalq rəssamı Əzim Əzimzadənin yaradıcılığı haqqında şagirdlərə məlumat verir və onun "Varlı evində Ramazan" əsərini **Təsviri sənət əsərini araşdıraq** hissəsində təqdim edilmiş suallar əsasında araşdırırlar. Bu tapşırıq eyni ilə 9-cu mövzudakı kimi icra edilir. Burada əsas məqsəd – şagirdə əsəri təhlil etməyi, görməyi, danışmağı bacarmağı, fikir bildirməyi öyrətməkdən ibarətdir.

## Müəllim üçün əlavə məlumat

**Sənətkarın həyat və yaradıcılığı: Əzim Əzimzadə (1880-1943)**

Əzim Əzimzadə Azərbaycan xalqının görkəmli mədəniyyət xadimləri arasında xüsusi yer tutur. O, realist qrafikanın banisi, satirik rəsmin mahir ustası, milli rəngkarlıq sənətinin qabaqcıl nümayəndəsidir.

Müasir Azərbaycan qrafikasının təşəkkülü, formalaşması və inkişafı bu böyük sənətkarın adı ilə ayrılmaz şəkildə bağlıdır. O, XX əsr milli təsviri sənətimizin inkişafında əvəzsiz rol oynamış, qrafikamızı yeni janrlar və obrazlarla zənginləşdirmiş, rəssamlıq kadrlarının yetişdirilməsinə güclü təkan vermişdir.

Peşəkar sənət yoluna özfəaliyyətdən gələn Əzim Əzimzadə 40 illik səmərəli yaradıcılığı ərzində 3000-dən artıq satirik rəsm, karikatura, illüstrasiya, plakat, səhnə dekorasiyası, geyim eskizi və başqa əsərlər yaratmışdır. Azərbaycanın Xalq rəssamı milli sənətin klassik nümayəndəsi zirvəsinə ucalmışdır.

Əzimzadə satirası ilk növbədə öz parlaq ifadəsini məişət janrı sahəsində tapmışdır. Rəssam «100 tip» silsiləsində keçmiş Bakının müxtəlif təbəqələrə, peşələrə mənsub adamlarının, xırda küçə alverçilərinin, burjua ziyalılarının, neft milyonçularının, inzibatçı məmurların ictimai və psixoloji aləmini məharətlə ümumiləşdirmişdir. Obrazların milli koloriti, folklor ənənələrinə yaxınlığı, satira və yumor ünsürlərinin dərin ifadəliyi Əzimzadə yaradıcılığının mühüm sənətkarlıq xüsusiyyətləridir. Rəssam buna təkcə zahiri etnoqrafik vasitə ilə deyil, xalqın ruhunu, nəcib arzularını, mənəvi-əxlaqı incəliklərini yumor dilində ifadə etməklə nail olmuşdur.

Ə. Əzimzadə həm də istedadlı plakat ustası idi. Savadsızlığa, cəhalətə, riyakarlığa, qadın azadlığına həsr etdiyi plakatları siyasi və satirik məzmunu ilə fərqlənirdi. Sənətkar fitri istedadı, səmərəli əməyi sayəsində realist təsviri sənətin forma rəngarəngliyinə hərtərəfli yiyələnmiş, özünün çoxşaxəli istedadını qrafik rəsmlərlə yanaşı, səhnə tərtibatı və geyimi sahəsində də nümayiş etdirmişdir.

Əzimzadənin pedaqoji fəaliyyəti xüsusi yer tutur. O, Bakı Dövlət Rəssamlıq Məktəbində təhsil alan gənc rəssamlar nəslinin müəllimi olmuş, onların sənət aləmində uğurlarını təmin etmişdir.

Əzim Əzimzadənin əsərləri Bakının, Moskvanın və bir sıra digər şəhərlərin muzeylərində saxlanılır, tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Bakıda onun əsərləri xatirə ev muzeyində, eləcə də Azərbaycan Dövlət İncəsənət Muzeyində nümayiş etdirilir.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə onların ən çox dəyər verdikləri insanları bir arada çəkməyi tapşırır. Onlar **"Həyatınızdakı xüsusi insanlar kimlərdir? Dəyər verdiyiniz insanları necə təsvir etmək olar?"** sualı ətrafında araşdırma aparırlar.

Yaradıcılıq zamanı müəllim insanın gündəlik həyatında baş verən ən gözəl hadisələr haqqında da yada salır. Şagirdlər insanları evdə, gəzintidə, bayramda, yaxud şənlikdə də çəkə bilərlər. Əvvəlcə onların kim olduğunu müzakirə və müəyyən edilir. Tapşırığı hər kəs fərdi olaraq çəkəcək, çünki mövzu baxımından hər bir şagirdin duyğu və hisslərini ifadə edə bilmələri üçün, onların qrupda deyil, ayrı-ayrılıqda işləmələri daha məsləhətlidir. Şagirdlər öz rəsmlərində çəkəcəkləri insanların bir-birinə olan qayğı və sevgisini göstərməyə çalışırlar. Bu mövzuda da müəllim şagirdlərdən dəqiq ölçü, proporsiya, uyğunluq kimi me-

yarları tələb etməməlidir. 1-ci sinif səviyyəsinə uyğun olaraq şagirdlər istədikləri kimi insan fiqurunu və onun ətrafını göstərə bilər.

Rəsmlər toplanır, şagirdlər onu təqdim edir və haqqında məlumat verirlər. Bu rəsmlərdən çox maraqlı sərgi təşkil etmək olar. Sonra Venn diaqramı vasitəsilə Ə.Əzimzadə və B.Kəngərlinin yaradıcılığını müqayisə edirlər.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | İnsan təsvirlərinə dair nöqtəli rəsm, yaxud rəngləmə vermək olar. |
| **Orta** | Dəyər verilən insanları bir arada təsvir etmək. |
| **Yüksək** | Sevimli olan dostları bir arada təsvir etmək. |

**Yaradıcı tətbiqetmə**

Xalq rəssamı Əzim Əzimzadənin yaradıcılığı haqqında əlavə məlumat toplamaq.

**Formativ qiymətləndirmə**

Müəllimə təlim nəticələrinə uyğun rubriklərdən istifadə etmək tövsiyə olunur. O, şagirdlərə rəsmdə əsasən nəyə fikir vermələrini əvvəlcədən söyləyir.

## 13 Fəaliyyətdə olan insanlar

| | |
|---|---|
| **Məşğələ növü** | Yapma |
| **Alt-standartlar** | 1.1.1.; 1.1.3.; 2.2.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı fotolar, yaxud əyani nümayiş üçün yapma işləri, rəssam əsərlərinin reproduksiyası, qiymətləndirmə meyarları və cədvəli, kompüter, proyektor | Dərslik, plastilin, plastilin üçün lövhə, plastik bıçaqlar – steklər, quru və nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| ○ Təsviri sənətin heykəltəraşlıq növü haqqında məlumatı sadalayır. |
| ○ Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Fuad Əbdürrəhmanovun “Oxatan” və “Çoban” əsərlərində insanların fəaliyyəti – hansı işlə məşğul olduqlarını sadalayır. |
| ○ Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Fuad Əbdürrəhmanovun əsərlərini yaradıldığı materiallara görə ayırır. |
| ○ Plastilindən hərəkət edən insan fiqurları düzəldir, hazır fiqurlardan kiçik kompozisiyalar qurur. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Şagirdlər üçün vacib məşğələlərdən biri sayılan yapma dərsləri yaradıcılığı, əşyaların forma və rəng anlayışını inkişaf etdirir. Mövzuda rəssam-heykəltəraşlar əsərlərində hərəkəti necə ifadə etmələrini, insanın gündəlik həyatında olan məşğuliyyətini qabartmaqdan ibarətdir. Mövzuda Azərbaycanın görkəmli Xalq rəssamı Fuad Əbdürrəhmanovun yaradıcılığının xüsusiyyətləri şagirdlərə yaş səviyyələrinə uyğun izah edilir. Rəssamın heykəl əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır və muzeyə əvvəlcədən ekskursiya təşkil etmək tövsiyə olunur. Həmçinin məktəbin yerləşdiyi ərazidən asılı olaraq rəssamın heykəllərilə küçələrdə tanış olmaq olar. Dərsdə yapma vasitəsilə şagirdlərin kiçik motorikası – əl barmaqlarının xırda hərəkətləri təkmilləşir və mütəhərrik olur. Bu da, öz növbəsində, uşağın danışığına

və təfəkkürünün inkişafına təsir edir. Yapmaq – ümumi sinir sisteminə də müsbət təsir göstərir. Plastilinlə yapmanın müxtəlif imkanlarını şagirdlərə başa salmaq və əyani nümayiş etdirmək də faydalıdır.

### Dərsə başlayarkən

Müəllim Xalq rəssamı Fuad Əbdürrəhmanovun yaradıcılığı, əsərlərindən ibarət təqdimat və əsərlərini araşdırmaq üçün suallar hazırlayır. Bundan əlavə nümayiş üçün insan fiqurlarının yapılmasından ibarət foto və ya rəssam əsərləri toplaya bilər. İnsan fiqurunun yapması ilə bağlı əyani vəsaitin hazırlaması tövsiyə olunur.

**Düsünək-müzakirə edək**

Mövzuya giriş üçün dərslikdə Xalq rəssamı Xanlar Əhmədovun "Cavad xan" heykəl əsəri təqdim olunmuşdur. Şagirdlər rəssam əsərinə baxır və insanın nə etdiyini müzakirə edirlər. Heykəldəki insanın geyimi, əl hərəkətləri, atın üstündə yer alması və nə etməsi siniflə araşdırılır. Daha sonra heykəllərin hazırlanmasında istifadə olunan materiallar haqqında müzakirə edir, insan və at fiqurunu rəssam hansı materialdan yaratdığını birlikdə cavablandırırlar.

**Öyrənək**

Müəllim şagirdlərə insan fiquru olan 2 əsər nümayiş etdirə bilər – rəsm və heykəl. Onların bir-birindən olan fərqini izah edir və bildirir ki, rəsmdən fərqli olaraq heykələ hər tərəfdən baxmaq mümkündür. Həcmli insan fiqurları yaradan rəssama heykəltəraş deyilir, onun yaratdığı isə heykəltəraşlıq əsəri adlandırdığını da bildirir. Heykəltəraşlığın əsas məzmunu – insan, nadir hallarda isə heyvan təsvirləridir. Bu zaman heykəltəraş-rəssam hər hansı təsvir obyektini həcmli yaradır. Heykəltəraşlıq mövzularının rəngkarlığa nisbətən imkanları məhduddur. Çünki heykəltəraşlıq vasitələrilə mənzərə, insanı əhatə edən mühiti göstərmək çox çətindir.

Müəllim yapmanın nə olduğunu, insan əli ilə nələri yapmağın mümkünlüyü barədə və plastilinin "məharəti" haqqında sinfə suallarla müraciət edir. Yapma haqqında məlumat verərkən, müəllim onun təsviri incəsənətin ən qədim növlərindən biri olduğunu söyləyir. İnsan müxtəlif materiallardan nə qədər varlıqlar yapa bilir: qardan qaradamı, xəmirdən çörək, duzlu xəmirdən oyuncaq, gildən qab, qumdan heykəl, plastilindən isə adam.

Heykəltəraşlıq sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Fuad Əbdürrəhmanovun həyatı, yaradıcılıq fəaliyyəti, sənətkarlıq xüsusiyyətlərilə şagirdləri tanış edən müəllim onun əsərlərini slaydlar vasitəsilə nümayiş etdirə bilər.

Müəllim heykəltəraşlıq əsərlərini nümayiş etdirir və heykəllərə şəhərimizin küçələrində rast gəlmək olduğunu vurğulayır. Heykəltəraşlar heykəlləri müxtəlif materiallardan yaradırlar: ağacdan, gildən, gipsdən, daşdan, metaldan. Bu heykəllər ətrafdan seçilmək və görünmək üçün hündür və bəzədilmiş altlıq üzərində dayanır.

### Müəllim üçün əlavə məlumat

**Sənətkarın həyat və yaradıcılığı: Fuad Əbdürrəhmanov (1915-1971)**

Azərbaycan milli heykəltəraşlıq məktəbinin ilk nümayəndəsi və bu məktəbin əsasını qoymuş görkəmli heykəltəraş, tanınmış tişə ustası Xalq rəssamı Fuad Əbdürrəhmanovdur. O, dəzgah və monumental heykəltəraşlığı sahəsində bir çox uğurlu əsərlər yaratmışdır. F.Əbdürrəhmanov yaradıcılığının səciyyəvi xüsusiyyətləri kimi obrazların ciddi və dəqiq işlənilməsini, uğurlu və bitkin kompozisiya biçimini, həndəsi kəsişmələrin estetik tutumunu, plastika dolğunluğunu və surətlərin mənəvi-daxili aləmlərini qabartmaq bacarığını və digər xüsusiyyətləri qeyd etmək olar.

F.Əbdürrəhmanov dəzgah heykəltəraşlığı sahəsində məhsuldar fəaliyyəti ilə demək olar ki, yaddaqalan obrazlar qalereyası yaratmışdır. Bunlara misal olaraq "Oxatan" (1934), "Aşıq" (1937), "S.Bəhlulzadə" (1947), "Həzi Aslanovun portreti" (1949), "Çoban" (1951), "Azərbaycan qadını" (1951), "Nizaminin portreti" (1954), "Rudəkinin portreti" (1963) və digər əsərləri göstərmək olar. F.Əbdürrəhmanovun yaratdığı çoxsaylı surətlərdə sənətkar hər zaman gərgin yaradıcılıq axtarışlarında olmuş və üzərində işləmiş olduğu qəhrəmanının fərdi xarakterik cizgilərini, onun portret xüsusiyyətlərini

öyrənmək məqsədi ilə müxtəlif vasitə və üsullardan, bədii ədəbiyyatdan və s. məharətlə istifadə etmişdir. Bu portretlərin uğurlu alınmasında müəllif müxtəlif materiallardan (gips, mərmər, tunc) istifadə etmişdir.

F.Əbdürrəhmanovun II dünya müharibəsi dövründə yaratdığı xalq qəhrəmanları Koroğlu, Babək və Cavanşirin barelyefləri heykəltəraşın xalqımızın zaman-zaman yetişdirdiyi qəhrəmanlara, milli azadlıq mübarizlərinə sevgisinin bariz təzahürü idi.

F.Əbdürrəhmanovun Şərq ədəbiyyatına, Şərq fəlsəfəsinə xüsusi bir sevgisi olmuşdur. Heykəltəraş Azərbaycanla yanaşı Orta Asiyada milli heykəltəraşlıq məktəbinin formalaşmasında mühüm xidmətlər göstərmişdir. F.Əbdürrəhmanov həyatı boyu daim yüksək sənət amallarına sadiq qalaraq, yaratdığı sənət nümunələri ilə Azərbaycan milli heykəltəraşlıq məktəbinin ilk nümayəndəsi kimi öz adını Azərbaycan incəsənət tarixinə əbədi həkk etmişdir.

**Yaradıcılıq studiyası**

Müəllim şagirdlərə hərəkət edən insan fiquru yapmağı tapşırır. İdman və ya hər hansı oyun növlərinə görə cütlüklərlə iş formasını tətbiq etmək olar. Şagirdlər **"Plastilindən hərəkət edən insan fiqurunu necə yapmaq olar?"** sualı ətrafında araşdırma aparırlar. Müəllim onlara əvvəlcə fiqurun hissələrini hazır etməyi, sonra isə birləşdirməyi tövsiyə edir.

Qruplar yapma fiqurları nümayiş üçün toplayır və düzürlər. "Qalereya gəzintisi" vasitəsilə müzakirə aparılır. Fuad Əbdürrəhmanov və Ə.Əzimzadə yaradıcılığını Venn diaqramı vasitəsilə müqayisə edilir. Müəllim nəzərə almalıdır ki, bu mövzuda məqsəd – insan fiqurunun dəqiq proporsiyaları ilə yapılması deyil. Burada şagirdin insanın bədən üzvlərinin (baş, bədən, qollar, ayaqlar) tanıması əsas meyar olaraq götürülmüşdür. Heykəltəraşın yaradıcılığı insan heykəlləri ilə bağlı olduğundan, şagirdlərə sadə şəkildə, bacardıqları kimi fiqurun yapırlar.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Hazır sadə fiqurlardan insan fiquru yapmaq. |
| **Orta** | Hərəkətdə olan insan fiquru yapmaq. |
| **Yüksək** | Sevimli dostların fiqurunu yapmaq və kompozisiyada birləşdirmək. |

**Yaradıcı tətbiqetmə**

Xalq rəssamı Fuad Əbdürrəhmanovun yaradıcılığı haqqında internet, yaxud ensiklopediyalar vasitəsilə əlavə məlumat toplamaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsi cütlüklərin fəaliyyətinin qiymətləndirilməsi cədvəlinə əsasən keçirilə bilər.

**LAYİHƏYƏ HAZIRLIQ**

Müəllim növbəti dərsdə keçiriləcək STEAM layihə ilə tanış olur. Layihənin keçirilməsindən öncə yaşadığı bölgədən asılı olaraq orada fəaliyyət göstərən muzeylərin birinə ekskursiya etmələri tövsiyə olunur. Müəllim şagirdləri muzey eksponatları – rəsm əsərləri, heykəllər, dekorativ-tətbiqi sənət nümunələri və interyerlə tanış edir.

## İncəsənət muzeyində sərgi zalı və tamaşaçıları hazırlayaq




• Rəngli kağızlar • Rəngli flomasterlər
• Pastel təbaşirlər • Quaş

### Dərsə başlayarkən

Müəllim müxtəlif muzey interyerinin fotoları və virtual saytlar vasitəsilə onlara baxış keçirmək tövsiyə olunur. Bunu həzin klassik musiqi sədaları altında etməsi isə şagirdlərdə xüsusi hisslər oyatmış olacaq.

Muzey – hər bir uşağın sonradan məktəbdə ona kömək edəcək bacarıqlar qazandığı və inkişaf etdirdiyi sehrli bir aləmdir. Uşaqlar muzeyi ziyarət edərkən gündəlik həyatda qarşılaşa bilmədikləri real əşyaları görürlər. Muzeylər şagirdlərdə hekayələr mübadiləsini də asanlaşdırır. Uşaqlara erkən yaşlarından gözəlliyi görməyi öyrətmək lazımdır.

Erkən yaşlarda uşaqlara hər hansı bir rəssamın bu və ya digər rəsm əsərinin çəkməsinin səbəblərini, tərcümeyi-halının, əsərin son nəticəsinə və əsərin mənasına təsirini başa düşmək çox çətin ola bilər. Amma bir şey danılmazdır ki, uşaq üçün muzey – əyləncəli bir gəzintidən daha mənalı və təsirlidir. Bu yalnız sənət əsərləri ilə tanışlıq deyil, bu, tamamilə fərqli bir həyat sürən, fərqli yeməklər yeyən, geyinən və fərqli danışan digər dövrlərdən və mədəniyyətlərdən olan insanlarla tanışlıqdır. Bütün bunlar şagirdin tarixi baxımdan dünyagörüşünü xeyli genişləndirir. Bu səbəbdən şagirdlərin muzey haqqında düşüncələrini və təsəvvürlərini özlərinin hazırladıqları muzey və ziyarətçiləri göstərməklə tərbiyə etdirməkdir.

Rəssamların yaratdığı sənət əsərlərinə harada rast gəlmək olar? Onlar harada qorunub saxlanılır və nümayiş etdirilir? Sərgilər nə üçün keçirilir? Orada kimlər iştirak edirlər? – sualları ətrafında müzakirə aparılır.

### Araşdıraq və tədqiqat aparaq

Rəssamlar tərəfindən yaradılan ən yaxşı rəsmlər, əsərlər, heykəllər xüsusi yerdə – muzeylərdə qorunur və nümayiş etdirilir. İnsanlar bu əsərləri seyr etmək üçün muzeylərə gəlirlər. Müasir dövrdə muzeylərə internet vasitəsilə virtual olaraq da ekskursiya etmək olar. Şagirdlər müəllim və ya valideynin köməyi ilə Azərbaycan Milli İncəsənət Muzeyinin rəsmi saytından muzeyə virtual ekskursiya edə bilərlər. Şagirdlərə təsəvvür etdikləri sərgi zalını və tamaşaçıları hazırlamaq tapşırılır.

### Düşünək

Müəllim muzeydə nələri yerləşdirəcəklərini, divarları hansı rəngə boyayacaqlarını soruşur. Ziyarət edənlər arasında kimlərin olacağını, muzeydə hansı rəssamların əsərlərini sərgiləyəcəklərini dəqiqləşdirirlər. Əgər muzeylər olmasaydı, insanların həyatında nə dəyişərdi? – sualı haqqında düşünürlər.

### Yaradaq

Yaradıcı iş qruplarda davam edir. 1-ci qrup müəllimin muzey interyerini çəkdiyi vatman kağızında divarları quaşla rəngləyirlər. Tanış olduqları rəssam əsərlərinin çıxarılmış sürətlərini divarlardan asır, heykəlləri isə yanından yerləşdirirlər. 2-ci qrup monitor və işıqları rəngli kağızlardan hazırlayır. 3-cü və 4-cü qruplar isə ziyarətçiləri – insan sifətlərinin aplikasiyasını hazırlayırlar. İnsanları rəngli kağızlardan, yaxud rəsmini çəkməklə hazırlayır, sonra yapışdırırlar. Sonda bütün qrupların gördüyü iş bir vərəqdə toplanılır və yapışdırılır.

Fəaliyyətinin qiymətləndirilməsi **layihələrin qiymətləndirilməsi** meyarları vasitəsilə aparıla bilər.

# 4. İNSAN VƏ MƏKAN

## 14 Evimizin otaqları

| Məşğələ növü | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 2.1.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı müxtəlif otaq fotoları, şagird işləri, qiymətləndirmə meyarları və cədvəli, kompüter, proyektor | Dərslik, pastel təbaşirlər, quaş, fırçalar, suqabı, palitra, önlük, əsgi parçası, quru və nəm salfetlər |

| Təlim məqsədləri |
|---|
| ○ Sadə təsvir alətlərindən olan fırça və pastel təbaşirləri evin otağının boyanılmasında istifadə edir. |
| ○ Verilmiş müxtəlif otaqların rahat olduğunu və zövqlə bəzədildiyini, içində olan əşyaları şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

İnsanlar müxtəlif yerlərdə yaşayırlar – dağlıq, meşəlik, səhralıq, düzənlik və s. Onlar yaşadığı yerdən asılı olaraq özlərinə ev tikir və ya qururlar. Evin müxtəlif otaqları mövcuddur və hər birinin öz təyinatı var. Mövzuda məqsəd – şagirdlərə öz təsəvvürlərindəki otağı rəsm vasitəsilə çatdırmaqdır.

**Düşünək-müzakirə edək** Dərslikdə niderland rəssamı Vinsent van Qoqun "Yataq otağı" əsəri verilmişdir. Şagirdlər rəssam əsərində hansı otağın olduğunu müzakirə edir və öz fikirlərini orada olan əşyalara görə əsaslandırırlar.

**Öyrənək** Müəllim şagirdləri blokda verilmiş məlumatlarla tanış edir. İnsanlar evlərini daim rahat etməyə çalışırlar. Hər evdə müxtəlif otaqlar var. Otaqlar müəyyən məqsədlər üçün istifadə edilir. İnsanlar onları öz zövqlərinə görə bəzəyirlər. Bu otaqlarda mebel və müxtəlif əşyalar olur.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə sevdikləri və ya xəyal etdikləri otağı çəkməyi tapşırır. **"Otağı çəkmək üçün nəyi bilmək vacibdir?"** sualı ətrafında tədqiqat aparılır. Hər uşağın xəyal etdiyi otaq, onun divar rəngləri, əşyaları var. Uşaqlar bu mövzuda daha yaradıcı olacaqlar, çünki onlara xəyal qurmağa tam sərbəstlik verilir. Müəllim rəsmdə heç bir əşyanın dəqiq çəkilməsini tələb etməməlidir.

Bu tapırıq zamanı müəllim şagirdlərin öz istəklərinə görə qruplara bölər. Məsələn, müəllimin "Kim qonaq otağı çəkmək istəyir?" sualına – şagirdlər əl qaldırır və "Qonaq otağı" qrupunda birləşirlər. Beləliklə "Yataq otağı", "İstirahət otağı", "Uşaq otağı", "Mətbəx" və s. qrupları yaranır. Hansı otağı çəkəcəkləri, divarları hansı rəngə boyayacaqları, otağa nələrin qoyacaq olduqlarını müzakirə edirlər. Amma bu mövzuda çox güman ki, hər uşaq fərdi işləmək istəyəcək və öz xəyalını rəsmində gerçəkləşdirəcəkdir.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Nöqtələmə rəsm, yaxud evin otaqları təsvir edilmiş rəngləmə vermək olar. |
| **Orta** | Sevimli və ya xəyal edilən otağı çəkmək. |
| **Yüksək** | Dostlarla əylənmək üçün maraqlı oyunlar təşkil edilən otaq çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Qeyri-adi sinif otağı çəkmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsi rubriklərin səviyyələri və ya qrup fəaliyyətinin özünüqiymətləndirməsi cədvəli əsasında aparıla bilər.

## 15 Pəncərədəki naxışlar

| | |
|---|---|
| **Məşğələ növü** | Dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standartlar** | 1.1.1.; 1.1.3.; 2.1.2. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı müxtəlif qrafika nümunələri, rəssam əsərlərinin reproduksiyası və şagird işləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, A4 formatlı ağ və ya qara kağız, qara flomaster, ağ və qara pastel təbaşirlər |

| **Təlim məqsədləri** |
|---|
| o Təsviri sənətin əsas növlərindən olan qrafikanın xüsusiyyətlərini sadalayır. |
| o Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Səttar Bəhlulzadənin "Şahnabad dağları" qrafik rəsmində istifadə etdiyi xətləri sadalayır. |
| o Sadə bədii ifadə vasitələrindən olan xətt və cizginin istifadə qaydalarının mənimsədiyini ağ-qara naxışların çəkilməsində nümayiş etdirir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Dərsin məqsədi – ağ-qara rəsmlərin nümunəsində təsviri sənətin əsas növlərindən olan qrafika haqqında fikirləri formalaşdırmaqdır. Qrafik rəsmlərdə istifadə olunan sadə və qara karandaşlar, pastel təbaşirlər və flomasterlərin imkanları haqqında söhbət açılır. Rəngli təsvirlərlə yanaşı ağ-qara rəsmlərin də mövcudluğu və onların incəsənətdə rolu şagirdlərə izah edilir. Mövzuda qrafikanın xüsusiyyətlərini qış fəslinin nümunəsində qarın yaratdığı möcüzələri nağıl formasında zərif naxışları müxtəlif xətlər vasitəsilə çəkilməsini başa salmaq tövsiyə olunur.

**Dərsə başlayarkən**

Müəllim şagirdlərə müqayisə üçün rəngkarlıq əsərləri və ağ-qara qrafik əsərlər nümayiş etdirmək üçün təqdimat hazırlaya bilər. Bunda əlavə rəngli və müxtəlif ağ-qara naxışlar göstərməklə qrafikanın rəngkarlıqdan olan fərqini izah etmiş olur. Əvvəlki dərslərdə keçirilmiş müxtəlif xətt növlərini yada salmaq üçün onları da təqdimata əlavə edə bilər. Mövzunu qış fəsli ilə əlaqələndirərək, şaxtanın, qarın pəncərə üzərində qoyduğu incə və zərif naxışlar haqqında məlumat və ya təqdimat formasını da təqdim edə bilər. İnternet vasitəsilə bu barədə kiçik videoçarxlar də axtarıb tapmaq tövsiyə olunur. Müəllim şagirdləri qrafika haqqında anlayışlar və istifadə edilən qrafik materiallarla tanış etmək üçün yuxarı sinif şagirdlərinin ağ-qara rəsmlərini yaxından nümayiş etdirə bilər.

**Düşünək-müzakirə edək**

Müəllim şagirdlərə qrafika ilə bağlı hazırladığı təqdimatlarla tanış edir, dərslikdə verilmiş sualları birlikdə düşünüb cavablandırırlar.

**Öyrənək**

Şagirdlər dərslikdə verilmiş mətnlə müəllim vasitəsilə tanış olurlar, ağ-qara rəsmlərə qrafika, onu təsvir edən rəssama isə qrafik rəssam deyirlər. Qrafikanı, adətən, qara, yaxud sadə karandaş, flomaster, kömür, qələm və ya tuşla çəkirlər.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə yeni texnika ilə işləmə üsullarını öyrətmək məqsədilə dərsdə dekorativ fəaliyyətə başlayırlar. Müəllim şagirdlərə qarşılarındakı vərəqin sanki pəncərə olduğunu təsəvvür etmələrini istəyir. Qışda, qar yağarkən pəncərələr incə naxışlarla örtülür. Həmin naxışları şagirdlər ardıcıl çəkməklə maraqlı kompozisiya qururlar. Şagirdlər **"Ağ və qara rənglərdən istifadə etməklə naxışları necə çəkmək olar?"** sualı ətrafında tədqiqat aparırlar. Tədqiqat işi cütlüklərlə aparılır. 1-ci cütlük ağ vərəqdə qara flomasterlə, 2-ci cütlər isə qara A4 formatlı vərəqdə ağ pastel təbaşirlərlə "Pəncərə" üzərində zərif naxışlar çəkirlər.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Qış mövzusuna aid rəngləmə naxış kompozisiyanı əvəz edilə bilər. |
| **Orta** | "Pəncərə" üzərində zərif ağ-qara naxışlar çəkmək. |
| **Yüksək** | Ağ və qara rənglərdən istifadə edərək qar dənəcikləri çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Ağ və qara rənglərdən istifadə edərək "Qışda ağaclar" mövzusunu təsvir etmək.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud cütlüklərin fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

## 16 Bizim küçə

| **Məşğələ növü** | Dekorativ-tətbiqi fəaliyyət / Aplikasiya |
|---|---|
| **Alt-standartlar** | 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, rəssam əsərlərinin reproduksiyası, mövzu ilə bağlı foto və şagird rəsmləri, formativ qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, A4 formatlı ağ və rəngli kağızlar, rəngli flomasterlər, qayçı və yapışqan, nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| ○ Rəngli kağızlardan sadə həndəsi fiqurlar kəsir. |
| ○ Hazır fiqurlardan müxtəlif bina formaları fikirləşir. |
| ○ Müxtəlif ölçülü hazır binalardan küçə kompozisiyasının aplikasiyasını hazırlayır. |
| ○ Verilmiş küçə təsvirlərində sadə formalı binaları şərh edir. |

### Dərsə başlayarkən

Müəllim dərsə hazırlaşarkən müxtəlif küçə şəkillərini nümayiş etdirə bilər. Bura iri və kiçik şəhərlərə, kənd və qəsəbələrə aid küçələr daxildir. Küçələr fərqlidir – yollar asfalt və cınqılı, enli və ensiz, işıqlı və svetoforlu, ağaclı və kollu, müxtəlif formalı hündür və alçaq tikililər və s. Müəllim rəngli kartondan kəsilmiş müxtəlif fiqurları nümayiş etdirməklə onları necə binalara çevirmək olduğunu müzakirə etməlidir. Binada pəncərələr, qapılar, eyvan və s. var.

**Düşünək-müzakirə edək** Dərslikdə bir-birindən fərqli olan İşərişəhərin dar küçəsinin, müasir Bakının enli küçələrini və İsmayıllı rayonunun Lahıc qəsəbəsinin küçəsi və küçələrdə yerləşən binalar təqdim edilmişdir. Fotoşəkillərə əsasən müəllif sinfə müraciət edərək onları şərh etməyi bildirir. Binaların quruluşunda hansı formaların olduğu soruşulur. Müəllim özü də

əvvəlcədən hazırlanmış müxtəlif bina formaları nümayiş etdirir. Sonra o şagirdlərdən yaşadıqları küçənin adını bilib bilmədiklərini soruşur və küçələrində nələrin olduğunu birlikdə müzakirə edirlər.

**Öyrənək** Müəllim mətnlə şagirdləri tanış edir. Nümunə üçün müxtəlif ölçülü binalar nümayiş etdirir. Pəncərədən küçəyə baxarkən çoxlu hündür və alçaq, enli və ensiz tikililər görmək olur. Onlar müxtəlif formalardadır. Binaların görünüşünü və quruluşunu planlaşdıran rəssama memar olduğunu da xatırlayılar.

**Qalereya** Bu blokda Azərbaycan Dövlət Filarmoniyasının binası həm rəssam əsərində, həm də fotoşəkillə təqdim edilmişdir. Şagirdlər binanın quruluşunda hansı formaları gördüklərini izah edirlər.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə küçə və binaların aplikasiyasını hazırlamağı tapşırır. Şagirdlər **"Küçə və binaların aplikasiyasını hazırlamaq üçün hansı ardıcıllığa əməl etmək lazımdır?"** sualı ətrafında tədqiqat aparırlar. Onlar əsas fiqurlardan istifadə edərək bina formaları fikirləşirlər. Şagirdləri fiqurlara – bina formalarına əsasən 3 qrupa ayırmaq olar: 1-ci qrup dairəvi və düzbucaqlı bina formaları düşünür, 2-ci qrup üçbucaq və kvadrat formalı, 3-cü qrup dairəvi və üçbucaq formalı binaların aplikasiyasını hazırlayırlar. Binaların harada yerləşəcəyini müəyyən edir, onları rəngli kağızdan kəsirlər. Bu zaman şagirdlər kəsdikləri bina formalarını hündür və alçaq, enli və ensiz olduğunu da unutmurlar. Tapşırığın müəyyən vaxt ərzində çatdırılması üçün qrup nümayəndəsi hər şagird arasında işi bölə bilər. Küçədə olan yol, nəqliyyat, ağacları da kəsib yapışdırırlar.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Hazır kəsilmiş əsas fiqurlardan bina aplikasiyası hazırlamaq. |
| **Orta** | Küçə və binaların aplikasiyasını hazırlamaq. |
| **Yüksək** | Qeyri adi bina formalarının apliksiyasını hazırlamaq. |

**Yaradıcı tətbiqetmə**

Müxtəlif kitab, ensiklopediya və ya internet vasitəsilə Azərbaycanın müxtəlif bölgələrinə aid küçə şəkilləri ilə tanış olmaq, bir-birindən fərqini və oxşarlığı izah etmək.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

## 17 Torpaq və səma

| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 1.1.3.; 2.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, foto, rəssam əsərlərinin reproduksiyası və şagird rəsmləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, quaş, fırçalar, palitra, önlük, suqabı, quru və nəm salfetlər, rəngli flomasterlər, pastel təbaşirlər |

**Təlim məqsədləri**

- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi S.Bəhlulzadənin məşhur "Bahar nəğməsi" əsərində yaxın və uzaqda olanları sadalayır.
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi B.Kəngərlinin "Dağ mənzərəsi" əsərində yaxın və uzaqda təsvir edilənləri sadalayır.
- Sadə təsvir alətlərindən olan fırça, flomaster, pastel təbaşirləri təbiətin təsvirində istifadə edir.

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Mövzuda mənzərə təsvirlərində üfüq xəttinin şagirdlərə üfüq xəttinin çox sadə dildə nə olduğu və nə üçün rəsm əsərlərində vacib rol oynadığı açıqlanır.

Kiçikyaşlı şagirdlər üçün perspektivin qaydalarını sadə anlaşılan formada mənzərə təsvirlərində göstərmək olar. Əvvəlcə "Yaxın – uzaq" mövzusunda eyni obyekt yaxından və uzaqdan araşdırılır. Bunun üçün fotoşəkillərə və yaxud əyani vəsaitə müraciət edilir. Eyni ölçülü obyektlər yaxında olduğu kimi, uzaqda isə kiçik ölçüdə göründüyü müzakirə edilir. Növbəti mərhələ - "üfüq xətti" anlayışı ilə tanışlıqdır. Təbiət təsvirlərinə nəzər salarkən, yer və göyün qovuşduğu xətti görmək mümkündür. 1-ci sinif şagirdinə təsviri sənətin janrı olan mənzərənin adının öyrədilməsi nəzərdə tutulmayıb. Bu janr haqqında o, 2-ci sinifdə ətraflı məlumat alacaq.

**Dərsə başlayarkən**

Üfüq xətti olan rəssamların müxtəlif rəsm əsərlərinin yaxud təbiət təsvirlərinin fotosunun nümayış etdirilməsi tövsiyə olunur.

**Düşünək-müzakirə edək** Dərslikdə verilmiş Səttar Bəhlulzadənin "Bahar nəğməsi" əsəri üzrə müzakirə aparılır. Təbiətin gözəllikləri deyərkən rəngarəng ağaclar, dağlar, gül-çiçəklər, quşlar və s. nəzərdə tutulur. Müəllim əsərdə nələrin uzaqda və yaxında təsvir olunduğunu vurğulayır, siniflə birgə cavablandırırlar. Şagirdlərə "Nəyə görə əsərın adı belə adlanır?" sualı ilə də müraciət etməklə bir-birindən maraqlı suallar dinləmək olar.

**Öyrənək** Dərslikdə rəssamlar öz əsərlərində təbiətin rəngarəngliyini təsvir etdikləri vurğulanır. Müəllim müxtəlif rəssamların təbiət təsvirlərini nümayiş etdirməklə Bu əsərlərdə ağaclar və çiçəklər, quşlar və heyvanlar, mavi səma və buludlar, torpaq və yaşıl çəmənliklər əks olunur. Rəssam bunları yaxından və uzaqdan təsvir edir.

**Qalereya** Bəhruz Kəngərlinin "Dağ mənzərəsi" əsəri 9-cu mövzudakı kimi təhlil edilir. Şagirdlər əsərdə təsvir olunanları sadalayır, onlardan hansıların yaxından və ya uzaqdan göründüyü araşdırılır.

**Yaradıcılıq studiyası** Yaradıcılıq zamanı müəllim şagirdlərə təbiəti təsvir edəcəklərini bildirir. Bunun üçün şagirdlər **"Təbiəti təsvir edərkən, uzaqda və yaxında nələri təsvir etmək lazımdır? Səma və torpağı bir-birindən necə ayırmaq olar?"** sualları ətrafında tədqiqat aparırlar. Torpağı səmadan xətlə ayırır, yaxın və uzaqda nələrin göstəriləcək olduğunu düşünürlər. Dağlar, evlər, ağaclar, kollar və çiçəklər çəkirlər. İş cütlüklərlə aparılır.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Həndəsi fiqurlardan ibarət ağac, ev, günəş çəkmək. Mövzunu nöqtələmə rəsm və ya təbiətin təsviri olan rəngləmə ilə əvəz etmək olar. |
| **Orta** | Təbiəti təsvir etmək. |
| **Yüksək** | Təbiəti təsvir etmək, orada müxtəlif heyvan və quşları çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Azərbaycan rəssamlarının əsərlərində təbiət mövzusunu araşdırmaq, əsərlərlə tanış olmaq.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud cütlüklərin fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

## 18 Əyləncə parkı

| Məşğələ növü | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 2.1.3.; 2.1.4.; 2.2.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, park və karusel fotoları, rəssam əsərləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, quaş, fırçalar, palitra, suqabı, quru və nəm salfetlər, rəngli flomasterlər və karandaşlar |

| Təlim məqsədləri |
|---|
| ○ Əsas rəngləri tanıyır, əyləncə meydançasındakı yelləncəklərin əsas rəngdə olanlarını sadalayır. |
| ○ Sadə və rəngli karandaş, quaş və flomasterlərlə əyləncə parkının təsvirini yaradır. |
| ○ Müxtəlif növ xətlərdən sadə yelləncək formaları çəkir. |

### Dərsə başlayarkən

Müəllim rəngarəng əyləncə parklarının fotolarını nümayiş etdirmək üçün toplayır. Burada əsas rənglərdə olan attraksionlar, fırlanqıclar, yelləncəklər də olması məsləhətlidir. Əyləncə parkı adi parklardan fərqlənir, xüsusən yeniyetmələr və uşaqların əylənməsi üçün nəzərdə tutulmuşdur. Bəzən müəyyən bir mövzuya həsr edilmiş parklar, yəni heyəti müəyyən bir mövzu üçün stilizə edilmiş əyləncə parkları, attraksionlar olur.

**Düsünək-müzakirə edək** Mövzuya giriş üçün müəllim dərslikdə verilmiş şəkil üzrə suallar verə bilər. Burada şagirdlər gördüklərini müzakirə edirlər. Əyləncə meydançasında hansı yelləncəklər olduğunu, onları kimin yaratdığını, hansı formalarda olduğunu siniflə birgə cavablandırırlar. Müəllim şagirdlərin əsas rəngləri xatırlamaları üçün bu rəngdə olan yelləncəklər barəsində də soruşur. Uşaqlara "Burada vaxtınızı necə keçirərdiniz?" sualı ilə müraciət edə bilər.

**Öyrənək** Müəllim şagirdlərə əyləncə meydançalarının necə görünəcəyini rəssamlar düşünürlər. Onlar bunun üçün müxtəlif xətt, forma və rənglərdən istifadə edirlər. Yelləncəkləri də rəssamlar uşaqların zövqünə uyğun yaradırlar.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə rəngarəng və maraqlı əyləncə parkı çəkəcəklərini bildirir. Şagirdlər **"Əyləncə parkını çəkmək üçün nəyi nəzərə almaq lazımdır?"** sualı ətrafında tədqiqat aparırlar. Parkda bir neçə əyləncə meydançası təsvir edin. Orada müxtəlif formalı yelləncəklər çəkin. Parkda görmək istədiklərinizi də əlavə edin. Müəllim əyləncə parkında olan attraksionlara əsasən qruplara bölür. Qruplar öz aralarında görəcəyi işi müəyyən edir və hər qrup əyləncə parkını çəkir.

### Diferensial təlim

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Əyləncə parkı, yelləncəklər, yaxud karusellərlə bağlı nöqtəli rəsm və ya rəngləmə vermək. |
| **Orta** | Rəngarəng və maraqlı əyləncə parkı çəkmək. |
| **Yüksək** | Canlılara bənzər qeyri-adi bir yelləncək (fırlanqıc) forması düşünüb çəkmək. |

### Yaradıcı tətbiqetmə

İnternet vasitəsilə dünyanın müxtəlif ölkələrinin yelləncək, karusel və ya fırlanqıc forma və rəngləri haqqında məlumat toplamaq.

### Formativ qiymətləndirmə

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

**LAYİHƏYƏ HAZIRLIQ**

Müəllim növbəti dərsdə keçiriləcək STEAM layihə ilə tanış olur. Onun əsasında şagirdləri əvvəlcədən qruplara bölür, növbəti dərs üçün evdə hazırlamağa tapşırıq verir. Şagirdlərə görüləcək işlə bağlı evdə istifadə etdikləri kağız və plastik qutuları tullamamağı tövsiyə edir. Qutuların içini yuyub qurutmalı, üzərini birrəngli kağızla yapışdırmağı və qutunun formasından asılı olaraq qapı, pəncərə çəkmək, yaxud kəsib yapışdırmaq tapşırılır. Digər qruplara isə plastilindən, yaxud uzunsov qutu və kartondan ağac və kollar hazırlamağı tapşırır. Bu tapşırıq əvvəlki dərslərin bilik və bacarıqlarına əsasən valideyn nəzarəti altında yerinə yetirilir.

## Şəhərimizi quraq

• Rəngli kağız və karton • Kağız və plastik qutular
• Plastilin • Quaş •Pastel təbaşirlər




### Dərsə başlayarkən

Müəllim şəhər küçəsi üçün iri düz səth hazır edir ki, qruplar onun üzərində yollar kəsib yapışdıra bilsin, sonra isə evdə hazırladıqları tikililəri, ağac və kolları yerləşdirsin. İş qruplarda bitdikdən sonra, kollektiv şəkildə hər qrup gördüyü işi birləşdirərək şəhər qurmağa çalışacaq.

Motivasiya mərhələsi üçün müxtəlif şəhər fotoları nümayiş etdirilə bilər. Müəllim evlərin, müxtəlif tikililərin, küçələrin, parkların birlikdə harada yerləşəcəyi yeri soruşa bilər. Şagirdlərə yaşadığı yerdən asılı olaraq hansı tikililərin olduğu, tikililərdən başqa, daha nələrin yerləşdiyini müzakirə edirlər. Şəhəri gözəl və yaraşıqlı edən nədir? Şəhərin qurulmasında kimlərin rolu var? – sualları ətrafında düşünürlər.

### Araşdıraq və tədqiqat aparaq

Müəllim şagirdlərə dərslikdə şəhər haqqında təqdim edilmiş və ya özünün hazırladığı təqdimat üzrə məlumat verə bilər. Evlər və binalar, müxtəlif hündür və alçaq tikililər, dar və enli küçələr, yaşıl ağac və kollar, park və xiyabanlar şəhərimizi gözəlləşdirir. Memarlar bina və küçələrin necə görünəcəyinin planını hazırlayırlar. Sonra bu plan əsasında maket düzəldilir. Maketlərə hər tərəfdən baxmaq olur. Sonra şagirdlərə özlərinin qura biləcəyi şəhər maketini hazırlamağı tapşırır.

### Düşünək

Qruplar şəhərin planını hazırlayarkən nəyi nəzərə almalıdırlar, şəhərdə hansı binalar olur, binalar bir-birindən nə ilə fərqləndiyi müzakirə edilir. Küçələrdə, yol kənarlarında nə yerləşdirəcəkləri, orada insanların da olub olmadığı dəqiqləşdirilir. Qruplar insanları plastilindən hazırlamaqla lazım olan yerlərdə yerləşdirə bilərlər. Şagirdlər hazırladıqları şəhəri adlandırırlar. Onun digər şəhərlərdən fərqi nədə ola bilər? O nə ilə zəngin olacaq? – suallarına cavab axtarırlar.

### Yaradaq

Şagirdlər birgə şəhərin maketini planlaşdırıb qururlar, müəllim isə onları istiqamətləndirir. Əvvəlcə şəhərdəki küçələri kəsib yapışdırırlar, daha sonra evdə hazırladıqları kağız, plastik qutulardan “ev” və müxtəlif formalarda “binaların” yerini müəyyən edirlər.

Fəaliyyətinin qiymətləndirilməsi **layihələrin qiymətləndirilməsi** meyarları vasitəsilə aparıla bilər.

# 5. ƏYLƏNCƏ ZAMANI

## 19 Ziyafət şirniyyatları

| Məşğələ növü | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 1.1.3.; 2.1.1.; 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, rəssam əsərlərinin reproduksiyası, müxtəlif şirniyyat fotoları, şagird rəsmləri, formativ qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, rəngli flomasterlər, pastel təbaşirlər, quaş, fırçalar, suqabı, palitra, önlük, əsgi parçası, quru və nəm salfetlər |

| Təlim məqsədləri |
|---|
| o Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi S.Bəhlulzadənin məşhur “Azərbaycan nağılı” əsərində təsvir edilmiş şirniyyatları sadalayır. |
| o Sadə təsvir alətlərindən olan fırça, flomaster, pastel təbaşirlərlə rəngarəng tortların boyanmasında istifadə edir. |
| o Müxtəlif növ xətlərdən sadə tort formaları çəkir. |
| o Verilmiş müxtəlif formalı şirniyyat təsvirlərini şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

“Şirniyyat” sözü olan mövzuda müəllimlərin ilk fikirlərinə gələn yəqin ki, milli şirniyyatlarımızdan olan şəkərbura və paxlavanın təsvirləridir. Amma bu mövzuda məqsəd müəllim tərəfindən şagirdlərə şəkərbura və paxlavanın rəsmlərinin çəkdirilməsi deyil. Hər bir uşaq öz ad günündə, hər hansı bir şənlikdə süfrədə rəngarəng, şokoladlı, meyvəli, bol kremli tortları görmək istəyir. Hətta tortların bir-neçə mərtəbəli olmağı, üzəri nağıl qəhrəmanları, yaxud müxtəlif canlıların formalarında olan şokoladlı heykəllərlə, rəngarəng iri və xırda, yumru və uzunsov konfetlərlə, şirin çubuqlarla bəzədilmiş olması onları daha da həyəcanlandırır. Ad günlərində tort üzərindəki şamlar daha da gözəllik verir. Bu da təəccüblü deyil, tortların rəngi, dizaynı, forması, rəngarəngliyi uşaqlarda xüsusi hisslər doğurur, sevinc dolu anlar bəxş edir. Lakin müəllim məşğələ zamanı şagirdlərlə şirniyyatın insan orqanizminə xeyri və zərəri haqqında mütləq söhbət aparması, şagirdlərə şirniyyatların qəbul zamanı normadan artıq olmamasına diqqət yetirmələrini bildirməsi tövsiyə olunur.

**Dərsə başlayarkən**

Müəllimin dərsə hazırlaşarkən uşaqların ən çox sevdiyi şirniyyatların fotosunu nümayiş etdirmək üçün təqdimat hazırlayır. Bu təqdimatda xüsusilə şirniyyatların forması (əsas fiqurlar), ölçüsü, rəngi, bəzəkləri vurğulanmalıdır. Bəzəklər müxtəlif xətlərə – düz, qırıq-qırıq, dalğalı, spiralvarı və s. ilə ola bilər.

**Düşünək-müzakirə edək**

Şagirdlər gördükləri müxtəlif şirniyyatlar haqqında müzakirələr aparırlar. Onların kim və hansı günlərdə hazırlandığını, hansı forma və rənglərdə olduğunu izah edirlər. Tortların bəzədilməsində hansı xətlərdən istifadə olunduğunu, hansı rənglərin seçildiyi haqqında sualları cavablandırırlar.

**Öyrənək**

Müəllim dərslikdəki mətnlə şagirdləri tanış edir. İnsanlar əhəmiyyətli günləri adi günlərdən fərqli qeyd etdiklərini bildirir. Onlar çox vaxt bu günlərdə müxtəlif şirniyyatlar

hazırlayırlar. Rəngbərəng tortlar isə bayram süfrəsinə xüsusi gözəllik verir! Tortun gözəl görünməsində rəssamın rolu böyükdür. Belə rəssamın dekorator adlandığı vurğulanır.

**Qalereya** Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi, Xalq rəssamı Səttar Bəhlulzadənin "Azərbaycan nağılı" adlı əsəri yer almışdır. Əsərdə rəssamın təsvir etdiyi şirniyyatları şagirdlər sadalayır və onlar haqqında bildiklərini söyləyirlər.

**Yaradıcılıq studiyası** Şagirdlərə xətt, forma və rəng vasitəsilə xəyallarında olan qeyri-adi tort çəkmək tapşırılır. Şagirdlər "Tortu çəkmək üçün nəyi nəzərə almaq lazımdır?" sualı ətrafında tədqiqat aparırlar. Əvvəlcə tortun hansı formada olacağını düşünürlər. Bu 1, 2 və ya 3 mərtəbəli tort forması da ola bilər. Hər mərtəbə üçün rəng seçirlər. Bu da asılı olacaq tortun tərkibindən – meyvəli, şokoladlı, vanilli və s. Bəzədilməsində is müxtəlif xətt növlərindən istifadə edirlər. Onun üzərinin necə bəzədilməsi isə şagirdlərin təxəyyüllündən asılıdır. Müəllimin dərsi necə planlamağından asılı olaraq fəaliyyəti fərdi və ya cütlüklərlə iş formasında qura bilər.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Şirniyyatlarla bağlı rəngləmə, yaxud nöqtəli rəsm təqdim etmək olar. |
| **Orta** | Qeyri-adi formalı və rəngli tort çəkmək. |
| **Yüksək** | Qeyri-adi forma və rənglərdə şirniyyatlar çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Hərflər formasında müxtəlif rənglərdə şirniyyatlar çəkmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsi rubriklərin səviyyələri ilə təqdim edilə bilər.

## 20 Bayram geyimləri

| **Məşğələ növü** | Dekorativ-tətbiqi fəaliyyət |
|---|---|
| **Alt-standartlar** | 1.1.2.; 1.1.3.; 2.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı foto, rəssam əsərləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, quaş, fırçalar, suqabı, palitra, önlük, əsgi parçası, quru və nəm salfetlər |
| **Elektron resurslar** | http://behruzkengerli.nakhchivan.az/ |

| **Təlim məqsədləri** |
|---|
| ○ Dekorativ-tətbiqi sənətin əsas növlərindən olan milli geyimin forma, naxış və rənglərini sadalayır. |
| ○ Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi B.Kəngərlinin "Milli geyimli qız" əsərində kostyumun naxışlarını və bəzək əşyalarını sadalayır. |
| ○ Sadə təsvir alətlərindən olan fırçanı nəbati naxışların yaradılmasında istifadə edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Bu dərsdə fırçanın işləmə üsulları ilə tanışlıq şagirdlərdə ilkin bacarıqların təkmilləşdirilməsini formalaşdırır. Bu bacarıqlar dekorativ-tətbiqi sənət növlərindən olan milli geyimlərlə, onları bəzəyən nəbati naxışlarla tanışlıq əsasında inkişaf edir. Bütün sənət növləri kimi dekorativ-tətbiqi sənət də şagirdlərdə gözəllik haqqında anlayışları inkişaf etdirir, bu gözəlliyi yaradan insan əməyinə hörmət hissini tərbiyə edir.

**Dərsə başlayarkən**

Müəllim nəbati naxış nümunələri və milli qadın və kişi geyimlərimizi əks etdirin təqdimat hazırlayır. Bu təqdimatda rəssam əsərlərində milli geyimlərimiz və üzərini bəzəyən naxışlar da əks oluna bilər. Bununla yanaşı fırçanın müxtəlif üsulları ilə işlənmiş nəbati naxış nümunələri nümayiş etdirmək üçün araşdırılması tövsiyə olunur. Dərs zamanı müəllim də şagirdlərlə birgə fırçanın basma və nöqtələmə üsullarını nümayiş etdirəcək. B.Kəngərlinin Naxçıvan teatrı üçün çəkdiyi iri pannolar, səhnə tərtibatını və geyim eskizlərini də nümayiş üçün təqdimata əlavə etmək olar.

**Düşünək-müzakirə edək** Milli geyimlər insanların gündəlik geyindiklərindən nə ilə fərqləndiyi bütün siniflə müzakirə olunur. Onların formaları, ölçüləri, rəngləri və bəzəkləri haqqında düşünüb cavablandırırlar.

**Öyrənək** Şagirdlər dərslikdə təqdim edilən mətnlə tanış olur. Bəzi insanlar xüsusi günlərdə milli geyimlərdən istifadə edirlər. Hər xalqın özünəməxsus milli geyimləri və bu geyimləri bəzəyən naxışları var. Naxış – xətt, fiqur və təbii formalardan ibarət bəzəkdir. Gül və yarpaqlardan ibarət olan bəzək nəbati naxış adlanır. Azərbaycanın da özünəməxsus qadın və kişi geyimləri var. Bu geyimlər öz gözəlliyi, rəngarəngliliyi ilə adi geyimlərdən fərqləndiyini öyrənirlər. Milli geyimlərdə naxışlar, adətən, sinə, qol və geyimin aşağı – ayaq hissəsini bəzəyir. Lakin parçanın bəzəyindən asılı olaraq geyimin bir çox yerində naxışlar görmək mümkündür. Naxışlara harada rast gəlmək olduğunu izah edirlər.

**Qalereya** Azərbaycanın görkəmli rəssamı Bəhruz Kəngərlinin "Milli geyimli qız" əsərində təsvir etdiyi kostyuma yaraşıq verən əlavə daha nələrin çəkdiyi şagirdlər tərəfindən cavablandırılır.

**Müəllim üçün əlavə məlumat**

B.Kəngərli Naxçıvanda teatr sənətinin inkişafı ilə əlaqədar tədbirlərin həyata keçirilməsində yaxından iştirak etmişdir. B.Kəngərli Naxçıvan teatrında Ü.Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasının bədii tərtibatını verərək, ilk dəfə teatr rəssamı kimi fəaliyyətə başlayır. Rəssam 1912-ci ildən 1918-ci ilədək Naxçıvan teatrının səhnəsində Nəcəf bəy Vəzirovun "Pəhləvani-zəmanə", "Hacı Qəmbər", "Müsibəti-Fəxrəddin" – ümumilikdə 40-dan çox tamaşaya irihəcmli pannolar çəkmiş, səhnə tərtibatı və geyim eskizləri vermişdir. Rəssam milli xalq geyimlərinin misilsiz bilicisi idi. O, bədii tərtibat verdiyi əsərlərin personajlarını səciyyələndirən, tarixi dürüstlüyü, milli koloriti, zəngin boyaları, naxışları, bəzəkləri ilə nəzəri cəlb edən çoxlu geyim eskizləri yaratmışdır.

**Yaradıcılıq studiyası** Yaradıcılıq zamanı müəllim sadə həndəsi fiqurlardan ibarət olan milli geyim çəkməyi söyləyir. Geyimin üzəri isə fırçanın basma və nöqtələmə üsulu ilə nəbati naxışlarla bəzəniləcək. Şagirdlər **"Fırça ilə nəbati naxışları necə yaratmaq olar?"** sualı ətrafında tədqiqat aparırlar. Şagirdlər dərslikdəki nümunələrə baxır və öz nəbati naxışlarını fikirləşirlər.

Müəllim şagirdləri fırçanın işləmə üsullarına görə 3 qrupa ayırır. 1-ci qrup – basma, 2-ci qrup – nöqtələmə, 3-cü qrup isə basma və nöqtələmə üsulları ilə milli geyimlərin üzərində nəbati naxış yaradır. Keçilən xətt növlərindən də istifadə etmək məqsədəuyğun olardı.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Gül-çiçək, yarpaq və müxtəlif xətlərdən ibarət sadə naxışlar çəkmək, yaxud nəbati naxışların tətbiqi ilə rəngləmə və ya nöqtələmə rəsm təqdim etmək. |
| **Orta** | Milli geyim çəkmək və üzərini nəbati naxışlarla bəzəmək. |
| **Yüksək** | Fırçanın işləmə üsulları ilə nəbati naxışlardan ibarət kompozisiya yaratmaq. |

**Yaradıcı tətbiqetmə**

İnternet, yaxud ensiklopediyalar vasitəsilə milli geyimlərimiz haqqında əlavə məlumat toplamaq.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

# 21 Xüsusi geyimlər

| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 2.1.1.; 2.1.3.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, rəssam əsərlərinin reproduksiyası, peşə geyimlərinin fotosu, şagird rəsmləri, formativ qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, rəngli flomasterlər, quaş, fırçalar, suqabı, palitra, önlük, əsgi parçası, quru və nəm salfetlər, pastel təbaşirlər |

| **Təlim məqsədləri** |
|---|
| ○ Sadə təsvir alətlərindən olan fırça, flomaster və pastel təbaşirləri hərbçi geyiminin rənglənməsində istifadə edir. |
| ○ Hərbçilərin geyimində əsas rəngləri tanıyır, onları sadalayır. |
| ○ Verilmiş peşə geyimlərində forma, xətt, rəng və ləkələri şərh edir. |

**Dərsə başlayarkən**

Müəllimin dərsə hazırlaşarkən ilk növbədə nümayiş üçün xüsusi geyimlər haqqında məlumat və fotolar toplamağı məsləhət görülür. Dərsi hərbi marş, yaxud himn ilə başlamaq olar. Bunun üçün musiqiləri mp3 formatında kompüterə yükləməklə şagirdlərə dinlətmək mümkündür. Müəllimin istəyindən asılı olaraq, mövzunu vətənpərvərlik ruhunda olan şeir və ya hekayə ilə də başlada bilər.

**Düşünək-müzakirə edək**

Mövzuda şagirdlər müxtəlif peşə geyimlərini bir-birindən fərqləndirir. Bu geyimləri hansı xüsusiyyətlərinə görə tanımaq olar, onların rəngi, hissələri, əlavələri, hansı peşələrə aid olduğu siniflə birgə müzakirə edilir.

**Öyrənək**

Müəllim şagirdləri dərslikdə verilmiş məlumatla tanış edir. Bir çox peşələrə aid xüsusi geyim forması olur. Bu geyimləri başqalarından fərqləndirən forma, xətt və ləkələr var. Onların rəngləri də fərqlidir. Bəzi peşə sahiblərinin də bayram geyimləri olur. Məsələn, hərbçilər bayram günlərində və paradlarda daha təmtəraqlı geyinirlər.

**Qalereya**

Dərslikdə hərbçilərimiz Bakıda keçirilən Zəfər paradından fraqment fotoları verilmişdir. Hərbçilərin bayram geyimlərində hansı rənglər olduğu müzakirə edilir.

**Müəllim üçün əlavə məlumat**

Hər dövr üçün xarakterik olan hərbi geyimlərin inkişafında ənənə həmişə mühüm rol oynamışdır. Hərbi geyimlərin müasir görünüşü də qədim adət-ənənələrin təsirini göstərir. Müasir dövrdə artıq tək rəngli və çox rəngli kamuflyajlar var. Adətən, monoxromatik kamuflyajın ən məşhur rəngi xaki (torpaq rəngi – yaşıl ilə qəhvəyinin qarışığı və onun tonları) hesab olunur. Hərbi geyim forması hərbi qulluqçuların hərbi əşyaları, fərqləndirmə nişanları və hərbi ləvazimatlarının komplektidir. Hərbi geyim forması mərasim, gündəlik, səhra geyim formalarına və xüsusi geyimlərə, onlardan hər biri isə öz növbəsində yay və qış geyimlərinə bölünür.

Hərbi geyimə aiddir: üst geyimləri – qış və yaz paltosu, buşlat, plaş, kitel, tujurka, gödəkcə, kombinezon və s.; baş geyimləri – papaq, qulaqlı papaq, furajka, şlyapa, pilotka, beret və s.; ayaqqabılar – tufli, botinka, uzunboğaz çəkmə və s.; yüngül geyimlər – köynəklər, yun köynəklər, şərflər, əlcəklər və s.

Hərbi qulluqçuların fərqləndirmə nişanlarına aiddir: poqonlar, yaxa nişanları, döş və qol nişanları, baş geyimlərindəki nişanlar, poqon və yaxalıqlardakı nişanlar (emblemlər, ulduzlar və s.) aiddir. Bundan əlavə hərbi geyim formasındakı rəng, biçim, geyimin komplektliyi, düymələr və geyimin başqa detalları kimi digər xarici fərqləndirmə əlamətlərindən də həmin məqsədlərlə istifadə edilir.

Hərbi ləvazimatlara aiddir: bel kəməri, aşırma kəmər, səhra jileti, əşya torbası, qumquma və bel üçün çexollar, səhra çantası, qobur və s.

Hazırda Azərbaycan Silahlı Qüvvələrində zabit, gizir, çavuş və əsgər vəzifələrində təqribən 1000 nəfərə yaxın qadın hərbi qulluqçu xidmət edir.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə hərbçi geyimi çəkməyi tapşırır. Şagirdlər **"Hərbçi geyimini çəkmək üçün nəyi bilmək vacibdir?"** sualı ətrafında tədqiqat aparırlar. Bu geyim hansı rəngdə olacağı, hərbçini harada çəkəcəklərini, onun nə etdiyini, yanında, ətrafında nələrin olacağını müəyyən edirlər. Üçrəngli bayrağımızı da əlavə etmək tapşırılır.

Digər dərslərdə olduğu kimi, müəllim insan fiqurunun çəkilməsində onun dəqiq ölçülərinə diqqət yetirməyi, proporsiyaları gözləməyi şagirdə məcbur etməməlidir. Şagird insan fiqurunu təsəvvür etdiyi kimi həndəsi fiqurlarla da çəkə bilər. Əsas odur ki, hərbçi geyiminin rəngləri, üzərindəki ləkələri düzgün göstərilmiş olsun. İşi qruplarda müxtəlif hərbçi geyimlərinin çəkilməsi əsasında təşkil etmək olar.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Hərbçi geyimini əks etdirən rəngləmə təqdim etmək. |
| **Orta** | Hərbçi geyimi çəkmək. |
| **Yüksək** | Vətənpərvərlik mövzusunda rəsm çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Müxtəlif ölkələrin hərbçi geyimləri barədə məlumat toplamaq.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

## 22 Oyun geyimləri

| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 2.1.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, oyun və ya idman geyimlərinin fotoları, rəssam əsərlərinin reproduksiyası, şagird rəsmləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, pastel təbaşirlər, rəngli flomasterlər, quaş, fırçalar, su qabı, palitra, önlük, əsgi parçası, quru və nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| ○ Sadə təsvir alətlərindən olan fırça, rəngli flomaster və pastel təbaşirləri oyun geyimlərinin rənglənilməsində istifadə edir. |
| ○ Verilmiş oyun geyimlərində forma, ölçü və rəngləri şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Uşaqlar həyatdə, parkda, əyləncə və idman meydançalarında oyun oynamağı çox sevirlər. Oyunlar insan hərəkətlərini nizama salır, tənəffüs orqanlarını və qan dövranını yaxşılaşdırır, sinir sisteminin funksiyasını tənzimləyir, əzələləri inkişaf etdirir, sağlamlığı möhkəmləndirir. Oyun oynayarkən rahat və gözəl geyim seçmək də çox vacibdir.

**Dərsə başlayarkən**

Müxtəlif rənglərdə, formada, üzərində naxışları olan oyun üçün müxtəlif geyim növləri seçmək. Oyunlar haqqında maraqlı təqdimat hazırlamaq. Bununla yanaşı müəllimin dərslikdə verilmiş oyun növlərindən əlavə maraqlı naxışlı və rəngarəng formalı oyun geyimləri də seçərək təqdim edə bilər. Mövzuda oyunlarla bağlı musiqi və ya videoçarx da istifadə edilə bilər.

**Düşünək-müzakirə edək**

Müəllim müxtəlif rənglərdə, formada, üzərində naxışları olan oyun üçün müxtəlif geyim növləri nümayiş etdirir (dərslik və ya hazırladığı təqdimat üzrə). Şagirdlərdən insanların bu geyimləri nə vaxt geyindiyini soruşur. Onlar forma, ölçü və rənglərinə görə bir-birindən necə fərqləndiyi nümayiş etdirilir. Uşaqların adətən hansı idman oyunlarını daha çox sevdiyi və ya üstünlük verildiyi də müzakirə olunur. Müəllim oyun zamanı komanda nə demək olduğunu, müxtəlif oyunlar zamanı onların komandasında neçə uşağın yer aldığını soruşa bilər. Komandaları bir-birindən neçə fərqləndirmək olduğu da müzakirə edilir.

**Öyrənək**

Müəllim şagirdləri dərslikdə verilmiş məlumatla tanış edir. O, bildirir ki, oyun zamanı insanlar rahat geyinirlər. Geyim rəngarəng və naxışlı olur. Oyunlarda komanda üzvləri eyni geyinirlər. Bu geyimlər rəqib komandanın geyimlərindən fərqlənir.
Qeyd: dərslikdə voleybol, tennis, basketbol və futbol geyimlərinin rəsmi verilmişdir. Onlar digər sadə idman geyimlərindən rəngarəngliyi və naxışlarına görə fərqlənir. Adı çəkilən idman geyimlərini həm böyüklər, həm də kiçiklər oynamağı çox sevir və geyinə bilir, hətta ailəlikcə belə oyunlara qoşulurlar.

**Qalereya**

Blokda Azərbaycan Xalq rəssamı Xalidə Səfərovanın "Basketbol" oyunu əsəri təqdim edilmişdir. Rəssamın təsvir etdiyi oyun haqqında, oyunçuların geyimlərinin rənginin niyə fərqli olduğu soruşulur.

**Müəllim üçün əlavə məlumat**

Futbol, voleybol, basketbol və tennis – iki komanda arasında topla oynanılan idman növləridir. Futbolda iki komanda bir biri ilə qarşılaşır və hər biri, qapıçı da daxil olmaqla, 11 oyunçudan ibarətdir. Hər komandada ən azı 7 oyunçu olmalıdır, əks halda oyun başlaya bilməz. Ehtiyat oyunçuların sayı isə 3-7 ola bilər. Voleybolda hər komandada beş əsas və beş ehtiyat oyunçu olur: mərkəz oyunçular, hücumçular və müdafiəçilər. Voleybolda oyunçuların forması kofta, şort və idman ayaqqabısından ibarətdir. Basketbol oyununda hər bir komandada 5 nəfərdən ibarətdir. Tennis iki nəfər və yaxud hərəsində iki nəfər olan iki komanda arasında oynanılan bir oyundur.

**Yaradıcılıq studiyası**

Müəllim şagirdlərə oyun üçün geyim çəkməklərini tapşırır. Şagirdlər **"Oyun üçün geyim çəkmək üçün nəyi bilmək və nə etmək lazımdır?"** sualı ətrafında tədqiqat aparırlar. Müəllim şagirdlərə oyun üçün geyim çəkməyi tapşırır. Oyun adlarına görə şagirdləri 4 qrupa bölə bilər. 1-ci qrup voleybol, 2-ci qrup tennis, 3-cü qrup basketbol, 4-cü qrup isə futbol oyununu çəkir. Oyunçuların qızlar və ya oğlanlardan ibarət komanda olacağına qruplar özləri qərar verir. Neçə oyunçu olacağını, onlara necə bir geyim forması geyindirəcəklərini düşünürlər. Geyimlərdə hansı rəngləri və naxışları göstərəcəklərin qərarlaşdırırlar. Dərsin sonunda Venn diaqramı əsasında şagirdlərin çəkdiyi rəsmlər əsasında 1 və 2-ci qrup, 3 və 4-cü qrup arasında olan oyun geyimlərinin forma, rəng və naxışları müqayisə olunur.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Oyun geyimləri olan rəngləmə, yaxud nöqtələmə rəsm təqdim etmək. |
| **Orta** | Oyun üçün geyim çəkmək. |
| **Yüksək** | Ailə üçün oyun geyimləri çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Müxtəlif ölkələrdə keçirilən oyun geyimləri haqqında məlumat toplamaq və geyimləri çəkmək.

**Formativ qiymətləndirmə**

Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edə bilər.

# 23 Bayram maskaları

| Məşğələ növü | Dekorativ-tətbiqi fəaliyyət |
|---|---|
| **Alt-standartlar** | 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı aplikasiya fotoları, şagird işləri, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, birdəfəlik kağız boşqab, rəngli kağızlar, çöplər, dartılan iplər, yapışqan |

| Təlim məqsədləri |
|---|
| ○ Maskaların hazırlanmasında müxtəlif növ xətlərdən rəngli kağız üzərində sadə həndəsi fiqurlar çəkir. |
| ○ Rəngli kağızlar və birdəfəlik boşqablardan sadə heyvan maskaları düzəldir. |
| ○ Verilmiş sadə formalı heyvan maskalarını şərh edir. |

**Dərsə başlayarkən**

Müəllim müxtəlif canlıların başı formasında maskaların fotolarını araşdırır, onların necə hazırlanması qaydaları üzrə əyani vəsait də hazırlaya bilər. Maskaları müxtəlif materiallardan hazırlamaq olar: kağızdan, dəridən, parçadan və digər materiallardan. Şagirdlərin yaş səviyyəsinə uyğun olaraq birdəfəlik boşqablardan istifadə etmək məsləhətlidir. Müəllim motivasiya üçün rollu oyunundan istifadə edə bilər.

**Düşünək-müzakirə edək** Dərslikdə verilmiş və ya müəllimin hazırladığı təqdimatda maskalarda hansı canlıların əks olunduğu bildirilir. Maskalardan nə zaman və nə üçün istifadə edildiyi, maskaların forma, rəng və naxışları siniflə birgə müzakirə edilir.

**Öyrənək** Müəllim şagirdləri dərslikdəki materiallarla tanış edir. İnsanlar bayram və şənliklərdə çox zaman maska taxırlar. Çox vaxt maskaları heyvan, quş və həşəratlara bənzədirlər. Onlar kağızdan, dəridən, parçadan və digər materiallardan hazırlanır. Maskadan istifadə edərkən insanlar onu ya əlində tutur, ya da iplər vasitəsilə başına bağlayır.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə şənlik üçün maska hazırlamağa tapşırır. Şagirdlər **“Şənlik üçün maskanı necə hazırlamaq olar?”** sualı əsasında tədqiqat aparırlar. Müəllim şagirdlərin diqqətini nümayiş etdirdiyi heyvan maskalarına yönləndirir və onların adı ilə qruplara bölür. 1-ci qrup zürafənin, 2-ci qrup – şirin, 3-cü qrup – zebrin, 4-cü qrup – inəyin, 5-ci qrup – itin, 6-cı qrup – dovşanın, 7-ci qrup – filin, 8-ci qrup isə pələngin maskasını hazırlayır. Müəllim öz və ya şagirdlərin istəyinə uyğun olaraq istənilən heyvan maskalarını hazırlamaq təklif edə bilər.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Hazır kəsilmiş heyvan maskalarını uyğun şəkildə rəngləmək və ya rəngli kağızlarla yapışdırmaq. |
| **Orta** | Şənlik üçün maska hazırlamaq. |
| **Yüksək** | Təxəyyülə əsasən qeyri-adi maska hazırlamaq. |

**Yaradıcı tətbiqetmə**

Quşun dimdiyi, heyvanın başı, həşəratların qanadları olan qeyri adi maska hazırlamaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsində müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edilə bilər.

**LAYİHƏYƏ HAZIRLIQ**

Müəllim növbəti dərsdə keçiriləcək STEAM layihə ilə tanış olur. Bu layihədə şagirdlər bölmə üzrə tanış olduqları bilik və bacarıqları yenidən tətbiq etmiş olacaqlar. Müəllim əvvəlcədən sinfi 2 qrupa bölür. 1-ci qrup qız, ikinci qrup oğlan fiqurlarını hazır etməyi tapşırır. Bu fiqurlar ağ vərəqdə çəkilir, rənglənilir və kəsilir. Digər variant kimi – fiqurlar rəngli kağızlardan kəsilir, detallar isə flomasterlərlə işlənilir. Müəllim qeyd etməlidir ki, hər bir uşağın əlində mikrofon olsun.

## Əyləncə üçün məkan və geyim çəkək

- A1 formatlı vərəq
- Quaş
- Flomasterlər
- Pastel təbaşirlər
- Qayçı
- Yapışqan




**Dərsə başlayarkən**

Müəllim dərsi başlayarkən sinfin ən sevdiyi musiqilərdən birinin melodiyasını səsləndirir və şagirdlərdən birlikdə ifa etməyi xahiş edir. Coşqulu musiqi sədaları altında hamı birlikdə oxuyub rəqs edə bilər. Bu məqamda müəllim onların əylənməyini və istirahət etmələrini, mahnı oxumağı, rəqs etməyi nə qədər sevdikləri haqqında soruşur. Bütün bunların necə adlandığını və karaoke haqqında eşitdiklərini, onun nə qədər faydalı və şən olduğunu bildirir.

Musiqi uşaqların hərtərəfli inkişafına töhfə verir və gələcəkdə təhsil almaq, xüsusən də dil öyrənmək və oxumaq bacarıqlarını inkişaf etdirməyə kömək edir. Uşaq anadan olandan etibarən valideynlər onları sakitləşdirmək, sevgi və sevinclərini ifadə etmək, maraq yaratmaq və ünsiyyət qurmaq üçün musiqidən istifadə edirlər.

**Araşdıraq və tədqiqat aparaq**

Müəllim karaoke haqqında məlumat verir. "Karaoke" – yapon sözüdür, "boş orkestr" mənasını verir. Karaoke zamanı insanlar böyük səhnələrdə olduğu kimi musiqi sədaları altında mahnı oxuyur, rəqs edir, özlərini məşhur müğənnilərə oxşadırlar. Onlar asudə vaxtlarını səmərəli keçirirlər. Mikrofon, səsgücləndirici, lazer disklər, monitor və videoyönləndiricilər karaoke ifa etmək üçün çox vacibdir. Şagirdlər bu məlumatlar üzrə araşdırma aparırlar. Müəllim şagirdlərdən nə vaxtsa karaoke ifa edib etmədiklərini soruşur.

**Düşünək**

Təsəvvür edin ki, birlikdə karaoke ifa edirsiniz. Bunun üçün hansı mahnıları seçərdiniz? Bəs məkanı necə təsəvvür edirsiniz? Məkanda nələr olmalıdır? Musiqini səsləndirmək və ifa etmək üçün nələr lazımdır? Geyim və ayaqqabılarınızın necə olmağını istərdiniz? – sualları ətrafında düşünürlər.
Karaoke ifa edərkən hansı yeniliklərlə tanış olur, nələr öyrənirsiniz? Ailənizlə birlikdə karaoke ifa etməyi düşünürsünüzmü? – suallarını birlikdə cavablandırırlar.

**Yaradaq**

Müəllim şagirdlərə A1 formatlı vərəqdə əvvəlcədən çəkdiyi məkan interyerini təqdim edir və məkan üçün rəng seçməyi xatırladır. Qruplardan biri məkanı rəngləyir, digəri səhnənin tərtibatı ilə məşğul olur, üçüncülər səsucaldıcı, monitorları kəsib hazır edirlər. Dördüncü qrupdakı şagirdlər rəngarəng işıqları göstərmək üçün onları müxtəlif əlvan rənglərlə boyayır, yaxud rəngli kağızlardan kəsirlər. Bunun üçün işi öz aralarında bölüşürlər.
Uşaqların rahat olması üçün gözəl və əlvan geyimlər düşünüb çəkiblər. Evdə ayrı vərəqlərdə çəkib rənglədikləri uşaqları harada yapışdıracaqlarını müəyyən edirlər. Müəllim təklif edir ki, bəlkə onlara maskalar da çəksinlər? Sonra hazır uşaq fiqurlarını kəsirlər və səhnə olan vərəqdə yerləşdirərək yapışdırırlar.
Fəaliyyətinin qiymətləndirilməsi **layihələrin qiymətləndirilməsi** meyarları vasitəsilə aparıla bilər.
.

# 6. HƏYATIMIZDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR

## 24 Ağıllı oyuncaqlar

| | |
|---|---|
| **Məşğələ növü** | Dekorativ-tətbiqi fəaliyyət / Aplikasiya |
| **Alt-standartlar** | 2.2.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, hazırlanmış oyuncaq fotoları, formativ qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, rəngli kağız və karton, qayçı, yapışqan, nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| ○ Rəngli kağızlardan sadə oyuncaq formaları düzəldir. |
| ○ Oyuncaqların hazırlanmasında müxtəlif növ xətlərdən sadə həndəsi fiqurlar çəkir. |
| ○ Verilmiş oyuncaqları və onlardan nələrin düzəltmək olduğunu şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Uşaqların inkişaf prosesində, ətraf mühitin dərk olunmasında oyuncaqların, ümumiyyətlə oyunun vacib rolu var. Oyuncaqlar uşaqların sağlam böyüməsinə, münasibətlərin dərk olunmasına və gələcəkdə onlara lazım olacaq bacarıqlara yiyələnmələrinə kömək edir. Oyunlar kimi oyuncaqlar da insanlar, eləcə də heyvanlar üçün bir çox məqsədlərə xidmət edir. Onlar əyləncəli təlim rolunu daşıyırlar. Oyuncaqlar oxşar davranış hərəkətlərini artırır və yaradıcılıq qabiliyyətini stimullaşdırır. Onlar eyni zamanda gələcək həyatda vacib olan fiziki və əqli bacarıqların inkişafına kömək edir. Mövzu ilə tanışlıqdan əvvəl müəllim şagirdləri Heydər Əliyev Mərkəzində və digər muzeylərdə nümayiş etdirilən müasir iri kuklalar və oyuncaqlarla tanış olmaq üçün ekskursiyaya aparmağı tövsiyə olunur.

### Dərsə başlayarkən

Müəllimin dərsə hazırlaşarkən qədim və müasir oyuncaqlar haqqında məlumat, suallar və fotolarla zəngin maraqlı təqdimat hazırlayır. Qədim və müasir oyuncaqların hazırlandığı materialları, oyuncaqların inkişaf mərhələsini təqdim etmək olar. Videoçarx vasitəsilə müasir oyuncaqların necə hazırlanmasını nümayiş etdirmək olar.

**Düşünək-müzakirə edək** Şagirdlər təqdim olunmuş ağıllı oyuncaqlar haqqında bildiklərini söyləyirlər. Onların hər bir hissəsi hansı fiqurlara bənzədiyini, bu oyuncaqlardan nələr düzəltmək olduğunu müzakirə edirlər.

**Öyrənək** Hər bir uşağın sevdiyi çoxlu oyuncaqlar var. Onlar müxtəlif forma, ölçü və rənglərdə olur. Qədimdə oyuncaqlar daş, sümük, ağac, gil və ya parçadan hazırlanardı.

### Müəllim üçün əlavə məlumat

Oyuncağın tarixi çox qədimdir. İnsan, heyvan, əsgər və digər fiqurlu oyuncaqlar arxeoloji qazıntılar zamanı aşkar olunub. Texnologiya, eləcə də cəmiyyət inkişaf etdikcə, oyuncaqlar da dəyişdi. Qədim oyuncaqlar daş, ağac və gildən hazırlandığı halda, müasir oyuncaqlar daha çox plastik, parça və sintetik materiallardandır və batareyaların köməyi ilə hərəkətə gətirilir. Əgər ilk oyuncaqlar onları istifadə edən uşaqların valideynləri ya özləri tərəfindən düzəldilirdisə, müasir oyuncaqlar isə əksinə, kütləvi şəkildə istehsal olunur. Hər yaşda olan uşaqlara görə oyuncaqların daha əyləncəli olması üçün müxtəlif materiallardan istifadə olunur. Oyuncaqların hazırlandığı materiallar, onların edə biləcəkləri dəyişsə də, bir fakt dəyişməz olaraq qalır ki, uşaqlar hər zaman oyuncaqlarla oynayırlar.

Bəzi oyuncaqlar isə əsasən oyun üçün yox, məhz sərgi kolleksiyalarında nümayiş olunmaq üçün istehsal olunur.

**Yaradıcılıq studiyası**

Şagirdlərə barmaqlarında hərəkət etdirə biləcəkləri maraqlı bir oyuncaq hazırlamağı tapşırır. Şagirdlər **"Oyuncaq hazırlamaq üçün hansı ardıcıllığa əməl etmək lazımdır?"** sualı ətrafında tədqiqat aparırlar.
Qruplar karton kağız üzərində qrupun adına uyğun verilmiş formalardan birini çəkir və kəsirlər. Sonra rəngli kağızdan detalları kəsib yapışdırırlar. Barmaqlar üçün dairələr kəsməklə işi tamamlamış olurlar. Mövzuda qız və oğlanlar üçün ayrıca oyuncaqların hazırlanması əsas məqsəd daşımır, Gender problemlərinə riayət etmək məsləhət görülür.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Oyuncaqları əks etdirən rəngləmə yaxud nöqtələmə rəsm çəkmək və rəngləmək. |
| **Orta** | Barmaqlarla hərəkət edə biləcək maraqlı bir oyuncaq hazırlamaq. |
| **Yüksək** | "Ailə" adlı müxtəlif oyuncaqlar hazırlamaq. |

**Yaradıcı tətbiqetmə**

Müxtəlif materiallardan istifadə etməklə xəyal edilən oyuncaq formasını hazırlamaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsində müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edilə bilər.

## 25 Gündəlik əşyalar

| **Məşğələ növü** | Yapma (naturadan) |
|---|---|
| **Alt-standartlar** | 1.1.1.; 1.1.2.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı foto, rəssam əsərlərinin reproduksiyası, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, plastilin, plastilin üçün lövhə, plastik bıçaqlar – steklər, quru və nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| o Dekorativ-tətbiqi sənətin misgərlik növünü sadalayır. |
| o Plastilindən misgərlik məmulatları yapır. |
| o Verilmiş qabları və onların materialını şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Dərsdə kiçikyaşlı şagirdlərə dekorativ-tətbiqi sənətin növlərindən biri olan misgərlik və onun xüsusiyyətləri haqqında ümumi məlumat verilir. Mövzu məişət əşyasının forma və bəzəyinin təyinatından ("Nə üçündür? Hansı məqsədlərdə istifadə olunur?" və s.) asılı olduğunu dərk etməyi öyrədir. Mövzunun şərhi zamanı xalq sənətini qoruyub saxlamağı, insan əməyinə hörmətlə yanaşmağı şagirdlərdə tərbiyə etmək çox əhəmiyyətlidir. Misdən hazırlanan məişət əşyaları həm forma, həm də naxışlarına görə digər qablardan fərqli olur. Ustaların misdən hazırladığı incə naxışlı məişət əşyaları muzeylərimizdə qorunub saxlanılır və onlardan dolça, satıl, sərnic, məcməyi, güyüm, aşsüzən, kəfgir, kasa, cam, qazan bu gün də evlərimizi bəzəyir. Şagirdlərə plastilin vasitəsilə misdən hazırlanan ən sadə məişət əşyalarını necə düzəltməyi və üzərini naxışlarla bəzəməyi başa salmaq məqsədəuyğundur.

**Dərsə başlayarkən**

Misgərlik məmulatlarının əyani və ya fotolarda nümayişi şagirdlərdə onlar haqqında təsəvvürləri daha da geniş tanış olmağa imkan açacaq. Misgərlik məmulatları tanınmış rəssam əsərlərinin fotolarında, şagird rəsmlərində də yer alır. Müəllim misgər, misgərlik və mis məmulatlar haqqında məlumat və təqdimat hazırlamağı tövsiyə edilir. 1-ci sinif şagirdi üçün mis məmulatlarının çəkilməsi ağır ola bilər, bu sə-

bəbdən yapma fəaliyyətinə üstünlük verilir. Dərsin motivasiya mərhələsi üçün şüşə, plastik və mis qabların nümayişi və müqayisəsi nəzərdə tutula bilər.

**Düşünək-müzakirə edək** Dərslikdə verilmiş qablar və onların materialları barədə, onların necə hazırlandığı, istifadə edildiyi, formaları bütün siniflə müzakirə edilir.

**Öyrənək** Müəllim əyani olaraq şüşə, plastik və mis qabları şagirdlərə göstərərək onların hansı materialdan olduğunu soruşur. Sonra onların fərqli və oxşar cəhətlərini Venn diaqramı vasitəsilə birgə müəyyən edirlər.

Şagirdlər dərslikdə olan məlumatla tanış olurlar. Müəllim bildirir ki, keçmişdə sənətkarlar metaldan müxtəlif məişət əşyaları düzəldərdilər. Ən çox istifadə olunan metal isə mis idi. Misdən düzəldilmiş əşyalara misgərlik nümunələri deyilir. Qədim misgərlik nümunələrinə hər bir ailədə, əsasən də, bölgələrimizdə rast gəlmək olar. Misgərlik sənətinin qədim ənənələri bu gün də yurdumuzda qorunaraq nəsildən-nəslə ötürülür. Mis qablardan – məcməyi, kasa, aşsüzən və kəfgir haqqında, onların naxışları və harada istifadə olunması barədə söhbət aparılır. Müəllim Azərbaycanda ən çox inkişaf etmiş misgərlik sənətinin xalqın məişətində və mədəniyyətində mühüm yer tutduğunu vurğulaya bilər. İnsan hər zaman çalışır öz məişətində istifadə etdiklərini bəzəsin, onlara gözəllik versin.

**Yaradıcılıq studiyası** Yaradıcılıq zamanı müəllim mis qab-qacaqları plastilindən yapmağı tapşırır. Şagirdlər "**Mis məişət əşyalarını plastilindən hansı ardıcıllıqla yapmaq olar?**" sualı üzrə tədqiqat aparırlar. Praktik iş qruplarda yerinə yetirilir. Müəllim şagirdləri mis qabların adı və ya mis məişət əşyalarının şəkilləri vasitəsilə 4 qrupa bölür. Hər qrup ardıcıllıqla "mis" sini, kasa, aşsüzən və kəfgir yapır. Əvvəlcə plastilindən yumru forma hazırlayırlar. Sonra həmin formanı "mis" əşyaya çevirir və üzərini naxışla bəzəyirlər. Yapmanı mərhələlərə uyğun olaraq müəllim şagirdlərə başa salır və üzərində sadə naxış formalarını isə heykəltəraş bıçağı – steklə necə cızmağı göstərir.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Mis qabların təsviri olan rəngləmə təqdim etmək. |
| **Orta** | "Mis" sini, kasa, aşsüzən və kəfgir yapmaq. |
| **Yüksək** | "Mis" qablardan ibarət çay dəsgahı yapmaq. |

**Yaradıcı tətbiqetmə**

Azərbaycanın misgərlik sənəti haqqında müxtəlif mənbələrdən məlumat toplamaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsində müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edilə bilər.

## 26 Gələcəyin mebeli

| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 2.1.2.; 2.1.4.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, müasir oturacaqların fotoları, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, sadə və rəngli karandaşlar, rəngli flomasterlər, pastel təbaşirlər |

| **Təlim məqsədləri** |
|---|
| ○ Sadə bədii ifadə vasitələrindən olan xətt və cizgini oturacağın dizaynında istifadəsini nümayiş etdirir. |
| ○ Sadə və rəngli karandaşlarla, rəngli flomaster və pastel təbaşirlərlə oturacağın təsvirini yaradır. |
| ○ Verilmiş oturacaqların forma, rəng və materialını şərh edir. |

**Dərsə başlayarkən**

Mövzunun motivasiya mərhələsində müasir mebel, xüsusilə oturacaqlar və müqayisə üçün qədim sandıq nümunələrindən ibarət fotolar, yaxud təqdimat hazırlamaq olar. Oturacaqların müxtəlif materiallardan hazırlanmasına, dizaynında xətt növlərinin olmasına, rəng və qeyri-adi formalarına diqqət yetirmək tövsiyə olunur.

**Düşünək-müzakirə edək** Mövzuya giriş üçün dərslikdə verilmiş yaxud müəllimin təqdim etdiyi oturacaqların forması, rəngi və materialı haqqında soruşulur. Onların kim tərəfindən düşünüldüyü, necə hazırlandığı müzakirə edilir. Oturacaqlardakı xətləri şifahi təsvir edilir.

**Öyrənək** Müəllim dərslikdəki məlumatı şagirdlərə çatdırır və bildirir ki, rəssam istifadə etdiyimiz mebeli də dizayn edir. Onların xətt, rəng və formalarını planlaşdırır. Belə mebellərdən biri də oturacaqlardır. Keçmişdə isə oturacaqların olmamasını, insanların yerdə və ya sandıq üzərində oturduqlarını vurğulayır. Ola bilsin ki, bir çox uşaqların sandıq haqqında məlumatı yoxdur, yaxud onu görməyiblər. Müəllim sandıq haqqında qısa məlumat verə bilər və ondan daha necə istifadə edildiyini də bildirir. Keçmişdə sandığın üzərində boyalarla müxtəlif rəngarəng naxışlar, bitki, heyvan və quş rəsmləri çəkərdilər. İnsanlar bu naxış və rəsmlərin qoruyucu işarələr olduğuna inanır və sandıq olan evi şər qüvvələrdən qoruyur hesab edərdilər. Sənətkarlar sandığı metal və ağacdan hazırlayardılar.

**Yaradıcılıq studiyası** Müəllim şagirdlərə qeyri-adi oturacaq düşünüb çəkməyi tapşırır. Şagirdlər **"Qeyri-adi oturacağı çəkmək üçün nəyi bilmək lazımdır?"** sualı ətrafında tədqiqat işi aparırlar. Xətlərdən və fiqurlardan istifadə edin. Oturacağın formasını təbiət formalarından da düşünə bilərsiniz.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Oturacaq təsviri olan rəngləmə, yaxud nöqtəli rəsm təqdim etmək. |
| **Orta** | Qeyri-adi oturacağı çəkmək. |
| **Yüksək** | Məktəbli üçün rahatlığı ilə seçilən qeyri-adi oturacaq çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Rəsm ləvazimatlarının (dəftər, kitab, karandaşlar, flomasterlər, boyalar və s.) hamısının yerləşə biləcəyi qeyri-adi oturacaq-rəf düşünüb çəkmək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsində müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edilə bilər.

## 27 Səyahət üçün avtomobil

| **Məşğələ növü** | Mövzu üzrə rəsm |
|---|---|
| **Alt-standartlar** | 2.1.1.; 3.1.1. |
| **Resurslar** | |
| **Müəllim üçün** | **Şagird üçün** |
| Vəsait, dərslik, mövzu ilə bağlı fotolar, rəsmlər, qiymətləndirmə meyarları, kompüter, proyektor | Dərslik, albom, rəngli flomasterlər, pastel təbaşirlər, quaş, fırçalar, suqabı, palitra, önlük, əsgi parçası, quru və nəm salfetlər |

| **Təlim məqsədləri** |
|---|
| o Sadə təsvir alətlərindən olan fırça, flomaster, pastel təbaşirləri avtomobilin rənglənilməsində istifadə edir. |
| o Verilmiş avtomobillərin forma və funksiyasını şərh edir. |

**Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr**

Mövzuda müasir avtomobillər, onların yaranma tarixi, məqsədi, cihazı, növləri və çeşidi haqqında məlumatlandırmaqla yanaşı, şagirdlərdə xəyal və təxəyyül gücünü inkişaf etdirməkdən ibarətdir. Mövzu ilə əlaqədar şagirdlərdə idrak marağını inkişaf etdirmək, təhlil, müqayisə etmək bacarıqlarını formalaşdırmaq, əsaslandırmaq və nəticə çıxarmaq əsas məqsəd kimi götürülmüşdür.

**Dərsə başlayarkən**

Müəllim əvvəlcədən köhnə buraxılış və yeni model avtomobillərin fotolarını hazırlayır. Dərsin motivasiya mərhələsi üçün müxtəlif nəqliyyat vasitələrinin fotolarını nümayiş etdirməsi tövsiyə edilir. Motivasiyanı avtomobillə bağlı tapmaca, krossvord, anlayışın çıxarılması, yaxud açar sözlərlə də təqdim edə bilər.

**Düşünək-müzakirə edək**

Dərslikdə verilmiş avtomobillərin forması haqqında soruşulur. Onların nəyə bənzədiyi, harada – yerdə, suda, yoxsa havada hərəkət etdiyi cavablandırılır. Avtomobillərin kim tərəfindən icad edildiyi, onların içərisini (salonunu) necə təsəvvür etdiklərini bütün siniflə müzakirə edirlər. Dərsin bu mərhələsində müəllim şagirdləri mövzu haqqında açıq və sərbəst düşünməyə sövq etmək məqsədilə klaster (şaxələndirmə) üsulunu həyata keçirir. "Avtomobil" sözü lövhənin mərkəzində yazılır, şagirdlər isə ilk ağıllarına gələn söz və ifadələri birgə qeyd edirlər.

**Öyrənək**

Şagirdlər təsviri incəsənət dərslərində bu vaxta kimi rəssamın dizayn etdiyi əşyaları sadalayır və müəllim hər gün gördüyümüz müxtəlif avtomobilləri də rəssamların dizayn etdiyini bildirir. Dizaynerlər avtomobilləri müxtəlif forma, ölçü və rənglərdə düşünürlər. Bu avtomobillər bir birindən həm də funksiyasına görə fərqlənir.

Müəllim şagirdlərə xüsusi təyinatlı avtomobillərin də olduğunu bildirir. Bu avtomobillər çox məsuliyyətli iş üçün lazımdır. Insanların yardıma ehtiyac olarsa, telefonla zəng edin onları çağırırlar:

Yanğınsöndürənlərə və xilasedicilərə zəng etmək üçün telefon nömrəsi: 101.

Polisə zəng etmək üçün: 102; Təcili yardım çağırmaq üçün: 103; Qaz xidmətinə zəng etmək üçün: 104.

Müəllim mövzuda hərbi avtomobillər və nəqliyyat vasitələrinin müxtəlif növləri haqqında da məlumat verə bilər.

**Yaradıcılıq studiyası**

Müəllim şagirdlərə xəyal etdikləri yeni bir avtomobil çəkməyi tapşırır. Şagirdlər **"Xəyal etdiyimiz yeni bir avtomobili çəkmək üçün nəyi bilmək lazımdır?"** sualı ətrafında müzakirə aparırlar. Avtomobillər hansı formalarda ola bilər, onların ümumi quruluşu necə olduğu müzakirə edilir. Müəllim şagirdləri avtomobilin hərəkət edəcəyi mühitə əsasən 4 qrupa bölür. 1-ci qrup suda və quruda, 2-ci qrup – havada və quruda, 3-cü qrup – suda və havada, 4-cü qrup isə suda, havada və yerdə hərəkət edə biləcək qeyri-adi bir avtomobil düşünüb çəkirlər. Onun haraya səyahət edə biləcəyi də rəsmlərdə göstərilir. Qruplar öncə avtomobilin formasını, sonra rəngini düşünürlər. Çəkəcəkləri avtomobilin bir və ya bir neçə rəngi də ola bilər. Rəsmlər qruplar tərəfindən təqdim edildikdən sonra, dərsin əvvəlində avtomobil haqqında qeyd edilən şaxələndirmə üsuluna şagirdlərin yeni öyrəndiklərini də əlavə edirlər.

**Diferensial təlim**

Müəllim şagirdlər üçün çətinlik dərəcəsi müxtəlif olan tapşırıqlar hazırlaya bilər:

| | |
|---|---|
| **Zəif** | Avtomobillərlə bağlı rəngləmə, yaxud nöqtəli rəsmi çəkib tamamlamaq. |
| **Orta** | Suda, havada və yerdə hərəkət edə biləcək qeyri-adi bir avtomobil çəkmək. |
| **Yüksək** | İki mərtəbəli, müxtəlif funksiyalara malik qeyri-adi avtomobil çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Avtomobillər haqqında maraqlı məlumat və faktlar toplamaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin formativ qiymətləndirməsində müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrup fəaliyyətinin qiymətləndirilməsindən istifadə edilə bilər.

**LAYİHƏYƏ HAZIRLIQ**

Müəllim növbəti dərsdə keçiriləcək STEAM layihə ilə tanış olur. Müəllim şagirdləri qruplara bölür və qrupların görəcəyi işdən asılı olaraq, yaradıcı tapşırıq üzrə istifadə ediləcək ləvazimatları gətirməyi tapşırır. Şagirdlərin düzəldəcəyi robotlar gətirdikləri materiallardan asılı olacaq. Onlar sadəcə dərslikdə təqdim edilən ləvazimatları deyil, hətta plastik su və yoğurt qutuları, yumurtaların yerləşdirildiyi karton və plastik qutuları, silindrik formada olan plastik və ya karton salfet qutuları, kibrit və ya dərman məhlulu olan qutular, süngər, banka və ya şirə qapaqları, düymələr, çöplər, yoğun iplər və s. gətirə bilərlər.

## Gələcəyin robotlarını hazırlayaq

• Rəngli kağızlar • Karton • Kağız və plastik qutular
• Rəngli flomasterlər • Pastel təbaşirlər • Quaş




### Dərsə başlayarkən

Müəllim dərsi şagirdlər üçün sanki yeni bir kəşfin sevincini yaşayırlarmış kimi təqdim etməlidir. Robot və uçan aparatların hazırlanması riyazi təfəkkürün, məntiqin və yaradıcılığın inkişafına kömək edir. Fəaliyyət texniki peşələrlə əlaqəli olmasa da, bu biliklər gələcəkdə bütün uşaqlara faydalı olacaq. Bu cür fəaliyyətlər uşağın yaradıcılığını inkişaf etdirir, riyaziyyat, fizika, kompüter elmləri və məntiq, yaradıcılıq və başqa sahələrlə ünsiyyət kimi fənləri birləşdirir. Robotların hazırlanması uşaqları robototexnika, yüksək texnologiya və ya proqramlaşdırma sahəsində başqa bir peşə seçməyə də sövq edə bilər.
Ətrafınızda çoxlu robot olsaydı, nə baş verərdi? İnsanların gördüyü işləri robotlar etsəydi, o zaman insanlar nə işlə məşğul olardılar? Gələcəyə səyahət etmək istərdinizmi? Gələcəkdə həyatımızda hansı dəyişikliklər baş verə bilər? Gələcəyin robotları necə olacaq? Onlar hansı işləri görəcək? Robotları kim dizayn edir? Robotlar hansı materiallardan hazırlanır? Müxtəlif suallar əsasında mövzuya giriş etmək olar.

### Araşdıraq və tədqiqat aparaq

Araşdırmaq üçün müəllim tərəfindən robotlar haqqında maraqlı videoçarx, yaxud məlumat təqdim edilə bilər. Təsviri sənət məşğələlərində rəssam-dizaynerlərin gördüyü işlərlə tanış olan şagirdlər, onların hətta robot-maşın da düşünüb dizayn etdiklərini öyrənirlər. Müasir robotlar müxtəlif iş görə bilir. Robotların dizaynından başqa, mütəxəssislər onların idarə olunması üçün proqram təminatını da düşünürlər. Bu, robotların vəzifələrini dəqiq şəkildə yerinə yetirməsinə imkan verir. Robotu idarə etmək üçün kiçik hissələri və düymələri olur. Şagirdlər həmin robotların hansı hissələrdən ibarət olduğunu, onun hazırlandığı materialı, rəngi və formaları üzərində tədqiqat aparırlar.

### Düşünək

Şagirdlər robotlara harada rast gəlmək olduğunu, onun nə iş görə biləcəyini düşünürlər. Robotların forması, rəngi və detalları nəyə əsasən seçildiyi müzakirə edilir. Şagirdlərin robotunu xüsusi edən nə olacağı haqqında düşünürlər.

Ətrafınızda çoxlu robot olsaydı, nə baş verərdi? İnsanların gördüyü işləri robotlar etsə, o zaman insanlar nə işlə məşğul olardı? –sualları ətrafında müzakirə aparılır.

### Yaradaq

Müəllim şagirdlərə uça bilən aparat və fərqli robotlar hazırlamağı tapşırır. Yaradıcılıq işi 6 qrupda aparıla bilər. 1, 3 və 5-c qruplar robotlar, 2, 4 və 6-ci qruplar isə uça bilən aparatlar hazırlamaq tapşırılır. Dərslikdə verilmiş, yaxud müəllimin hazırladığı nümunələrə baxmaq olar. Şagirdlər robotu məişətdə istifadə etdikləri və evdən gətirdikləri lazımsız kağız və plastik qutulardan, rəngli kağız və kartondan hazırlayırlar. Qruplar əvvəlcə robotun nə iş gördüyünü müəyyən edirlər, sonra onun hissələrini müəyyən edirlər. Robotun görəcəyi işdən asılı olaraq üzərinə detal və düymələrini yerləşdirirlər. Uçan aparata isə karton, yaxud plastik su qablarından və su içən çöplər vasitəsilə qurmaq olar.
Fəaliyyətinin qiymətləndirilməsi **layihələrin qiymətləndirilməsi** meyarları vasitəsilə aparıla bilər.

# 20 Bayram geyimləri

**Dərsin gedişi / Motivasiya**

Müəllim təqdimat vasitəsilə və ya yazı lövhəsindən fırçanın müxtəlif üsullarla işlənmiş naxış təsvirləri asır və soruşur:

– Təsvirlərdə nə görürsünüz? *(naxışlar)*

– Naxışlarda nələr təsvir olunub? *(gül, yarpaq, xətlər, nöqtələr)*

– Bu naxışlar nə ilə işlənilib? *(fırça və boya ilə)*

– Gül, yarpaq, budaq və xətlərdən – bir sözlə, təbiət formalarından ibarət olan naxışlar ***nəbati*** adlanır. Naxışlara harada rast gəlmək olar? *(xalça, süfrə, geyim və s.-də).*

Bu gün siz fırçanın basma və nöqtələmə texnikası ilə naxış yaradacaqsınız.

**TƏDQİQAT SUALI: Fırça ilə nəbati naxışı necə yaratmaq olar?**

**Tədqiqatın aparılması.** Müəllim şagirdləri fırçanın işləmə üsullarına görə 3 qrupa ayırır. 1-ci qrup – basma, 2-ci qrup – nöqtələmə, 3-cü qrup isə basma və nöqtələmə üsulları ilə milli geyimlərin üzərində nəbati naxış yaradır. Keçilən xətt növlərindən də istifadə etmək məqsədəuyğun olardı. Müəllim hər xalqın milli naxışlarının, bəzək elementlərinin onun geyimlərində daha çox əks olunduğunu qeyd edə bilər. Milli geyimlərdə naxışlar, adətən, sinə, qol və geyimin aşağı – ayaq hissəsini bəzəyir. Lakin parçanın bəzəyindən asılı olaraq geyimin bir çox yerində naxışlar görmək mümkündür.



Müəllim qrup fəaliyyətinin qiymətləndiriləcəyinin aparılacağını xatırladır və meyarlar təqdim edir.



Nəbati ornamenti təsvir etmək üçün fırça ilə ayrı-ayrı elementləri məşq etmək məqsədəuyğun olardı.




*Yaxmanın istiqamətləri*



*Naxış nümunələri*



*Düz fırçalar*



*Yumru fırçalar*



Müəllim sağlamlıq imkanları məhdud olan şagirdlər üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Fırça ilə çəkilən nəbati naxışları rəsm, naxışlara və ya milli geyimlərə dair rəngləmə ilə əvəz etmək olar.

**Məlumatın mübadiləsi.** Qruplar işlərini yazı lövhəsinin qarşısından düzürlər. "Qalereya gəzintisi" vasitəsilə şagirdlər hər qrupun geyim nümunələrini bəzəyən naxışlara baxır və rəylərini söyləyir.

**Ümumiləşdirmə və nəticə.** Fırçanın hansı işləmə üsulları var? Bu üsulla daha nə çəkmək olar?

**Yaradıcı tətbiqetmə**. Xalçanın üzərini fırçanın işləmə üsulları ilə naxışlarla bəzəmək.

**Qiymətləndirmə**. Qrup fəaliyyətinin qiymətləndirilməsi aparılır. Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Sonda qrupların nail olduğu nəticələr hesablanır.

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əmək-daşlıq | Fırça ilə naxışlar tam və uyğun yerinə yetirilib | Geyimlərin üzərindəki nəbati ornamentlərə münasibət bildirilib | Tərtibat | Vaxtında yerinə yetirilib | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |

## 25 Gündəlik əşyalar

**Dərsin gedişi / Motivasiya**

Müəllim əyani olaraq şüşə, plastik və mis qabları şagirdlərə göstərərək onların hansı materialdan olduğunu soruşur. Sonra onların fərqli və oxşar cəhətlərini birgə müəyyən edirlər.

– Əzəldən yurdumuzun sənətkarları metaldan müxtəlif məişət əşyaları düzəldərdilər. Ən çox istifadə olunan metal isə ***mis*** idi. Misdən düzəldilmiş əşyalara ***misgərlik*** nümunələri deyilir. Qədim misgərlik nümunələrinə hər bir ailədə, əsasən də, bölgələrimizdə rast gəlmək olar. Misgərlik sənətinin qədim



ənənələri bu gün də yurdumuzda qorunaraq nəsildən-nəslə ötürülür. Mis qablardan — məcməyi, kasa, aşsüzən və kəfgir haqqında, onların naxışları və harada istifadə olunması barədə söhbət aparılır. Sonra onları plastilindən yapmaq tapşırılır.

**TƏDQİQAT SUALI: Mis məişət əşyalarını plastilindən necə yapmaq olar?**

**Tədqiqatın aparılması.** Praktik iş qruplarda yerinə yetirilir. Qrupları məişət əşyalarının şəkilləri vasitəsilə ayırmaq olar. Yapmanı mərhələlərə uyğun olaraq müəllim şagirdlərə başa salır və üzərində sadə naxış formalarını isə heykəltəraş bıçağı ilə necə cızmağı göstərir. Qrup fəaliyyətinin qiymətləndiriləcəyi bildirilir.

Müəllim sağlamlıq imkanları məhdud olan şagirdlər üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar verə bilər. Lakin yapma olduğundan şagird bacardığı kimi istənilən mis qabı yapa bilər.

**Məlumat mübadiləsi**. Qruplar yapdıqlarını təqdim edir. Onlar təriflər, suallar və təkliflər üsulundan istifadə edərək müzakirə aparır.

**Ümumiləşdirmə və nəticə.** Mis əşyaları hansı ardıcıllıqla düzəltdiniz? Onlara harada rast gəlmək olar? Misdən hazırlanmış hansı əşyaları evdə istifadə edirsiniz?

**Yaradıcı tətbiqetmə**. Misgərlik sənəti haqqında müxtəlif mənbələrdən məlumat toplamaq.

**Qiymətləndirmə.** Müəllim təlim nəticələrinə uyğun rubriklərdən, yaxud qrupların aşağıdakı qiymətləndirilmə formasından istifadə edə bilər.

| Qruplar | MEYARLAR | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Yapma necə yerinə yetirilib | Əlavələr | Mövzuya dair təqdimat | Vaxta qənaət | Nəticə |
| I | | | | | | | |
| II | | | | | | | |
| III | | | | | | | |

**Yaradıcılıq qovluğu — portfolio**

İbtidai təhsil pilləsində təlim və tərbiyənin əsas məsələlərindən biri – şagirdin fərdi yaradıcı bacarığının üzə çıxarılması və inkişafıdır. Hər bir şagirdin nailiyyətinin yüksəldilməsində, öz imkanlarına inamın yaradılmasında, yaradıcı işlərin formalaşmasında, öz bacarıq və qabiliyyətinin üzə çıxarılmasında portfolionun – "Yaradıcılıq qovluğu"nun yaradılması zəruridir. Bu portfolionun üzəri, müxtəlif rəsm və dekorativ işlərin saxlanılması üçün, hər bir şagird tərəfindən fərdi və fərqli rəsmlərlə tərtib edilir. Həcmli işlərin fotoşəklini çəkməklə portfolioda saxlamaq olar.

Müəllim şagirdlərə portfolionun nə olduğunu başa salmaq üçün rəssamların çəkdikləri rəsmlərin səliqəli və təmiz qalması üçün onları harada saxladıqları haqqında soruşur. O, rəssamların rəsmləri toplamaq üçün qovluqları olduğunu, hər bir şagirdin də çəkdiyi rəsmləri belə qovluqda saxlamaqlarını və onu birgə hazırlayacaqlarını bildirə bilər.

Şagirdlər maraqlı bir şəkil çəkdikdən sonra onu qovluğun üzərinə yapışdırırlar: bu zaman qovluqları bir-birindən daha cəld və səhvsiz fərqləndirmək olar. Şəkil çəkmək üçün müxtəlif materiallar var: sadə karandaş, diyircəkli qələm, rəngli karandaşlar, pastel təbaşirlər və ya flomasterlər.

Bu materiallardan istifadə edərək vərəqdə sərbəst mövzuda istənilən təsviri yaradırlar. Rəsmi bəzəmək üçün ətrafında bir qədər təmiz yer saxlamaq lazımdır. Bu rəsm qovluqları bəzədiyi üçün onun maraqlı olmasına çalışmaq lazımdır. Şagirdlər özlərini, ana və ya atalarını, dostlarını, maşın və oyuncaqlarını, gülləri, təbiəti, yaxud nağıllardan istənilən mövzunu çəkə bilərlər.



Rəsmi tamamladıqdan sonra iri hərflərlə vərəqin sağ küncündə şagirdlər öz adını yazır. Yazmağı bacaranlar rəsmin altında *soyadını, yaşını, təhsil aldığı məktəbi* qeyd edə bilər. Yazmağı bacarmayan uşaqlara müəllim tərəfindən köməklik edilə bilər. Müəllim sağlamlıq imkanları məhdud olan şagirdlər üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Qovluğun üzərinə yapışdırmaq üçün istənilən rəngləmə vermək olar. Sonradan müəllim həmin qovluqları toplayır və lazımi yerdə saxlayır.

## İstifadə edilən ədəbiyyat


1. A.Əhmədov, Ə.Abbasov. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, "Təhsil", 2008.
2. Azərbaycan dilinin izahlı lüğəti, 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
3. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Lider", 2004.
4. Azərbaycan Uşaq Folkloru Kitabxanası. "Mərasimlər, adətlər, alqışlar..." 1-ci kitab. Bakı, "Gənclik", 1993.
5. C.Həsənzadə, E.Hacınski. "Ayna" Uşaq Ensiklopediyası EXXON MMM. İncəsənətin misilsiz sərvəti. Bakı, "Ayna" Mətbu Evi, 1999.
6. Q. Hüseynov və b. İnklüziv təhsil (ibtidai təhsil pilləsi üçün), 2010.
7. Rasim Əfəndiyev. "Azərbaycan xalq sənəti". Bakı, "İşıq" nəşriyyatı, 1984.
8. Rasim Əfəndi. "Azərbaycan incəsənəti". Bakı, "Şərq-Qərb ", 2007.
9. Məmmədov V.S., Əmiraslanov İ.R., Nəcəfov H.N., Mirsəliyev A.A. "Naxışların yaddaşı". Bakı, "Azərnəşr", 1981.
10. Lətif Kərimov. "Azərbaycan xalçası". Bakı, "Yazıçı", 1985.
11. Fərəcova Məlahət Novruz qızı "Azərbaycan qayaüstü rəsmləri". Bakı, «Aspoliqraf», 2009.
12. Наджафов М. "Саттар Бахлулзаде". Живопись. Москва, "Советский художник", 1985.
13. Живопись Азербайджанской ССР. 1960-е годы. Москва, "Советский художник", 1976г. Автор-составитель М.Наджафов.
14. Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Москва, "Советский художник".
15. Преттье М.К. и Капальдо А. "Творчество и выражение", том 2. Москва, "Советский художник", 1985.
16. Детская энциклопедия. Том 12. Москва, Издательство "Педагогика", 1977.
17. Лавров А.М. "Школа. Учитель. Искусство". Москва "Просвещение", 1981.
18. "Рисунок и живопись», том 1. Государственное издательство "Искусство". Москва, 1961.
19. "Энциклопедический словарь юного художника". Москва, "Педагогика", 1983.
20. "Изобразительное искусство Азербайджанской ССР". Москва, "Советский художник", 1978.
21. "Изобразительное искусство для детей. Виды и жанры изобразительного искусства". Сокольникова Н.М., Ломов С.П. Книга для семейного чтения и творческого досуга. АСТ. "Астрель", Москва, 2009.
22. "Цвет и линия". Ю.Аксенов, М.Левидова. Практическое руководство по рисунку и живописи. Москва, "Советский художник", 1976.
23. Роджер Эрб, Стефан Зелевски. "Цвет и свет". Энциклопедия. Издательство "Мир книги", 2007.
24. Ящухин А.П. "Живопись". Москва, "Просвещение", 1985.
25. Кастерман Ж. "Живопись". Рисуй и самовыражайся. Детское справочное бюро. Москва, Издательство АСТ. "Астрель", 2002.
26. Н.М. Конышева. Наш рукотворный мир. М. 1996

*BURAXILIŞ MƏLUMATLARI*

*Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün*
*Təsviri incəsənət fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021-007)*
*metodik vəsaiti*

**Tərtibçi heyət:**

Müəllif **Kəmalə Cəfərzadə**

Nəşriyyat redaktoru **Kəmalə Abbasova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Korrektor **Aqşin Məsimov**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 9,3. Fiziki çap vərəqi: 10.
Səhifə sayı 80. Formatı: 57x82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Times new roman 10-11 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş______ Tirajı 8200. Pulsuz. Bakı – 2021.

Əlyazmanı yığıma verildiyi və çapa imzalandığı tarix: 10.09.2021

Çap məhsulunu nəşr edən:
“Bakı” nəşriyyatı (Bakı ş., H.Seyidbəyli küç., 30).

Çap məhsulunu istehsal edən:
“Radius” MMC (Bakı ş., Binəqədi şossesi, 53).

Pulsuz